RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 112 (10132) 30 iyun 2026-cı il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Türk dünyası ailəsi əsrin nüfuzlu geosiyasi güc mərkəzlərindən biri olmaq yolundadır

## Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş "Türk Dünyası Həftəsi"nin iştirakçılarına

Hörmətli iştirakçılar!

Sizi Azərbaycanda Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş "Türk Dünyası Həftəsi"nin öz işinə başlaması münasibətilə səmimi-qəlbdən salamlayıram.

Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsinə dair ötən ilin oktyabrında Qəbələdə Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü zamanı irəli sürdüyüm təşəbbüsün bu gün reallaşması məmnunluq doğurur.

Birinci Türkoloji Qurultayın 100 illik yubileyi ilə əlaqədar "Türk Dünyası Həftəsi"nin Azərbaycanın Türk Dövlətləri Təşkilatına sədrliyi dövrünə təsadüf etməsinin xüsusi rəmzi mənası vardır.

Paytaxtımızın memarlıq incilərindən sayılan əzəmətli İsmailiyyə Sarayında dünya türkologiyasının görkəmli simalarını və məşhur tədqiqatçı alimlərini yüz il əvvəl bir araya toplamış Birinci Türkoloji Qurultay zəngin keçmişə və qədim irsə malik türk xalqlarının mövcud şəraitdə mədəni inteqrasiyasının məfkurə olaraq təşəkkül tapması baxımından müstəsna əhəmiyyət daşıyır.

Türk dünyasının ortaq mənəvi dəyərlərinin - dil, tarix, etnoqrafiya, ədəbiyyat və mədəniyyətin inkişafı və gələcəyi ilə bağlı vacib məsələlərin, xüsusən vahid ümumtürk əlifbasına keçilməsinin diqqət mərkəzində saxlanıldığı beynəlxalq miqyaslı bu unikal elmi-mədəni forumun o zaman məhz Azərbaycanda keçirilməsi təsadüfi deyildi. Azərbaycan XIX əsrdən etibarən köklü ictimai-siyasi və mədəni dəyişikliklər nəticəsində yeni tipli teatr, məktəb və ilk milli mətbu orqanı yaratmaqla milli özünüdərkin gerçəkləşməsinə zəmin hazırlamış, müsəlman və türk dünyasında artıq ilk demokratik dövlət qurmuşdu. Paytaxt Bakı şəhəri də hələ ötən əsrin əvvəllərindən özünün milli ruhlu ziyalılar nəslindən ibarət intellektual mühitinin yüksək səviyyəsi ilə seçilərək dünya türkologiyasının mötəbər mərkəzlərindən biri kimi tanınırdı.

Əfsuslar olsun ki, Birinci Türkoloji Qurultayda səslənən başlıca fikir və müddəaların həyata keçirilməsinin qarşısı az sonra sovet totalitar idarə üsulu tərəfindən düşünülmüş formada süni maneələrlə alındı. Qurultay nümayəndələrinin əksəriyyətini isə məqsədli şəkildə 1930-cu illərdə amansız repressiyalara məruz qoydular. Onların xatirəsini bu gün də ehtiramla yad edirik.

Qurultayın obyektiv zərurətdən irəli gələn və bütün türk aləminin tərəqqisini nəzərdə tutan taleyüklü qərarları elmi-mədəni həmrəyliyimizin qorunub saxlanılmasında mühüm platforma rolunu oynamış, sərt sınaqlara tab gətirərək, 70 illik kommunist rejiminin süqutundan sonra milli müstəqillik əldə edən türk xalqlarının mədəni-mənəvi dirçəliş yollarını yenidən işıqlandırmışdır.

Əminliklə söyləyə bilərik ki, Türk Dövlətləri Təşkilatının ortaq humanitar məkan formalaşdırmaq üçün müasir mərhələdə uğurla gerçəkləşdirdiyi layihələrin bünövrəsində Birinci Türkoloji Qurultayın vaxtilə irəli sürdüyü mütərəqqi fikirlər dayanır.

Türk dünyası ailəsi böyük bir sivilizasiya yaratmış əcdadlarımızın şəninə yaraşan tərzdə əsrin nüfuzlu geosiyasi güc mərkəzlərindən biri olmaq yolundadır. Biz bu ailənin möhkəmliyi və sarsılmazlığı naminə var qüvvəmizi bundan sonra da əsirgəməyəcəyik.

İnanıram ki, "Türk Dünyası Həftəsi" müxtəlif formatda silsilə tədbirləri ilə parlaq tarixi-mənəvi irsimizin yaşadılmasına, öyrənilməsinə və təbliğinə töhfələr verəcək, mədəni həyatımızın əlamətdar hadisələri sırasında özünəməxsus layiqli yer tutacaq və yaddaşlarda silinməz iz qoyacaqdır.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 iyun 2026-cı il*

# Birinci vitse-prezident Mehriban Əliyevanın sədrliyi ilə Rəqəmsal İnkişaf Şurasının ilk iclası keçirilib



**İyunun 29-da Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın sədrliyi ilə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurasının ilk iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclasda Birinci vitse-prezident Mehriban Əliyeva çıxış etdi.**

## Birinci vitse-prezident Mehriban Əliyevanın çıxışı

- Hörmətli həmkarlar!

Bu gün Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurasının ilk iclasını keçiririk. Cari ilin fevral ayında Prezident İlham Əliyevin sədrliyi ilə ölkəmizin yeni rəqəmsal inkişaf strategiyasına həsr olunmuş müşavirə keçirilmişdir və verilən tapşırıqlara əsasən, rəqəmsal inkişaf üzrə Fəaliyyət Planı təsdiqlənmişdir. Qarşıdakı üç il üçün rəqəmsallaşma, süni intellekt, kibertəhlükəsizlik və innovasiya ekosisteminin inkişafını təmin edən konkret Yol xəritəsi müəyyən olunmuşdur. Şuranın əsas vəzifəsi müxtəlif dövlət qurumlarının fəaliyyətini əlaqələndirməkdən, vahid yanaşma formalaşdırmaqdan və qəbul edilən qərarların vaxtında və səmərəli həyata keçirilməsinin icra olunmasını təmin etməkdən ibarətdir. Bizim məqsədimiz yalnız yeni texnologiyaları tətbiq etmək deyil, eyni zamanda ölkə iqtisadiyyatına güclü təkan verilməsi, yeni müasir innovasiya ekosisteminin formalaşdırılması, yerli və xarici investisiyaların ölkəyə cəlb olunması, yerli startaplara dəstək göstərilməsi və daha səmərəli dövlət idarəetmə sisteminin yaradılmasıdır.

Süni intellekt artıq gələcəyin deyil, bu günün əsas inkişaf amilidir. Eyni zamanda süni intellektin dövlətlərin təhlükəsizliyinin təmin edilməsində rolu artmaqdadır və artıq mərkəzi yer tutur. Sirr deyil ki, dünyanın aparıcı dövlətlərində süni intellektin inkişafı gözlənilən proqnozlardan daha sürətli gedir və bu, öz növbəsində həm yeni imkanlar, eyni zamanda yeni təhlükələr yaradır. Biz yeni çağırışlara, xüsusilə kibertəhlükəsizlik və informasiya təhlükəsizliyi sahəsində olan və yaranan risklərə hazır olmalıyıq.

Fəaliyyətimiz bütün dövlət qurumlarının birgə fəal və səmərəli işini tələb edir. Məqsədimiz Azərbaycanı rəqəmsal inkişaf və süni intellekt sahələrində regionun aparıcı dövlətlərindən birinə çevirməkdir. Biz xarici, beynəlxalq təcrübəni öyrənməli, uğurlu modellərdən istifadə etməliyik. Lakin bütün qərarlar Azərbaycanın milli maraqlarına və ehtiyaclarına cavab verən amillərə əsasən qəbul olunmalıdır.

Bugünkü iclasda müşavirədən keçən son aylar ərzində aparılan işlər, əldə edilən nəticələr haqqında Rəşad Nəbiyev məruzə edəcək.

3

## "İntensiv bağçılıq xüsusilə meyvə yetişdirilən bölgələrdə əsas prioritet olmalıdır"

İntensiv bağçılıqdan danışarkən işğaldan azad olunmuş ərazilərimizdə bu istiqamətdə aparılan işlərə də xüsusi diqqət yetirmək gərəkdir. Təsadüfi deyil ki, Prezident İlham Əliyev cari il mayın 25-də kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə bu məsələyə də toxunmuşdur: "İntensiv bağçılıq. Biz bunun da müsbət nəticəsini görürük, o cümlədən azad edilmiş torpaqlarda. Ağalı kəndinin yaxınlığında salınmış meyvə bağı. Mən bu yaxınlarda Zəngilanda olarkən məlumat verildi ki, artıq oradan ixrac da olunur. Yəni intensiv bağçılıq, xüsusilə meyvə yetişdirilən



bölgələrdə əsas prioritet olmalıdır və burada qarşıya məqsəd qoyulur ki, 20 min yeni hektarda intensiv bağçılıq səviyyəsində bağlar qurulsun".

10

## "AZƏRBAYCAN"ın Qarabağ səfəri

Silahlı Qüvvələr Günü Müzəffər Ali Baş Komandanın və qalib ordunun izi ilə








6

## Süni intellekt və rəqəmsal texnologiyalar "orta güc" konsepsiyasının mühüm faktoru kimi

Prezident İlham Əliyev Azərbaycanda yeni informasiya və elektron texnologiyaların tətbiqinin çox mühüm bir aspektinə diqqət yönəltmişdir. Ölkə rəhbəri türk dövlətlərinin Zirvə görüşündə süni intellekt və rəqəmsallaşma ilə bağlı qeyd etmişdir: "Bununla yanaşı, süni intellektdən məsuliyyətli istifadənin təmin edilməsi, onun qanunazidd



məqsədlər üçün istifadəsinin qarşısının alınması istiqamətində tədbirlər həyata keçirilir".

13

azerbaijan-news.az

## "Azərbaycan Respublikası Hökuməti ilə Ekvador Respublikası Hökuməti arasında diplomatik, rəsmi və xidməti pasport sahiblərinin viza tələblərindən azad edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2026-cı il mayın 4-də Kito şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Ekvador Respublikası Hökuməti arasında diplomatik, rəsmi və xidməti pasport sahiblərinin viza tələblərindən azad edilməsi haqqında Saziş" təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 iyun 2026-cı il*

## "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 1 (Cild I); 2024, № 5 (I kitab), maddə 489, № 7, maddə 748, № 8, maddə 934; 2025, № 2, maddə 96, № 6, maddə 539, № 7, maddə 606, № 12 (I kitab), maddə 1123; 2026, № 1, maddə 15, № 3, maddə 210) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.2-ci maddəyə dördüncü halda "müavinlərinə" sözündən sonra ", Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinə və onun müavinlərinə" sözləri əlavə edilsin;

1.2. 8.1.2-ci maddəyə "orqanı" sözündən sonra ", Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi" sözləri əlavə edilsin;

1.3. 11.1-ci maddə üzrə:

1.3.1. 11.1.2.5-ci, 11.1.2.12-ci və 11.1.4.2-ci maddələr ləğv edilsin;

1.3.2. aşağıdakı məzmunda 11.1.4.16-1-ci maddə əlavə edilsin:

"11.1.4.16-1. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin köməkçisi;";

1.4. 33-4-cü maddənin "Qeyd" hissəsinə ikinci halda "müavinləri" sözündən sonra ", Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi və onun müavinləri" sözləri əlavə edilsin.

**Maddə 2.** Bu Qanun 2026-cı il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 iyun 2026-cı il*

## "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 19 iyun tarixli 425-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 19 iyun tarixli 425-VIIQD nömrəli Qanununun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 8, maddə 440 (Cild I); 2024, № 5 (I kitab), maddə 526; 2025, № 5, maddə 444, № 9, maddə 817; 2026, № 3, maddə 228, № 4, maddə 315) ilə təsdiq edilmiş "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.9.9-5-ci və 1.9.11-1-ci yarımbəndlər ləğv edilsin;

1.2. 2-ci hissə üzrə:

1.2.1. 2.1.2.7-ci və 2.1.2.16-cı abzaslar ləğv edilsin;

1.2.2. aşağıdakı məzmunda 2.1.3.10-1-ci abzas əlavə edilsin:

"2.1.3.10-1. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyində şöbə müdiri;";

1.2.3. 2.1.4.2-ci abzas ləğv edilsin;

1.2.4. aşağıdakı məzmunda 2.1.4.19-1-ci abzas əlavə edilsin:

"2.1.4.19-1. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyində şöbə müdirinin müavini;";

1.2.5. 2.1.4.21-ci abzasa "köməkçiləri" sözündən sonra ", Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin köməkçisi;" sözləri əlavə edilsin;

1.2.6. aşağıdakı məzmunda 2.1.5.1-1-ci abzas əlavə edilsin:

"2.1.5.1-1. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyində sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;".

2. "Azərbaycan Respublikasının bəzi dövlət orqanlarının rəhbər işçilərinə yeni vəzifə maaşlarının müəyyən edilməsi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 mart tarixli 625 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2026, № 3, maddə 229) aşağıdakı məzmunda 1.3-1-ci və 1.6-1-ci bəndlər əlavə edilsin:

"1.3-1. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi 14850 manat";

"1.6-1. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini 12650 manat".

3. Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 mart tarixli 626 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2026, № 3, maddə 230) ilə təsdiq edilmiş "Dövlət qulluğunun inzibati və yardımçı vəzifələri üzrə əməyin ödəniş səviyyələri"ndə aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.4.4-cü yarımbənddən "Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi," sözləri çıxarılsın;

3.2. 1.5.4-cü yarımbənddən "Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini," sözləri çıxarılsın;

3.3. 1.7.2-ci yarımbənddən "Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyində," sözləri çıxarılsın;

3.4. 1.8-ci bənd üzrə:

3.4.1. 1.8.2-ci yarımbənddən "Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyində," sözləri çıxarılsın;

3.4.2. 1.8.8-ci yarımbəndə "aparatlarında" sözündən sonra ", Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyində" sözləri əlavə edilsin;

3.5. 1.9.2-ci yarımbənddən "Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyində," sözləri çıxarılsın;

3.6. 1.10-cu bənd üzrə:

3.6.1. 1.10.2-ci yarımbənddən "Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyində," sözləri çıxarılsın;

3.6.2. aşağıdakı məzmunda 1.10.17-ci yarımbənd əlavə edilsin:

"1.10.17. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin köməkçisi;";

3.7. 1.11-ci bənd üzrə:

3.7.1. 1.11.2-ci yarımbənddən "Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyində," sözləri çıxarılsın;

3.7.2. 1.11.8-ci yarımbəndə "Aparatında" sözündən sonra "və Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyində" sözləri əlavə edilsin;

3.8. 1.15.2-ci yarımbəndə "Aparatında" sözündən sonra "və Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyində" sözləri əlavə edilsin;

3.9. 1.16.2-ci, 1.17.2-ci, 1.18.2-ci,1.19.2-ci, 2.6.3-cü, 2.7.3-cü, 2.8.3-cü və 2.9.3-cü yarımbəndlərə "Aparatında" sözündən sonra "və Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyində" sözləri əlavə edilsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 19 iyun tarixli 425-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

5. Bu Fərman 2026-cı il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 iyun 2026-cı il*

## Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

1. "Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin strukturu" təsdiq edilsin.

2. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin işçilərinin say həddi 55 ştat vahidi müəyyən edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 dekabr tarixli 1917 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 12, maddə 1427 (Cild I) ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1-ci hissə üzrə:

4.1.1. 1.1-ci bənddə "ərazisində (bundan sonra - müvafiq ərazi)" sözləri "Konstitusiyası və" sözləri ilə, "Azərbaycan Respublikası Prezidenti Administrasiyasının struktur bölməsidir" sözləri "və Naxçıvan Muxtar Respublikasının ərazisində (bundan sonra - müvafiq ərazi) Azərbaycan Respublikası Prezidentinin fəaliyyətini təmin edən 1-ci kateqoriya dövlət orqanıdır" sözləri ilə əvəz edilsin;

4.1.2. 1.2-ci bəndə "qanunlarını," sözündən sonra "bu Əsasnaməni," sözləri əlavə olunsun və həmin bənddə "fərman və sərəncamlarını, bu Əsasnaməni" sözləri "digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını" sözləri ilə əvəz edilsin;

4.1.3. 1.3-cü bənddə "dövlət orqanları (qurumları) ilə" sözləri "digər dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, habelə digər hüquqi və fiziki şəxslərlə" sözləri ilə əvəz edilsin;

4.1.4. aşağıdakı məzmunda 1.3-1-ci və1.3-2-ci bəndlər əlavə edilsin:

"1.3-1. Səlahiyyətli nümayəndəliyin müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, xəzinə və bank hesabları, üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri və öz adı həkk olunmuş möhürü, kargüzarlıq xidmətinin gerbsiz möhürü, müvafiq ştampları və blankları vardır.

1.3-2. Səlahiyyətli nümayəndəliyin saxlanma xərcləri və fəaliyyəti, habelə maddi-texniki təminatı Azərbaycan Respublikasının dövlət büdcəsi və qanunda nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.";

4.2. 2-ci hissə üzrə:

4.2.1. 2.1.1-ci yarımbənddə "fəaliyyətini əlaqələndirmək və onların" sözləri ", habelə bu Əsasnamənin 3.1.1-3-cü və 3.1.1-4-cü yarımbəndlərində nəzərdə tutulan dövlət orqanlarının (qurumlarının) fəaliyyətini əlaqələndirmək və yerli icra hakimiyyəti orqanlarının" sözləri ilə əvəz edilsin;

4.2.2. aşağıdakı məzmunda 2.1.1-1-ci yarımbənd əlavə edilsin:

"2.1.1-1. müvafiq ərazidə Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikasının Konstitusiyasından, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının qanunlarından və digər normativ hüquqi aktlardan irəli gələn səlahiyyətlərinin həyata keçirilməsini təmin etmək;";

4.3. 3-cü hissə üzrə:

4.3.1. 3.1-ci bənd üzrə:

4.3.1.1. aşağıdakı məzmunda 3.1.1-1-3.1.1-6-cı yarımbəndlər əlavə edilsin:

"3.1.1-1. aşağıdakı məsələlər barədə Azərbaycan Respublikasının Prezidentinə təkliflər vermək:

3.1.1-1.1. Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında nəzərdə tutulmuş hallarda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin (bundan sonra - Ali Məclis) Azərbaycan Respublikasının Prezidenti tərəfindən buraxılması;

3.1.1-1.2. Ali Məclisin növbədənkənar sessiyasının çağırılması, habelə Ali Məclis sessiyasının qapalı iclasının keçirilməsi;

3.1.1-1.3. Azərbaycan Respublikası Prezidentinin aktları ilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti üçün əlavə səlahiyyətlərin müəyyən edilməsi;

3.1.1-1.4. bu Əsasnamənin 3.1.1-3-cü və 3.1.1-4-cü yarımbəndlərində nəzərdə tutulan dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin təkmilləşdirilməsi;

3.1.1-2. aşağıdakı məsələlərə dair Ali Məclis sədrinin təkliflərinin Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi ilə bağlı tədbirlər görmək:

3.1.1-2.1. Ali Məclisə seçkilərin təyin edilməsi;

3.1.1-2.2. Naxçıvan Muxtar Respublikasının dövlət orqanlarında qulluq (xidmət) keçən şəxslərə ixtisas dərəcələrinin və ali xüsusi rütbələrin verilməsi;

3.1.1-2.3. Azərbaycan Respublikasının dövlət təltifləri ilə təltifetmə;

3.1.1-3. Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının, tabelikdə olmayan publik hüquqi şəxslərinin və dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərinin rəhbərlərinin və onların müavinlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi barədə Naxçıvan Muxtar Respublikasının Baş nazirinə razılıq verilməsi;

3.1.1-4. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırılan hallar istisna olmaqla, Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının və tabelikdə olmayan publik hüquqi şəxslərinin Naxçıvan Muxtar Respublikasındakı struktur bölmələri rəhbərlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsinə razılıq verilməsi;

3.1.1-5. aşağıdakı məsələlərin həyata keçirilməsinin təmin edilməsi üçün tədbirlər görmək:

3.1.1-5.1. Naxçıvan Muxtar Respublikası Baş nazirinin vəzifəyə təyin olunması barədə Azərbaycan Respublikası Prezidentinin təqdimatının Ali Məclisin sədrinə təqdim edilməsi;

3.1.1-5.2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərəfindən mərkəzi icra hakimiyyəti orqanlarının yaradılmasına və ləğv edilməsinə dair, habelə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin istefasına dair Azərbaycan Respublikası Prezidentinin razılığının alınması;

3.1.1-5.3. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin iş qaydasının Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırılması;

3.1.1-5.4. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin tərkibinə dair Naxçıvan Muxtar Respublikasının Baş nazirinə təkliflər verilməsi;

3.1.1-5.5. müvafiq ərazidə fəaliyyət göstərən yerli icra hakimiyyətləri başçılarının vəzifəyə təyin edilməsinə dair Ali Məclis sədrinin təqdimatının Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi;

3.1.1-5.6. Ali Məclisin növbədənkənar sessiyasının çağırılmasına dair Azərbaycan Respublikası Prezidentinin tələbinin Ali Məclisə təqdim edilməsi;

3.1.1-5.7. Ali Məclis sessiyasının qapalı iclasının keçirilməsinə dair Azərbaycan Respublikası Prezidentinin təklifinin Ali Məclisə təqdim edilməsi;

3.1.1-6. müvafiq ərazidə Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi digər səlahiyyətlərin həyata keçirilməsinin təmin edilməsi üçün tədbirlər görmək;";

4.3.1.2. 3.1.3-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.1.3. müvafiq ərazinin sosial-iqtisadi inkişafı ilə bağlı dövlət proqramları, strategiyalar, milli fəaliyyət planları və konsepsiyaların layihələrinin, həmçinin dövlət investisiya proqramına daxil edilən investisiya layihələrinin hazırlanmasında iştirak etmək və onların icrasına nəzarəti həyata keçirmək;";

4.3.1.3. 3.1.8-ci və 3.1.10-cu yarımbəndlərə "orqanlarının" sözündən sonra ", habelə bu Əsasnamənin 3.1.1-3-cü və 3.1.1-4-cü yarımbəndlərində nəzərdə tutulan dövlət orqanlarının (qurumlarının)" sözləri əlavə edilsin;

4.3.1.4. aşağıdakı məzmunda 3.1.11-1-3.1.11-5-ci yarımbəndlər əlavə edilsin:

"3.1.11-1. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, rəsmi internet informasiya ehtiyatının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin internet informasiya ehtiyatında yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.11-2. səlahiyyətli nümayəndəliyə ayrılan büdcə vəsaitindən və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.11-3. səlahiyyətli nümayəndəliyin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər görmək;

3.1.11-4. müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.11-5. səlahiyyətli nümayəndəliyin işçilərinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı tədbirlər görmək;";

4.3.1.5. 3.1.12-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.1.12. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.";

4.3.2. 3.2-ci bənd üzrə:

4.3.2.1. aşağıdakı məzmunda 3.2.1-1-ci yarımbənd əlavə edilsin:

"3.2.1-1. yerli icra hakimiyyəti orqanlarının digər dövlət orqanları (qurumları) ilə qarşılıqlı fəaliyyətini təmin etmək;";

4.3.2.2. 3.2.3-cü yarımbənddə "müvəqqəti olmadıqda" sözləri "məzuniyyətdə və ya ezamiyyətdə olduqda, xəstəliyi və ya digər səbəblərlə əlaqədar öz səlahiyyətlərini icra edə bilmədikdə" sözləri ilə əvəz edilsin və həmin yarımbənddən "müəyyən etdiyi" sözləri çıxarılsın;

4.3.2.3. 3.2.6-cı yarımbənddə "aktların layihələrinə dair təkliflər vermək" sözləri "akt layihələrinin hazırlanmasında iştirak etmək" sözləri ilə əvəz edilsin;

4.3.2.4. 3.2.7-ci yarımbənddə "təhlillər" sözü "fəaliyyət istiqamətlərinə uyğun təhlillər və ümumiləşdirmələr" sözləri ilə əvəz edilsin;

4.3.2.5. aşağıdakı məzmunda 3.2.7-1-ci və 3.2.7-2-ci yarımbəndlər əlavə edilsin:

"3.2.7-1. müvafiq ərazidə dövlət-özəl tərəfdaşlığının inkişafı üçün tədbirlər görmək;

3.2.7-2. müvafiq ərazinin davamlı sosial-iqtisadi inkişafını təmin etmək məqsədilə dövlət orqanlarına (qurumlarına) təklif və tövsiyələr vermək;";

4.3.2.6. 3.2.8-ci yarımbənddə "səlahiyyətlərinə aid olan məsələlərlə bağlı" sözləri "fəaliyyət istiqamətlərinə aid məsələlərə dair" sözləri ilə əvəz edilsin;

4.3.2.7. 3.2.9-cu yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.2.9. forum, konfrans, müşavirə, sərgi və digər tədbirlərdə, habelə beynəlxalq tədbirlərdə iştirak etmək və belə tədbirlərin keçirilməsini təşkil etmək;";

4.3.2.8. aşağıdakı məzmunda 3.2.9-1-ci və 3.2.9-2-ci yarımbəndlər əlavə edilsin:

"3.2.9-1. müstəqil ekspertləri və mütəxəssisləri, məsləhətçi təşkilatları öz fəaliyyətinə cəlb etmək, işçi qruplar yaratmaq;

3.2.9-2. istifadəsində olan dövlət əmlakı üzərində normativ hüquqi aktlarla müəyyən olunmuş hüquqlardan istifadə etmək;";

4.3.2.9. 3.2.10-cu yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.2.10. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.";

4.4. 4-cü hissə üzrə:

4.4.1. 4.4-cü və 4.5-ci bəndlər ləğv edilsin;

4.4.2. aşağıdakı məzmunda 4.6-cı bənd əlavə edilsin:

"4.6. Səlahiyyətli nümayəndə:

4.6.1. səlahiyyətli nümayəndəliyin fəaliyyətini təşkil edir və rəhbərlik edir;

4.6.2. səlahiyyətli nümayəndəliyin fəaliyyəti barədə Azərbaycan Respublikasının Prezidentinə hesabat verir;

4.6.3. müavinləri arasında vəzifə bölgüsü aparır;

4.6.4. səlahiyyətli nümayəndəliyin strukturu və işçilərinin say həddi barədə Azərbaycan Respublikasının Prezidentinə təkliflər verir;

4.6.5. müəyyən edilmiş struktur,əməyin ödənişi fondu və işçilərinin say həddi daxilində səlahiyyətli nümayəndəliyin ştat cədvəlini təsdiq edir;

4.6.6. səlahiyyətli nümayəndəliyin struktur bölmələrinin əsasnamələrini və işçilərinin vəzifə təlimatlarını təsdiq edir;

4.6.7. dövlət büdcəsindən ayrılan vəsaitin sərəncamçısı olmaqla, maliyyə vəsaitini bölüşdürür, ayrılmış vəsaitin həddi nəzərə alınmaqla işçilərin vəzifə maaşlarına qanunla müəyyən olunan əlavələrin və digər ödənişlərin verilməsini təmin edir;

4.6.8. səlahiyyətli nümayəndəliyi təmsil edir;

4.6.9. müavinlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim edir;

4.6.10. bu Əsasnamənin 4.3-cü bəndi nəzərə alınmaqla, səlahiyyətli nümayəndəliyin işçilərini vəzifəyə təyin və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

4.6.11. səlahiyyətli nümayəndəliyin işçilərinə dövlət qulluğunun baş müşaviri və ondan aşağı olan ixtisas dərəcələri verir, habelə xüsusi fərqlənmiş əməkdaşlara Azərbaycan Respublikasının fəxri adlarının verilməsi və ya onların dövlət mükafatları ilə təltif olunması üçün Azərbaycan Respublikasının Prezidentinə təqdimat verir;

4.6.12. səlahiyyətli nümayəndəlikdə dövlət sirrinin və məxfilik rejiminin qorunması ilə bağlı qanunvericiliyin tələblərinə, etik davranış qaydalarına, əmək və icra intizamına riayət olunmasına nəzarət edir;

4.6.13. əmr və sərəncamlar formasında qeyri-normativ hüquqi aktlar qəbul edir və onların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

4.6.14. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər səlahiyyətləri həyata keçirir.".

5. Bu Fərman 2026-cı il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 iyun 2026-cı il*

# Birinci vitse-prezident Mehriban Əliyevanın sədrliyi ilə Rəqəmsal İnkişaf Şurasının ilk iclası keçirilib

*Əvvəli 1-ci səh.*



Rəqəmsal inkişaf və nəqliyyat naziri **Rəşad Nəbiyev** "Rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı"nın icrası ilə bağlı görülən işlər və qarşıda duran vəzifələr barədə Birinci vitse-prezidentə məlumat verdi. Qeyd etdi ki, fəaliyyət planı rəqəmsallaşma, süni intellekt, innovasiya ekosistemi və kibertəhlükəsizlik istiqamətləri üzrə 58 təşəbbüsü əhatə edir. Rəqəmsallaşma istiqamətində görülən işlərə toxunan nazir 40 dövlət qurumu ilə Yol xəritələrinin hazırlandığını, onlardan 13-nün artıq təsdiqləndiyini və ya təsdiq mərhələsində olduğunu dedi.

Rəşad Nəbiyev Milli Məlumat Hövzəsinin yaradılması barədə məlumat verdi, dövlət informasiya sistemlərinin hökumət buluduna miqrasiyası və yeni data mərkəzinin tikintisi üzrə işlərin davam etdirildiyini vurğuladı. "Mygov" platformasının xidmət dairəsinin genişləndirildiyini, son üç ayda istifadəçilərin sayının 2,7 milyondan 3,5 milyona çatdığını deyən nazir artıq bir neçə tətbiqin platformaya inteqrasiya olunduğunu, daha yeddi dövlət tətbiqinin xidmətlərinin isə ilin sonunadək vətəndaşların istifadəsinə veriləcəyini bildirdi.

Rəqəmsal inkişaf və nəqliyyat naziri fəaliyyət planının əsas prioritetlərindən birinin süni intellekt olduğunu vurğulayaraq, "mygov" və digər dövlət qurumlarında süni intellekt həllərinin tətbiqinin genişləndirildiyini, virtual vətəndaş köməkçisinin istifadəyə verildiyini dedi. Rəşad Nəbiyev innovasiya ekosisteminin inkişafı məsələlərinə toxundu, texnoloji suverenliyi gücləndirən sahələrdə fəaliyyət göstərən şirkətləri bir araya gətirmək məqsədilə Azərbaycan Dayanıqlılıq Klasterinin yaradılmasına başlanıldığını vurğuladı və kibertəhlükəsizlik sahəsində görülən işlərdən danışdı. Qeyd etdi ki, Milli Təhlükəsizlik Əməliyyatları Mərkəzi, Milli Kiber İnsidentlərə Qarşı Mübarizə Mərkəzi və Rəqəmsal Təhqiqat Mərkəzinin yaradılması, həmçinin dövlət və özəl sektor arasında operativ məlumat mübadiləsini təmin edəcək vahid milli kibertəhlükəsizlik platformasının qurulması istiqamətində işlər davam etdirilir.

❖ ❖ ❖

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov rəqəmsal sahədə qanunvericilik üzrə islahatlar barədə Birinci vitse-prezidentə məlumat verdi. Şahmar Mövsümov qeyd etdi ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlət siyasətinin əsas prioritet istiqamətlərindən biri kimi rəqəmsal transformasiya ardıcıl şəkildə həyata keçirilir. Dövlətimizin başçısının bu ilin fevralında imzaladığı fərmanla Rəqəmsal İnkişaf Şurasının yaradıldığını və "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı"nın təsdiqləndiyini xatırladan Şahmar Mövsümov Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə şurada müəyyən edilmiş strateji prioritetlərə və verilmiş tapşırıqlara uyğun olaraq müasir qanunvericilik bazasının formalaşdırılması istiqamətində kompleks islahatların hazırlandığını dedi. Vurğuladı ki, bu, postsovet məkanında rəqəmsal ekosistemin inkişafı və tənzimlənməsi istiqamətində həyata keçirilən ən əhatəli və fundamental islahat təşəbbüsüdür.

Şahmar Mövsümov islahatın əhatə etdiyi sahələrə toxunaraq bildirdi ki, bunlar hüquqi müəyyənliyin təmini, rəqabətqabiliyyətli vergi mühitinin formalaşdırılması, innovasiyaların maliyyələşdirilməsi, elmi-tədqiqat və innovasiya təşviqləri, istedadların cəlb edilməsi, bazara çıxış imkanlarının genişləndirilməsi və kibertəhlükəsizlik sahəsində tənzimləmənin təkmilləşdirilməsidir.

Prezidentin köməkçisi bu islahatların mühüm cəhətlərindən biri kimi onların dünya təcrübəsinə əsaslandığını dedi, dəyişikliklər hazırlanarkən müxtəlif ölkələrin uğurlu modellərinin öyrənildiyini qeyd etdi.

❖ ❖ ❖

Elm və təhsil naziri **Emin Əmrullayev** ölkədə təhsilin rəqəmsallaşdırılması istiqamətində görülən işlər və gələcək planlar barədə Birinci vitse-prezidentə məlumat verdi. Nazir təhsil müəssisələrinin vahid internet şəbəkəsi ilə təminatı, "Rəqəmsal məktəb" layihəsi, təhsil pillələri üzrə məlumatların rəqəmsallaşması, təhsil sənədlərinin elektronlaşdırılması məsələlərinə toxundu, növbəti mərhələ olaraq tədrisin rəqəmsallaşdırılmasının nəzərdə tutulduğunu dedi.

Emin Əmrullayev həmçinin şagirdlərin rəqəmsal bacarıqlarının inkişafı üçün məktəblərdə həyata keçirilən "Rəqəmsal bacarıqlar", "STEAM Azərbaycan" layihələrini qeyd etdi, bu istiqamətdə insan kapitalının inkişafının təmin edilməsinin də əsas prioritetlərdən biri olduğunu vurğuladı.

İclas müzakirələrlə davam etdirildi.

## "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 31 oktyabr tarixli 280-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 28 noyabr tarixli 539 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 199**

**Bakı şəhəri, 25 iyun 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 31 oktyabr tarixli 280-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 28 noyabr tarixli 539 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Bakı şəhəri sərnişin nəqliyyatının işinin daha da təkmilləşdirilməsi və onun maddi-texniki bazasının möhkəmləndirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 8 iyul tarixli 388 nömrəli Qərarının (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 3 noyabr tarixli 601 nömrəli Qərarı; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) 1-ci hissəsinin z) bəndi ləğv edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 7 fevral tarixli 16 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 2, maddə 115 (Cild I); 2025, № 2, maddə 180) ilə təsdiq edilmiş "Avtomobil yollarının layihələndirilməsi, tikintisi, yenidən qurulması və təmiri Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. "I. Avtomobil yollarının layihələndirilməsi" bölməsi üzrə:

2.1.1. 1.14-cü bənddə "avtobus dayanacaqları" sözləri "dayanacaq məntəqələri" sözləri ilə əvəz edilsin;

2.1.2. 2.4-cü və 2.5-ci bəndlərdə "avtobus dayanacaqlarında" sözləri "dayanacaq məntəqələrində" sözləri ilə əvəz edilsin;

2.2. "III. Avtomobil yollarının təmiri" bölməsinin 3.5-ci bəndinin ikinci cümləsində "avtobus dayanacaqları" sözləri "dayanacaq məntəqələri" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 17 sentyabr tarixli 141 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 745 (Cild I); 2024, № 1, maddə 111, № 5 (II kitab), maddə 574; 2025, № 3, maddə 282) ilə təsdiq edilmiş "Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.2.13-cü yarımbənddə "müəyyən edilmiş dayanacaqlar və məntəqələr arasında" sözləri "başlanğıc və təyinat məntəqələri arasında müəyyən edilmiş dayanacaq məntəqələri ilə" sözləri ilə əvəz edilsin;

3.2. 1.4.1-ci, 8.2-1.2-ci və 10.2.9-cu yarımbəndlərdə "dayanacaqlarda" sözü "dayanacaq məntəqələrində" sözləri ilə əvəz edilsin;

3.3. 4.4-cü bəndin birinci cümləsində"dayanacaqların" sözü "dayanacaq məntəqələri arasında olan məsafənin" sözləri ilə əvəz edilsin;

3.4. 4.28-ci bənddə "dayanacaqda" sözü "dayanacaq məntəqəsində" sözləri ilə, "dayanacaqları" sözü "dayanacaq məntəqələrini" sözləri ilə əvəz edilsin;

3.5. 7.7-ci bənddə "dayanacaq yerlərinin" sözləri "dayanacaq məntəqələrinin" sözləri ilə əvəz edilsin;

3.6. 12.1.3-cü yarımbənddə "dayanacaqda" sözü "dayanacaq məntəqəsində" sözləri ilə əvəz edilsin;

3.7. 12.2.20-ci yarımbənddə "dayanacaqları" sözü "dayanacaq məntəqələrini" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 17 sentyabr tarixli 142 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 746 (Cild I); 2024, № 1, maddələr 81, 111, 112; 2025, № 3, maddə 282) ilə təsdiq edilmiş "Avtomobil nəqliyyatı ilə yüklərin daşınması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 38-ci hissənin adına "qaiməsinin" sözündən sonra "və ya elektron əmtəə-nəqliyyat qaiməsinin" sözləri əlavə edilsin;

4.2. 38.1-ci bəndin birinci cümləsinə "üç nüsxədə," sözlərindən sonra "beynəlxalq nümunəli elektron əmtəə-nəqliyyat qaiməsi (bundan sonra - e-CMR) Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin "AYNA" informasiya sistemində yaradılmış "e-CMR" altsistemində" sözləri əlavə edilsin, həmin bəndə aşağıdakı məzmunda dördüncü və beşinci cümlələr əlavə edilsin:

"Daşıyıcı daşıma başlanan anadək informasiya sistemində e-CMR-i təsdiq etməlidir. Daşıyıcı tərəfindən e-CMR-in təsdiq olunmaması həmin e-CMR-in rəsmiləşdirilməməsi hesab olunur.";

4.3. 38.2-ci bəndə "CMR-ə" sözlərindən sonra "və ya e-CMR-ə" sözləri əlavə edilsin;

4.4. 38.3-cü və 38.14-cü bəndlərə "CMR-də" sözlərindən sonra "və ya e-CMR-də" sözləri əlavə edilsin;

4.5. 38.6-cı bəndə "CMR" akronimindən sonra "və ya e-CMR" sözləri əlavə edilsin;

4.6. 38.7-ci bəndə "CMR-ə" sözlərindən sonra "və ya e-CMR-ə" sözləri əlavə edilsin;

4.7. 38.9-cu bəndin birinci cümləsinə "CMR" akronimindən sonra "və ya e-CMR" sözləri, ikinci cümləsinə "CMR-də" sözlərindən sonra "və ya e-CMR-də" sözləri əlavə edilsin;

4.8. 38.11-ci bəndin birinci və ikinci cümlələrinə "CMR-də" sözlərindən sonra "və ya e-CMR-də" sözləri əlavə edilsin.

5. "Əhalinin sıx toplaşdığı yerlərdə və obyektlərdə videonəzarət sistemlərinin yaradılması barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 6 iyul tarixli 131 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 7, maddə 697 (Cild I) 1.2.1-ci yarımbəndinin altıncı abzası aşağıdakı redaksiyada verilsin:

"avtomobil dayanacaqlarında, sərnişin daşıyan nəqliyyat vasitələrinin parklarında və müntəzəm sərnişin daşımalarını yerinə yetirən avtomobil nəqliyyatı üçün dayanacaq məntəqələrində;".

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 18 noyabr tarixli 468 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 11, maddə 1956 (Cild I); 2024, № 10, maddə 1180) ilə təsdiq edilmiş "Reklam qurğularının yol kənarında yerləşdirilməsi Standartları"nın 3.1.8-ci yarımbəndində "nəqliyyat vasitələrinin dayanacaqlarından" sözləri "daşımalarını yerinə yetirən avtomobil nəqliyyatının dayanacaq məntəqələrinə" sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 4 mart tarixli 73 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 3, maddə 507 (Cild I); 2024, № 11, maddə 1246; 2025, № 3, maddə 282) ilə təsdiq edilmiş "Bakı şəhərində sərnişindaşımada istifadə olunan avtobusların və taksi minik avtomobillərinin sürücülərinə, sərnişindaşıma fəaliyyətini həyata keçirən daşıyıcılara, nəqliyyat mübadilə mərkəzlərinə, avtobuslar üçün dayanacaq məntəqələrinə və taksi minik avtomobilləri üçün duracaq yerlərinə dair Tələblər"in 5.4.1-ci yarımbəndinin birinci cümləsində"Bakı Nəqliyyat Agentliyi" sözləri "Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi" sözləri ilə əvəz edilsin.

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 22 yanvar tarixli 25 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 1, maddə 76 (Cild I); 2025, № 2, maddə 180) ilə təsdiq edilmiş "Şəhərdaxili hərəkət (mobillik) planının hazırlanması Qaydası"nın 4.1.7-ci yarımbəndində "ümumi istifadədə olan nəqliyyat vasitələrinin dayanacaqlarının" sözləri "müntəzəm sərnişin daşımalarını yerinə yetirən avtomobil nəqliyyatı üçün dayanacaq məntəqələrinin" sözləri ilə əvəz edilsin.

9. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 9 iyul tarixli 335 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 7, maddə 896; 2025, № 2, maddə 206; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 15 may tarixli 150 nömrəli Qərarı) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımaları fəaliyyətinin operatorunun məsul şəxslərinə, habelə beynəlxalq sərnişin və yük daşımalarını həyata keçirən sürücülərə hazırlığın və yenidən hazırlığın keçirilməsi və qiymətləndirilmənin aparılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

9.1. həmin Qaydaya 1 nömrəli əlavə - "Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımaları fəaliyyətinin operatorunun məsul şəxslərinin peşəkarlıq səriştəsinə dair Proqram"ın 6.1-ci bəndinin "Mövzuların adı" sütununa "qaiməsinin (CMR)" sözlərindən sonra "və elektron əmtəə-nəqliyyat qaiməsinin" sözləri əlavə edilsin;

9.2. həmin Qaydaya 2 nömrəli əlavə - "Avtomobil nəqliyyatı ilə beynəlxalq yük daşımalarını həyata keçirən sürücülərin peşəkarlıq səriştəsinə dair Proqram"ın 5.1-ci bəndinin "Mövzuların adı və tədris sualları" sütununa (hər iki halda) "qaiməsinin (CMR)" sözlərindən sonra "və elektron əmtəə-nəqliyyat qaiməsinin" sözləri əlavə edilsin.

10. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 30 yanvar tarixli 17 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 1, maddə 91) ilə təsdiq edilmiş "Kiçik elektrik nəqliyyat vasitələri üçün parklanma yerlərinin müəyyən edilməsi, parklanma yerlərinə dair tələblər və onlardan istifadə Qaydaları"nın 2.2.2-ci yarımbəndində "avtobus dayanacaqları" sözləri "müntəzəm sərnişin daşımalarını yerinə yetirən avtomobil nəqliyyatı üçün dayanacaq məntəqələri" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Bakıda Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş "Türk Dünyası Həftəsi"nin açılış mərasimi olub




**İyunun 29-da Bakıda Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş "Türk Dünyası Həftəsi" başlanıb. Elm və mədəniyyətlə bağlı silsilə tədbirlərdən ibarət həftə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında" 22 oktyabr 2025-ci il tarixli Sərəncamına uyğun olaraq təşkil edilib.**

Heydər Əliyev Mərkəzində həftənin əsas tədbiri - "Birinci Türkoloji Qurultay: yüz ilin elmi və mədəni irsi" mövzusunda beynəlxalq konqresin rəsmi açılış mərasimi keçirilib. Konqresdə türk respublikaları daxil olmaqla ümumilikdə 20 ölkədən rəsmilər, müxtəlif elmi mərkəzlərdən 126 türkoloq-alim, eləcə də türk beynəlxalq təşkilatlarından nümayəndələr iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva Prezident İlham Əliyevin Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş "Türk Dünyası Həftəsi"nin iştirakçılarına müraciətini səsləndirib.

Açılış mərasimində həmçinin Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistan prezidentlərinin konqres iştirakçılarına müraciətləri oxunub.

Sonra Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Tədbirdə çıxış edən mədəniyyət naziri Adil Kərimli bildirib ki, Azərbaycan Birinci Türkoloji Qurultayın irsinə hər zaman böyük diqqət və ehtiramla yanaşır, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü və müvafiq sərəncamı ilə bu yubiley dövlət səviyyəsində qeyd olunur. Bu, Azərbaycan dövlətinin türk dünyasının ortaq elmi və mədəni irsinə verdiyi yüksək dəyərin bariz nümunəsidir.

"Bu gün biz, sadəcə, bir yubileyi qeyd etmirik. Biz yüz il əvvəl Bakıda əsası qoyulmuş böyük bir ideyanın - ortaq mədəniyyət və mənəvi birlik ideyasının bir əsrlik tarixini qeyd edirik. İnanıram ki, keçiriləcək görüşlər yeni elmi təfəkkürün, yeni ideyaların və yeni əməkdaşlıq körpülərinin yaranmasına mühüm töhfə verəcək", - deyə nazir diqqətə çatdırıb.

Adil Kərimli həmçinin bildirib ki, Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş "Türk Dünyası Həftəsi"nin tədbirləri Qarabağda - Şuşa, Xankəndi və Ağdam şəhərlərində də davam edəcək.

Nazir vurğulayıb ki, işğaldan azad edilmiş torpaqlarımızda yenidən qurulan hər bir şəhər, bərpa olunan hər bir abidə və yenidən həyat qazanmış hər bir məkan Azərbaycanın dirçəlişini və bütövlükdə türk dünyasının həmrəylik ruhunu ifadə edir.




"İnanırıq ki, bu qurultay türk dünyasının ortaq tarixində əlamətdar hadisə kimi qalacaq və gələcək nəsillər üçün dəyərli irs yaradacaq", - deyə o qeyd edib.

Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Kubanıçbek Ömüralıyev çıxışında Birinci Türkoloji Qurultayın ideyalarının bu gün də türk dünyasının inteqrasiyası və əməkdaşlığı üçün mühüm əhəmiyyət daşıdığını deyib: "Qəbələ Sammitində qəbul olunan bəyannamələrdə və "Türk dünyası - 2040" vizyonunda əksini tapan hədəflər türk dövlətlərinin birliyinin və həmrəyliyinin möhkəmləndirilməsinə xidmət edir. Onun sözlərinə görə, Birinci Türkoloji Qurultayın yüz il əvvəl ortaya qoyduğu ideyalar bu gün Türk Dövlətləri Təşkilatının fəaliyyəti çərçivəsində uğurla davam etdirilir".

Kubanıçbek Ömüralıyev vurğulayıb ki, son illər türk dövlətləri arasında siyasi dialoq, iqtisadi əlaqələr, elm, təhsil, mədəniyyət və humanitar əməkdaşlıq əhəmiyyətli dərəcədə genişlənib. Bu əməkdaşlığın təməlində ortaq tarix, dil və mədəni irs dayanır.

Baş katib əlavə edib ki, Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunan tədbirlər ortaq irsin daha dərindən öyrənilməsinə, gələcək nəsillərə çatdırılmasına və türk dünyasında inteqrasiya prosesinin daha da güclənməsinə töhfə verəcək.

Milli Məclis Sədrinin müavini, akademik Rafael Hüseynov çıxışında Birinci Türkoloji Qurultayın türk dünyasının elmi, mədəni və siyasi tarixində mühüm dönüş nöqtəsi olduğunu bildirib. O qeyd edib ki, bu qurultay yalnız elmi toplantı deyil, həm də türk xalqlarının ortaq kimliyini və birliyini nümayiş etdirən tarixi hadisə idi.

4. "İkinci Dünya müharibəsi iştirakçılarının, şəhid ailələrinin, Çernobıl AES-də qəzanın nəticələrinin köçürmə zonasında ləğv edilməsinin iştirakçılarının, eləcə də köçürülmə günü ana bətnində olan uşaqlar da daxilolmaqla, uzaqlaşdırma və köçürmə zonalarından köçürülmüş uşaqların, habelə 1986-cı il aprelin 26-dan sonra doğulmuş və Çernobıl AES-də qəzanın nəticələrinin ləğv edilməsinin iştirakçısı olmuş, yaxud Çernobıl qəzası nəticəsində zərər çəkmiş və birbaşa radioaktiv şüalanmaya məruz qalmaq ehtimalı olmuş valideynlərin birindən olan uşaqların, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların, fövqəladə hallarda insanların xilas edilməsində və tibbi yardım göstərilməsində iştirak edərkən ziyan çəkmiş vətəndaşların sanatoriya-kurort müalicəsi ilə təmin edilməsi Qaydalarının və Hərbi qulluqçuların və onların ailə üzvlərinin (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ailələrindən başqa) sanatoriyalarda və istirahət evlərində sanatoriya-kurort müalicəsi, pansionatlarda və turist bazalarında istirahət üçün putyovkalarla (yollayışlarla) təmin olunması Qaydasının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 12 avqust tarixli 128 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 8, maddə 539 (Cild I); 2024, № 9, maddə 1101; 2025, № 11, maddə 1092; № 12 (II kitab), maddə 1257) aşağıdakı dəyişikliklər edilsin:

4.1. adından və 1-ci hissədən "valideynlərini itirmiş və" sözləri çıxarılsın;

4.2. həmin Qərarla təsdiq edilmiş "İkinci Dünya müharibəsi iştirakçılarının, şəhid ailələrinin, Çernobıl AES-də qəzanın nəticələrinin köçürmə zonasında ləğv edilməsinin iştirakçılarının, eləcə də köçürülmə günü ana bətnində olan uşaqlar da daxilolmaqla, uzaqlaşdırma və köçürmə zonalarından köçürülmüş uşaqların, habelə 1986-cı il aprelin 26-dan sonra doğulmuş və Çernobıl AES-də qəzanın nəticələrinin ləğv edilməsinin iştirakçısı olmuş, yaxud Çernobıl qəzası nəticəsində zərər çəkmiş və birbaşa radioaktiv şüalanmaya məruz qalmaq ehtimalı olmuş valideynlərin birindən olan uşaqların, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların, fövqəladə hallarda insanların xilas edilməsində və tibbi yardım göstərilməsində iştirak edərkən ziyan çəkmiş vətəndaşların sanatoriya-kurort müalicəsi ilə təmin edilməsi Qaydaları"nın adından və 1-ci hissəsindən "valideynlərini itirmiş və" sözləri çıxarılsın.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 30 aprel tarixli 83 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 4, maddə 373 (Cild I); 2024, № 9, maddə 1106; 2025, № 9, maddə 861) ilə təsdiq edilmiş "Dərman vasitələrinin elmi tədqiqatlarının, klinikaya qədər tədqiqatlarının və klinik sınaqlarının aparılması Qaydaları"nın 2.14-cü bəndindən"valideynlərini itirmiş və" sözləri çıxarılsın.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 3 iyun tarixli 103 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 549 (Cild I); 2024, № 6 (II kitab), maddə 721; 2025, № 9, maddə 873) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları"nda aşağıdakı dəyişikliklər edilsin:

6.1. 15.2-ci bəndin ikinci cümləsindən "valideynlərini itirmiş və" sözləri çıxarılsın və həmin bənddə "Valideynlərini itirmiş və valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin;

6.2. 15.3-cü bənddə "Valideynlərini itirmiş və valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin;

6.3. 15.4-cü bəndin ikinci cümləsindən "valideynlərini itirmiş və" sözləri çıxarılsın.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 10 iyun tarixli 111 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 6, maddə 725 (Cild I); 2024, №2, maddə 204, № 3, maddə 314; 2025, № 9, maddələr 861, 870) ilə təsdiq edilmiş "Çətin həyat şəraitində hesab edilmənin əsasları üzrə şəxsin (ailənin) çətin həyat şəraitində olmasını təsdiq edən sənədlərin siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

7.1. 2-ci hissənin adında və 2.1-ci bənddə "Valideynlərini itirmiş və ya valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin;

7.2. 2.1.2-ci yarımbənddən "valideynlərini itirmiş və" sözləri çıxarılsın;

7.3.2.1.3-cü yarımbənddə "qətnaməsi" sözü "qərarı" sözü ilə əvəz edilsin;

7.4. 2.1.4-cü yarımbənddə "fəaliyyət qabiliyyəti məhdudlaşdırılan" sözləri "məhdud fəaliyyət qabiliyyətli şəxs" sözləri ilə, "qətnaməsi" sözü "qərarı" sözü ilə əvəz edilsin;

7.5. 10-cu hissənin adında "Valideynlərini itirmələrinə və ya valideyn himayəsindən məhrum olmalarına" sözləri "Valideyn himayəsindən məhrum olmasına" sözləri ilə əvəz edilsin;

7.6. 10.1-ci bənddə "Valideynlərini itirməsinə və ya valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin.

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 5 noyabr tarixli 320 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 11, maddə 1457 (Cild I); 2024, № 1, maddə 110, №7, maddə 931, № 9, maddə 1100; 2025, № 9, maddələr 861, 870, № 12 (II kitab), maddə 1225) ilə təsdiq edilmiş "Çətin həyat şəraitində olan şəxslərin (ailələrin) dövlət sosial xidmət müəssisələrinə yerləşdirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

8.1. 1.3-cü bənddən "valideynlərini itirmiş və" sözləri çıxarılsın;

8.2. 2.1-ci bənddə və 2.1.1-ci yarımbənddə "Valideynlərini itirmiş və ya valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin.

9. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 21 noyabr tarixli 330 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 11, maddə 1464 (Cild I) ilə təsdiq edilmiş "Rezidentura təhsilinin məzmunu və təşkili Qaydaları"nın 1.5-ci bəndinin üçüncü cümləsində "Valideynlərini itirmiş və valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin.

10. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 22 aprel tarixli 108 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 4, maddə 452 (Cild I); 2024, № 7, maddə 916; 2025, № 9, maddələr 859, 870, № 12 (II kitab), maddə 1225) ilə təsdiq edilmiş "Çətin həyat şəraitində olan şəxslərə (ailələrə) dövlət büdcəsinin vəsaiti hesabına göstərilən sosial xidmətin zəmanət verilmiş həcmi"ndə aşağıdakı dəyişikliklər edilsin:

10.1. 2.4-cü və 3.3-cü bəndlərin adında "Valideynlərini itirmiş və valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin;

10.2. 2.4.1.2-ci yarımbənddə "uğursuz ailədən olması və ya valideynlərini itirməsi," sözləri "o cümlədən" sözləri ilə əvəz edilsin.

11. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 23 aprel tarixli 109 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 4, maddə 453 (Cild I) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Uşaqların icbari dispanserizasiyasının həyata keçirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

11.1. 1.2-ci bənddən "valideynlərini itirmiş və" sözləri çıxarılsın;

11.2. 3.4-cü bənd üzrə:

11.2.1. birinci cümlədə "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar onlar üçün müəssisələrdə, yəni onların saxlanıldığı, təhsil və (və ya) tərbiyə aldığı təhsil müəssisələrində, ailə tipli uşaq evlərində, sosial xidmətmüəssisələrində (uşaq evləri, sağlamlıq imkanları məhdud uşaqlar üçün internatlar, sosial-reabilitasiya yardım mərkəzləri, sosial sığınacaqlar), tibb müəssisələrində və qanunvericiliklə" sözləri "Valideyn himayəsindən məhrum olmuş uşaqlar onlar üçün müəssisələrdə, yəni onların saxlanıldığı və təhsil aldığı təhsil müəssisələrində, sosial xidmət müəssisələrində (uşaq evləri, ailə tipli kiçik qrup evləri, əlilliyi olan uşaqlar üçün internat evləri, yetkinlik yaşına çatmayanlar üçün ixtisaslaşdırılmış sosial reabilitasiya müəssisələri), səhiyyə sistemi müəssisələrində və normativ hüquqi aktlarla" sözləri ilə əvəz edilsin;

11.2.2. ikinci cümlədən (hər iki halda) "valideynlərini itirmiş və" sözləri çıxarılsın.

12. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli 37 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 379 (Cild I); 2024, № 2, maddə 229, № 3, maddə 320, № 12 (II kitab), maddə 1431; 2025, № 3, maddə 304, № 7, maddə 696, № 9, maddələr 858, 870 və 873) ilə təsdiq edilmiş "Ünvanlı dövlət sosial yardımın alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi Qaydaları"nın 5.24.3-cü yarımbəndindən "valideynlərini itirmiş və" sözləri çıxarılsın.

13. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 29 dekabr tarixli 622 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2567 (Cild I); 2024, № 4, maddə 479, № 9, maddə 1067; 2026, № 1, maddə 82) ilə təsdiq edilmiş "Dövlət məktəbəqədər təhsil müəssisələrində təhsilalanların sosial müdafiəsi Qaydası"nın 2.2.2.2-ci yarımbəndində "valideynlərini itirməsi," sözləri "o cümlədən" sözləri ilə əvəz edilsin.

14. "Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84, № 2, maddələr 209, 229, № 3, maddələr 307, 359, № 6 (II kitab), maddə 739, № 7, maddələr 920, 930, № 9, maddələr 1067, 1099, 1106, № 10, maddə 1167, № 12 (II kitab), maddə 1428; 2025, № 2, maddə 187, № 6, maddə 594, № 7, maddələr 706, 714, 716, № 8, maddə 800, № 9, maddələr 857, 863, 870, 879, № 10, maddə 972, № 11, maddə 1084, № 12 (II kitab), maddələr 1207, 1233, 1257; 2026, № 2, maddələr 173, 187, 189, № 3, maddə 264; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 6 aprel tarixli 96 nömrəli, 29 aprel tarixli 123 nömrəli, 12 may tarixli 141 nömrəli, 14 may tarixli 145 nömrəli, 15 may tarixli 149 nömrəli, 3 iyun tarixli 165 nömrəli və 9 iyun tarixli 173 nömrəli qərarları) aşağıdakı dəyişikliklər edilsin:

14.1. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin funksional təsnifatına əlavə"nin" 6.1.4. "Qəyyumluq" paraqrafının ikinci abzasından, "6.2.3. "Uşaq evləri" paraqrafından və "6.2.5. "Əmək və əhalinin sosial müdafiəsi tədbirləri" paraqrafından "valideynlərini itirmiş və" sözləri çıxarılsın;

14.2. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin iqtisadi təsnifatı"nın "272350. "Qəyyumluğa görə müavinət" maddəsindən "valideynlərini itirmiş və" sözləri çıxarılsın.

15. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 15 mart tarixli 102 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 3, maddə 536 (Cild I); 2024, № 2, maddə 209, № 5 (II kitab), maddə 611; 2025, № 9, maddə 861, № 12 (II kitab), maddə 1216) ilə təsdiq edilmiş "Peşə təhsili müəssisələrinə qəbul Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

15.1. 1.11-ci bənddən "valideynlərini itirmiş və" sözləri çıxarılsın;

15.2. 2.3-cü bənddə "Valideynlərini itirmiş və valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin və həmin bənddən "valideynlərini itirməsini və" sözləri çıxarılsın.

16. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 iyul tarixli 270 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 1000 (Cild I); 2024, № 9, maddə 1067, № 11, maddə 1251; 2025, № 1, maddə 84, № 7, maddə 699) ilə təsdiq edilmiş "Ümumi təhsil müəssisələrinin növlər üzrə Meyarları"nda aşağıdakı dəyişikliklər edilsin:

16.1. 1.4-cü bənddə "Valideynlərini itirmiş və valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin;

16.2. 7.1.3.2-ci yarımbənddən və 8.1.8-1-ci yarımbəndin 2-ci abzasından "valideynlərini itirmiş və" sözləri çıxarılsın.

17. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 26 aprel tarixli 111 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 4, maddə 414 (Cild I); 2024, № 1, maddə 110, № 4, maddələr 478, 479, № 5 (II kitab), maddə 611, № 9, maddə 1067; 2025, № 9, maddə 870; № 12 (II kitab), maddə 1225; 2026, № 1, maddə 82) ilə təsdiq edilmiş "Uşaqların dövlət və bələdiyyə tərəfindən yaradılan ailə tipli kiçik qrup evlərinə qəbulu, qrup evlərini tərk etməsi, qrup evlərində xidmətin təşkili, həmçinin qrup evlərində uşaqların təminatı və yaşayış şəraitinə dair Qaydalar"ında aşağıdakı dəyişikliklər edilsin:

17.1. 1.1-ci bənddən "valideynlərini itirmiş və ya" sözləri çıxarılsın;

17.2. 2.3.3-cü yarımbənddə "fəaliyyət qabiliyyəti məhdudlaşdırılan" sözləri "məhdud fəaliyyət qabiliyyətli şəxs" sözləri ilə əvəz edilsin;

17.3. 3.15-ci bənddən "valideynlərini itirmiş və" sözləri çıxarılsın.

18. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 26 aprel tarixli 112 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 4, maddə 415 (Cild I); 2024, № 1, maddələr 75, 110, № 4, maddələr 478, 479, № 9, maddə 1067; 2025, № 12 (II kitab), maddə 1225; 2026, № 1, maddə 82) ilə təsdiq edilmiş "Uşaqların dövlət və bələdiyyə tərəfindən yaradılan uşaq evləri sosial xidmət müəssisələrinə qəbulu, həmin müəssisələri tərk etməsi, uşaq evlərində xidmətin təşkili, həmçinin uşaq evlərində uşaqların təminatı və yaşayış şəraitinə dair Qaydalar"ında aşağıdakı dəyişikliklər edilsin:

18.1. 1.1-ci bənddən "valideynlərini itirmiş və ya" sözləri çıxarılsın;

18.2. 2.1-ci bənddə "Valideynlərini itirmiş və valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin və həmin bənddən "valideynlərini itirmiş və ya" sözləri çıxarılsın;

18.3. 2.3.3-cü yarımbənddə "fəaliyyət qabiliyyəti məhdudlaşdırılan" sözləri "məhdud fəaliyyət qabiliyyətli şəxs" sözləri ilə əvəz edilsin;

18.4. 3.14-cü bənddən "valideynlərini itirmiş və" sözləri çıxarılsın.

19. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 13 yanvar tarixli 8 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 1, maddə 129(Cild I); 2025, № 9, maddə 861, № 12 (II kitab), maddə 1225) ilə təsdiq edilmiş "Fövqəladə hallarda, pandemiya və bu kimi xüsusi vəziyyətlərdə uşaqların təhsilə, sosial və digər xidmətlərə təhlükəsiz çıxışında bərabərliyin təmin edilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

19.1. 2.3.2-ci, 2.3.5-ci yarımbəndlərdən və 3.1.3-cü yarımbəndin 4-cü abzasından "valideynlərini itirmiş və" sözləri çıxarılsın;

19.2. 3.1.2-ci yarımbəndin 5-ci abzasında "kənar qalmış" sözləri "məhrum olmuş" sözləri ilə əvəz edilsin.

20. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 8 fevral tarixli 75 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 2, maddə 207; 2025, № 4 (I kitab), maddə 403, № 7, maddə 699, № 9, maddə 873) ilə təsdiq edilmiş "Sağlamlıq imkanları məhdud olan şəxslərin təhsili üçün xüsusi təhsilin dövlət standartları"nın 7.37-ci bəndinin ikinci cümləsindən "valideynlərini itirmiş və" sözləri çıxarılsın və həmin cümlədə "Valideynlərini itirmiş və valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin.

21. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 30 iyul tarixli 368 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 7, maddə 929; 2025, № 5, maddə 507, № 9, maddələr 858, 870, № 11, maddə 1093) ilə təsdiq edilmiş "Sosial ödənişlərin təyin edilməsi, ödənilməsi, ödənişinin dayandırılması və sosial ödəniş işlərinin mühafizəsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

21.1. 4.1.2-ci, 4.1.4-cü və 4.1.12.2-ci yarımbəndlərdən "valideynlərini itirmiş və ya" sözləri çıxarılsın;

21.2. 4.1.9-cu yarımbənddən "valideynlərini itirmiş və" sözləri çıxarılsın.

22. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 1 aprel tarixli 94 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, №4 (I kitab), maddə 383) ilə təsdiq edilmiş "Uşaq hüquqlarının həyata keçirilməsinin bütün sahələrdə təmin edilməsi vəziyyətinin monitorinqi üzrə Meyarlar"ın 2.1.8-ci, 5.1.8-ci, 5.1.8.1-5.1.8.3-cü və 5.1.9-cu yarımbəndlərindən "valideynlərini itirmiş və" sözləri çıxarılsın.

23. "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 7 mart tarixli 151-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 1 aprel tarixli 359 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 18 sentyabr tarixli 273 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, №9, maddə 873) aşağıdakı dəyişikliklər edilsin:

23.1. 5.1-ci bənddən "valideynlərini itirmiş və" sözləri çıxarılsın;

23.2. 5.2-ci bənddən "valideynlərini itirmiş və" sözləri çıxarılsın və həmin bənddə "Valideynlərini itirmiş və valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Kənd təsərrüfatının inkişafına dair yeni dövlət proqramı həyata keçirilir



## "İntensiv bağçılıq xüsusilə meyvə yetişdirilən bölgələrdə əsas prioritet olmalıdır"

**Yüksək məhsuldarlığı və səmərəliliyi ilə seçilən intensiv və superintensiv bağçılığın inkişafı hazırda ölkəmizdə kənd təsərrüfatının əsas prioritetlərindən birinə çevrilib. Təsadüfi deyil ki, Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycanda kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" çərçivəsində ölkə üzrə intensiv bağların sahəsinin 70 min hektara çatdırılması hədəflənib.**

Əvvəla xatırladaq ki, intensiv meyvə bağları dedikdə damcı suvarma sistemi ilə təmin olunmuş və bir hektara müəyyənləşmiş sayda ting əkilən təsərrüfatlar nəzərdə tutulur. Bu növ bağçılıq torpaqdan daha səmərəli istifadə etməyə imkan verir. Ənənəvi bağlarla müqayisədə bu bağlarda işlər tam mexanikləşdirilir və damcı suvarma sistemlərindən istifadə edilir. Başqa sözlə, intensiv bağlar müasir texnologiyaların tətbiqinə, yüksək məhsuldarlığa və torpaq-su ehtiyatlarından səmərəli istifadəyə əsaslanan təsərrüfatlardır. Burada məqsəd minimum əmək və xərclə ən qısa müddətdə keyfiyyətli məhsul əldə etməkdir.

Azərbaycanda bu sahə sürətlə genişləndirilir. Dövlət dəstəyi, o cümlədən subsidiyalar regionlarda istehsalçıları stimullaşdıraraq intensiv və superintensiv bağçılığın inkişafına təkan verir. Nümunə üçün göstərək ki, xüsusi dövlət dəstəyi çərçivəsində Naxçıvanda intensiv və superintensiv bağların salınmasına yüksək subsidiya məbləğləri nəzərdə tutulub. Məsələn, superintensiv alma bağlarının bir hektarı üçün 32 min 200 manat. Onu da qeyd edək ki, regionlar üzrə fərqli əmsallar tətbiq olunur.

Beləliklə, intensiv və superintensiv bağçılıq sahəsinin əsas xüsusiyyətləri və üstünlükləri müasir suvarma, erkən məhsuldarlıq, texnoloji innovasiyalar və torpaqdan rasional istifadədir. Müasir suvarmada ənənəvi üsullardan fərqli olaraq, suya qənaət edən və torpağın keyfiyyətini qoruyan damlama və ya süni yağışyağdırma sistemlərindən istifadə olunur.

Erkən məhsuldarlıq o deməkdir ki, intensiv bağlarda əkilən meyvə tingləri qısa müddətdə, hətta bəzi hallarda elə əkildiyi il məhsula düşür. İllər keçdikcə məhsuldarlıq daha da artır. Nasosxana kompleksləri və avtomatika sistemləri kimi texnoloji vasitələrin tətbiqi sahəyə texnoloji innovasiyalar gətirir. Torpaqdan rasional istifadə isə özündə ərazinin daha sıx və məqsədyönlü şəkildə əkilərək maksimum səmərə ilə idarə olunmasını ehtiva edir.

Hansı meyvə növünün hansı regionun intensiv bağçılığı üçün daha əlverişlidir? Bu məsələ də aktuallıq kəsb edir. Məsələn, Quba-Xaçmaz zonası Azərbaycanda intensiv və superintensiv bağçılığın, xüsusilə də alma istehsalının mərkəzidir. Bu müasir təsərrüfat modeli ənənəvi bağlarla müqayisədə hektardan 3-4 dəfəyə qədər daha çox məhsul əldə etməyə imkan verir.

Quba, Qusar və Xaçmaz rayonlarında salınan superintensiv alma bağlarında hər hektardan 60-70 ton məhsul götürmək mümkündür. Ənənəvi bağlarda isə bu rəqəm 20-25 tondur.

Masallı rayonunun ərazisində əsasən sitrus və giləmeyvə bağlarının, plantasiyalarının salınmasına maraq daha böyükdür. İntensiv bağların salınmasına dövlət dəstəyi mexanizminin genişlənməsi, birdəfəlik əkin subsidiyalarının ayrılması, fermerlərin bağların salınmasına çəkdiyi xərclərin bir hissəsinin dövlət tərəfindən subsidiyalaşdırılması Lənkəran-Astara iqtisadi rayonunda, o cümlədən Masallıda həm intensiv bağların sahəsinin artmasına, həm də fermerlərin gəlirlərinin çoxalmasına müsbət təsir göstərir.

Fındıqçılıqla əsasən Azərbaycanın şimal-qərb bölgəsində məşğul olurlar. Həmin rayonlarda bir çox ailələr dolanışıq xərclərinin xeyli hissəsini fındıqçılıqdan əldə etdikləri qazanc hesabına ödəyirlər. Xüsusilə Zaqatala, Qax və Balakən rayonlarında fındıqçılıq əhalinin məşğulluğunun bir hissəsini təşkil edir. Lakin bu, o demək deyil ki, digər bölgələrdə bu məhsulların intensiv yetişdirilməsi mümkünsüzdür.

İntensiv bağçılıqdan danışarkən işğaldan azad olunmuş ərazilərimizdə bu istiqamətdə aparılan işlərə də xüsusi diqqət yetirmək gərəkdir. Təsadüfi deyil ki, Prezident İlham Əliyev cari il mayın 25-də kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə bu məsələyə də toxunmuşdur: "İntensiv bağçılıq. Biz bunun da müsbət nəticəsini görürük, o cümlədən azad edilmiş torpaqlarda. Ağalı kəndinin yaxınlığında salınmış meyvə bağı. Mən bu yaxınlarda Zəngilanda olarkən məlumat verildi ki, artıq oradan ixrac da olunur. Yəni intensiv bağçılıq, xüsusilə meyvə yetişdirilən bölgələrdə əsas prioritet olmalıdır və burada qarşıya məqsəd qoyulur ki, 20 min yeni hektarda intensiv bağçılıq səviyyəsində bağlar qurulsun".

Zəngilan rayonunda intensiv bağçılıq yüksək məhsuldarlıq, müasir texnologiyalar (damlama suvarma) və xarici bazarlara ixrac potensialı ilə seçilir. Əsas mərkəz Ağalı kəndindəki təsərrüfatdır. Ağalı İntensiv Meyvə Bağı 2022-ci ildə salınıb. Bu bağ 100 hektar ərazini əhatə edir və hər hektara 666 ağac olmaqla ümumilikdə 66 min ağac əkilib. Bağın 40 hektarı ərik (İspaniya və yerli sortlar), 60 hektarı isə nektarin ağaclarından ibarətdir. Su təminatı birbaşa Həkəri çayından həyata keçirilir və ən müasir damlama suvarma sistemləri tətbiq olunur. Ağalıda istehsal olunan yüksəkkeyfiyyətli meyvələr artıq birbaşa xarici bazarlara çıxarılır.

Məhsuldarlığı artırmaq üçün yerli kəndlərdə Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutu tərəfindən mütəmadi olaraq budama və qulluq təlimləri təşkil edilir.

Qarabağın və Şərqi Zəngəzurun digər rayonlarında da intensiv bağçılığın böyük perspektivləri var. Məsələn, Ağdam rayonunun iqlimi mülayim isti və quraq subtropikdir, bu da intensiv bağçılıq (xüsusən də üzümçülük) üçün yüksək potensial yaradır. Rayon minalardan təmizləndikdən sonra ənənəvi üzümçülük və meyvəçilik təsərrüfatlarının modernləşdirilməsinə, intensiv üsullarla bərpasına xüsusi önəm verilir.

Ağdamda intensiv bağçılığın əsas istiqamətlərindən biri üzümçülükdür. Bu rayon qədimdən Azərbaycanda ən böyük üzümçülük və şərabçılıq mərkəzlərindən biri olub. Ərazidə məhsuldarlığı dəfələrlə artıran müasir və intensiv üzüm bağlarının salınması bərpa prosesinin əsas prioritetlərindəndir.

Digər istiqamət meyvəçilikdir. Rayonda xurma, nar, alma, ərik, fındıq, armud, gavalı və albalı kimi meyvə növləri becərilir. İntensiv üsullar sayəsində bu bağların məhsuldarlığında mühüm artımlar qeydə alınmışdır.

Bir neçə söz də "İntensiv bağçılıq" layihəsi barədə. "İntensiv bağçılıq" layihəsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Məşğulluq Agentliyi və Heydər Əliyev Fondunun Regional İnkişaf İctimai Birliyi tərəfindən birgə həyata keçirilir. Özünüməşğulluq proqramına dəstək məqsədilə icra olunan "İntensiv bağçılıq" layihəsinə 2018-ci ildən start verilib. Həmin vaxtdan yüzlərlə aztəminatlı ailə üçün intensiv bağ təsərrüfatı yaradılıb və onlar bu layihədən faydalanıblar.

...Bağları az qala il boyu bar gətirən Azərbaycan kimi ikinci bir diyar varmı, görəsən? Hərçənd indi süni üsullarla bunu istənilən yerdə etmək mümkündür. Amma kökü torpaqdan güc alıb qol-budaq atan ağaclardan bar götürmək, geni dəyişdirilmiş deyil, məhz saf meyvə dərib yemək və yaxındakı-uzaqdakı insanlara da bu ləzzətli nemətləri bəxş etmək özgə xoşbəxtlikdir.

Yazda alça, ərik, çiyələk yetişdirən torpağımız ilin bütün fəsillərində nemətlərini insanlardan əsirgəmir. Yayda şaftalı, gavalı, alma ilə bol olan bağlarda payızda xurma və heyva "közərir". Havalar soyuyub alma-armud bağlarından əl-ayaq yığışandan sonra süfrələri naringi, portağal bəzəyir. Başqalarına, Azərbaycan təbiətinə bələd olmayanlara nə qədər qəribə görünsə də, burada ağacdan üstünə qar dənəcikləri qonmuş meyvə də dərib yemək olar. Bu, qışda yetişən əzgildir... Lənkərandan Qubaya, İsmayıllıdan Zaqatalaya, Salyandan Qazaxa, Qarabağ ellərindən Naxçıvan diyarınadək Azərbaycan torpağının hər yanında il boyu yetişən daha neçə-neçə ləziz meyvənin adını çəkmək olar. Bir sözlə, hazırda Azərbaycan özünü meyvə və giləmeyvə ilə 140 faiz təmin edir.

Qeyri-neft sektorunun inkişafının prioritet təşkil etdiyi və aqrar sektorun bu sahədə ön yeri tutduğu indiki dövrdə meyvəçiliyə, eləcə də onun ayrı növlərinə diqqətin artırılması vacibdir. Ərzaq təhlükəsizliyinin təmin edilməsində və ixracın artırılmasında dövlətimiz bunu əsas məqsədlərdən biri kimi hədəfləyir. İntensiv bağçılıq və superintensiv bağçılıq bu məqsədə çatmaqda ən münasib və sərfəli üsullardan biridir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Tərtər: *növbəti məqsəd yeni hədəflərə çatmaqdır*

**Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cü illər üçün Dövlət Proqramı"nda qarşıya qoyulan vəzifələrin icrasını təmin etmək məqsədilə bölgələrdə zəruri tədbirlər həyata keçirilir, əmək ehtiyatları səfərbər edilir, görüləcək işlər müəyyənləşdirilir.**

Bu günlər ölkənin bütün bölgələrində olduğu kimi, Tərtərdə də diqqətçəkən canlanma hiss olunur. Tərtər havası təmiz, suyu saf, torpağı münbit, ən başlıcası isə, sakinləri əməksevər, zəhmətə, torpağa bağlı insanlardır. Ermənistan silahlı qüvvələrinin işğalçılıq niyyətlərinə qarşı mübarizədə əsl qəhramanlıq nümunəsi göstərərək düşmənə bir qarış torpaq da güzəşt etməmiş tərtərlilər bu gün əmək meydanında xarüqələr göstərir, ölkə iqtisadiyyatının güclənməsinə sanballı töhfələr verirlər. Təsadüfi deyil ki, Ermənistan faşistlərinin Tərtərə raket və artilleriya mərmilərini dolu kimi yağdırdığı ağır və gərgin günlər Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev dəfələrlə bölgəyə səfər etmiş, tərtərlilərin fədakarlığını əsl qəhrəmanlıq kimi qiymətləndirmişdir.

Qarabağ iqtisadi rayonuna daxil olan Tərtər coğrafi mövqeyi və strateji əhəmiyyət baxımından ölkənin vacib bölgələrindən biri kimi tanınır. Yüksək məhsuldarlığa malik torpaqları burada kənd təsərrüfatını dinamik inkişaf etdirmək üçün geniş imkan verir. Pambıqçılıq və taxılçılıq aqrar sektorun əsas sahələridir. Heyvandarlıq və baramaçılıq da inkişaf edən sahələrdəndir. Son illər həmçinin rayonda intensiv bağçılığa diqqət nəzərəçarpacaq dərəcədə artıb.

30 illik işğal dövrünün ağrı-acısı şanlı zəfərlə başa çatdıqdan sonra müharibə dövrünün cəbhə bölgəsi kimi tanınan Tərtərdə abadlıq-quruculuq, əkin-biçin işləri səngimək bilmir. Üstəlik, "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nda qarşıya qoyulan vəzifələr Tərtər kəndlisinin fəaliyyətinə yeni istiqamətlər verib, yeni hədəflər müəyyən edib. Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədovla bu yöndə söhbətimiz yetərincə maraqlı və aktual oldu:

- Çox qürurvericidir ki, dövlətimizin qüdrəti ildən-ilə artmaqdadır. Regionun lider dövlətinə çevrilmiş Azərbaycan bu gün dünya birliyində söz sahibidir. Zəfərimizin baş memarı olan Prezident İlham Əliyev indi dinc quruculuq dövrünün yeni istiqamətlərini müəyyən edib, ölkəmizin iqtisadi qüdrətini artıracaq, əhalinin güzəranını daha da yüksəldəcək, kənd yerlərində faydalı məşğulluğu təmin edəcək yeni hədəfləri gündəmə gətirib. Məlumdur ki, Prezidentin sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nda qarşıdakı 5 il ərzində həyata keçiriləcək tədbirlər öz əksini tapıb. Bu vəzifələrə uyğun olaraq biz də aqrar rayon olaraq tədbirlər planı hazırlamışıq. İstər üzücü müharibə illərində, istərsə də müharibədən sonrakı dinc quruculuq dövründə tərtərlilər dövlətin, Prezident İlham Əliyevin qayğı və diqqətindən güc alıblar, onun doğma və isti nəfəsini, güclü əlini hər zaman kürəklərində hiss ediblər. Dövlət proqramı qarşıya yeni hədəflər qoyub. Tərtər kəndlisi isə yeni hədəflər üçün səfərbərdir. Zamanın sınaqlarından həmişə uğurla çıxan tərtərlilər qarşıdakı 5 ilin hər gününə, hər ayına zəfər möhürü vurmaq əzmindədirlər.

İndi Tərtər rayonunda təsərrüfat işlərinin qızğın çağıdır. Havaların əlverişsiz keçməsinə baxmayaraq, fermerlər zəmilərin məhsulunu tez və itkisiz yığıb tədarük etməyə çalışırlar. Məhsulu biçilən zəmilərin hər hektar üzrə orta məhsuldarlığı hələlik 41,5 sentnerdir. Qabaqcıl fermer təsərrüfatlarında isə bu göstərici 55-60 sentnerə çatıb.

Rayonda pambıqçılığın inkişafına böyük önəm verilir. Torpaq mülkiyyətçiləri strateji məhsul olan pambığın bolluğunda maraqlıdırlar. Təsərrüfatlarda pambıq əkinlərinin genişləndirilməsi kəndlərdə əhalinin faydalı məşğulluğunu təmin etməklə yanaşı, torpaq mülkiyyətçilərinin ailə büdcəsinə də əhəmiyyətli təsir göstərir. Ölkəyə valyuta gətirən pambıq ixracının artırılmasında maraqlı olan dövlət bu sahənin inkişafı üçün kompleks tədbirlər görür, əhəmiyyətli gücə malik subsidiyalar tətbiq edir. Son 10 ildə Tərtər pambıqçıları böyük nailiyyətlər qazanıblar. Əgər 2016-cı ildə pambıq tarlalarında hər hektarın orta məhsuldarlığı 22,5 sentner idisə, keçən il bu rəqəm 37,6 sentnerə yüksəlib. İndi pambıq tarlalarında becərmə işləri yüksək aqrotexniki qaydalar əsasında davam edir. Bu il rayon üzrə 2117,7 hektarda pambıq əkilib. Rayonda fəaliyyət göstərən "Prime Cotton", "Azərpambıq" və "Elakoton" Məhdud Məsuliyyətli cəmiyyətlərin filialları torpaq mülkiyyətçiləri ilə bağladıqları müqavilələrin şərtlərinə doğru-dürüst əməl edir, pambıqçıların üzləşdikləri çətinliklərin operativ qaydada aradan qaldırılmasınada yardımçı olurlar.

Tərtərdə qabaqcıl pambıqçılardan söz düşəndə Bəyimsarov kəndində Birinci dərəcəli "Əmək" ordenli Fazil Vəliyevin adı hörmətlə çəkilir. Qabaqcıl fermer bu il 45 hektar sahədə pambıq əkib. Qayğı ilə becərilən tarlalar bol məhsuldan xəbər verir. Fazil Vəliyev deyir ki, dövlət proqramının birinci ilinə sanballı töhfə vermək əzmindəyik: "Bu il hər hektardan 55 sentnerdən çox məhsul götürməkdə qərarlıyıq. Bizim torpaqlar çoxverimlidir. Çəkilən zəhmətin, axıdılan alın tərinin əvəzini hər zaman birəmin qaytarır".

Mütərəqqi texnologiyaların, qabaqcıl təcrübənin bacarıqla tətbiq edildiyi və qarşılığında fərəhli nəticələrin qazanıldığı fermer təsərrüfatlarından birinə Mirzə Cümşüdov rəhbərlik edir. Rayonun İsmayılbəyli kəndində yerləşən fermer təsərrüfatının üzvləri pambıqçılıq və taxılçılıqla yanaşı, intensiv bağçılığa da böyük önəm verirlər. Müasir standartlara uyğun qurulan bağların ümumi sahəsi 50 hektardır. Onun 31 hektarında nektarin, 15 hektarında gilas, 4 hektarında ərik yetişdirilir. Hazırda bağlarda 50 nəfər çalışır. Məhsuldarlıq qənaətbəxşdir. Ağaclar mütərəqqi damlama üsulu ilə suvarılır.



Xoruzlu kəndində fəaliyyət göstərən "Patron" MMC ölkədə yaxşı tanınır. MMC-nin maliyyə direktoru Emin Məmmədovla maraqlı söhbətimiz oldu. Öyrəndik ki, "Patron" şirkətinin 25-dən çox hazır məhsul çeşidi var. Günəbaxan tumunun emalı və qablaşdırılmasından başqa, şirniyyat, qarğıdalı, "suxarik" kimi çeşidlər də istehsal edilir. Məhsullardakı əsas fərqlilik ondan ibarətdir ki, xüsusi texnologiya dəniz duzu ilə duzlanma üsulunu tətbiq etməyə imkan verir. Bunu ilk dəfə "Patron" şirkəti tətbiq edib. Məhsullar tam gigiyenik qaydalar əsasında istehsal olunur. Şirkətdə çalışan daimi işçilərin sayı 400 nəfərə yaxındır. "Patron" şirkətinin səmərəli fəaliyyəti ölkəmizdə sahibkarlığın inkişafına dövlətin göstərdiyi davamlı qayğı və diqqətin sayəsində mümkün olub.

Son illər Tərtərdə intensiv bağçılıq sahələri sürətlə genişlənir. Yeni yaradılmış "Frutti Aqro" MMC-nin ümumi əkin sahəsi 315 hektardır. Bunun 175 hektarını xurma, 70 hektarını nektarin, 44 hektarını şaftalı, 16 hektarını əncir, 10 hektarını ərik bağları təşkil edir. Müəssisənin 60 nəfər daimi, 200 nəfər mövsümi işçisi var.

Rayonda intensiv bağçılığın inkişafından danışarkən "Aznektarin" və "Tərtər 1" MMC-lər də qeyd olunmalıdır. "Aznektarin" 164, "Tərtər 1" 98 hektarda müxtəlif növ meyvələr yetişdirirlər.

Hər zaman dövlətinə güvənən, Prezident İlham Əliyevin dəstəyindən güc alan tərtərlilər taxıl zəmilərində, pambıq tarlalarında, meyvə bağlarında beləcə nümunə göstərirlər.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

## Aqrar-sığorta mexanizminin əhatə dairəsi daha da genişlənəcək

**Azərbaycanda dövlət dəstəyi ilə güzəştli şərtlərlə tətbiq edilən aqrar-sığorta mexanizminin əhatə dairəsi daha da genişləndiriləcək. Bu, Prezident İlham Əliyevin 2026-cı il 25 may tarixli sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nda nəzərdə tutulur.**

Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən AZƏRTAC-a bildirilib ki, proqrama əsasən, dövlət dəstəkli aqrar-sığorta mexanizminin əhatə dairəsi və təminat verilən risklərin sırası daha da genişləndiriləcək. Nəticədə aqrar-sığortanın əhatə etdiyi əkinlərin sahəsi 2025-ci ildəki 386 min hektardan 2030-cu ildə 1 milyon hektara, kənd təsərrüfatı heyvanlarının sayı isə 7 min başdan 100 min başa çatdırılacaq.

Aqrar-sığortanın əhatə dairəsinin də genişləndirilməsi gözlənilir. Bu məqsədlə aqrar-sığorta mexanizmi çərçivəsində təminat verilən sığorta predmetlərinin və risklərin tərkibinin bitkiçilik, heyvandarlıq və balıqçılıq üzrə genişləndirilməsi istiqamətində təkliflər hazırlanacaq. Bundan başqa, "Aqrar sığorta" informasiya sisteminin funksional imkanlarının genişləndirilməsi, müstəqil aqrar-sığorta ekspertləri institutunun inkişaf etdirilməsi nəzərdə tutulur.

Nəticədə aqrar-sığorta xidmətlərinin tam elektronlaşdırılması təmin ediləcək, fermerlərin sığortaya əlçatanlığı artacaq, sığorta ödənişlərinin operativliyi təmin olunacaq.

Bundan başqa, aqrar-sığorta haqlarının dövlət hesabına ödənilən hissəsinin subyektlərə, predmet və risklərə münasibətdə diferensiallaşdırılması nəzərdə tutulur. Bu məqsədlə dövlət dəstəyinin diferensiallaşdırılması üzrə beynəlxalq təcrübənin öyrənilməsi və aqrar sahədə diferensiallaşdırılmış sistemə keçidə başlanılması gözlənilir.

Qeyd edək ki, fermerlər rəqəmsal imkanlardan istifadə etməklə, olduğu yeri tərk etmədən əkin sahəsini və ya təsərrüfatını sığortalaya və "ASAN Pay" ödəniş sistemi ilə sığorta haqqını ödəyə bilər.

Aqrar-sığorta məhsulları, əkinlərin və heyvanların sığortalanması şərtləri, eləcə də sığorta haqları barədə ətraflı məlumatı Aqrar Sığorta Fondunun rəsmi internet səhifəsi (asf.gov.az), həmçinin 1651 Çağrı Mərkəzinə müraciət etməklə almaq mümkündür.

**"Türk Dövlətləri Təşkilatının müasir mərhələdə gerçəkləşdirdiyi layihələrin bünövrəsində I Türkoloji Qurultayın vaxtilə irəli sürdüyü mütərəqqi fikirlər dayanır".**

**Azərbaycan Prezidenti İlham Əliyevin "Türk Dünyası Həftəsi" iştirakçılarına müraciətindən**




# Bir əsr sonra yenidən Bakıda

**Əsrlərin sınağından keçərək bu gün geosiyasi və mədəni güc mərkəzinə çevrilən türk dünyası növbəti tarixi və taleyüklü zirvəsinə Bakıda imza atır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "I Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında" 22 oktyabr 2025-ci il tarixli sərəncamı əsasında təşkil olunan "Türk Dünyası Həftəsi" (29 iyun - 3 iyul) paytaxtımızda möhtəşəm açılış mərasimi ilə işinə başladı.**

1926-cı ildə dünya türkologiya elminin simalarını bir araya gətirən I Türkoloji Qurultayın 100 illik yubileyinə həsr olunan bu mötəbər humanitar platforma Altaylardan Balkanlara qədər uzanan nəhəng coğrafiyanın elmi, mədəni və mənəvi birliyinin növbəti rəmzi nümayişidir.

Heydər Əliyev Mərkəzində baş tutan açılış mərasimində dövlət rəsmiləri, qardaş türk respublikalarından gələn nazirlər, beynəlxalq təşkilatların rəhbərləri və dünyaşöhrətli alimlər iştirak edirlər. Tədbirdə Prezident İlham Əliyevin iştirakçılara ünvanladığı tarixi müraciət oxundu. Dövlətimizin başçısı öz müraciətində Türk Dövlətləri Təşkilatını "bizim ailəmiz" adlandıraraq ortaq humanitar məkanın formalaşmasında bir əsr əvvəl Bakıda atılan addımların bu gün qazanılan böyük geosiyasi uğurların təməl daşı olduğunu vurğulayıb. Müraciətdə oxuyuruq: "Türk dünyası ailəsi böyük bir sivilizasiya yaratmış əcdadlarımızın şəninə yaraşan tərzdə əsrin nüfuzlu geosiyasi güc mərkəzlərindən biri olmaq yolundadır. Biz bu ailənin möhkəmliyi və sarsılmazlığı naminə var qüvvəmizi bundan sonra da əsirgəməyəcəyik".

1926-cı ildə keçirilmiş I Türkoloji Qurultay türk xalqlarını ilk dəfə vahid elmi platformada bir araya gətirmiş, ortaq dil, əlifba, tarix, təhsil və mədəniyyət məsələlərini sistemli şəkildə müzakirəyə çıxarmışdı. Bir əsr sonra həmin ideyaların yenidən Bakıda gündəmə gətirilməsi təsadüfi deyil. Bu, Azərbaycanın türk dünyasının intellektual, humanitar və strateji əməkdaşlıq mərkəzi kimi artan rolunun məntiqi nəticəsidir.

Prezident İlham Əliyevin I Türkoloji Qurultayın 100 illiyinin dövlət səviyyəsində qeyd olunması haqqında sərəncamı da məhz bu tarixi missiyanın davam etdirilməsinə xidmət edir. Bu sərəncam əsasında keçirilən "Türk Dünyası Həftəsi" çərçivəsində Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Elm və Təhsil Nazirliyinin birgə təşkilatçılığı, Türk Dövlətləri Təşkilatı, TÜRKSOY, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, Bakı Dövlət Universiteti kimi nüfuzlu qurumların tərəfdaşlığı ilə keçirilən tədbirlər bütövlükdə türk dünyasının ortaq gələcəyinə hesablanmış genişmiqyaslı platforma yaradır.

100 il keçir və zamanın qırılan zənciri artıq bərpa olunur. Bakıda qoyulan o məfkurə toxumları bu gün Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyətli siyasi iradəsi və geostrateji baxışı sayəsində qlobal arenada söz sahibi olan Türk Dövlətləri Təşkilatına (TDT) çevrilmişdir. Dünən repressiya qorxusu ilə pıçıldayan bu dünya indi Qarabağ Zəfərinin yaratdığı yeni reallıq fonunda liderinin dili ilə beynəlxalq kürsülərdən gələcəyini diktə edir: "Bizim ailəmiz türk dünyasıdır". Bu mənada I Türkoloji Qurultaya müasir Türk Dövlətləri Təşkilatının hazırda reallaşdırdığı strateji layihələrin əsas ideoloji bünövrəsi kimi baxmaq lazımdır. Çünki tam bir əsr əvvəl əsası qoyulan ümumtürk idealları bu gün TDT-nin qərarları və konkret əməlləri ilə özünün ən parlaq dövrünü yaşayır.

Tədqiqatçıların araşdırmalarında göstərilir ki, qurultayda ilk dəfə olaraq türk dilləri ayrı-ayrı lokal problemlər kimi deyil, bir-biri ilə əlaqəli vahid sistem kimi qiymətləndirilmişdir. Bu müxtəlif türk xalqları arasında yazı fərqlərini azaltmış, elmi və mədəni ünsiyyəti asanlaşdırmışdır. Qurultay həm də türkologiya elminin institusionallaşmasına təkan vermişdir. Bir çox regiondan olan alimlərin Bakıda bir araya gəlməsi elmi şəbəkələşməni gücləndirmiş, ortaq tədqiqat mövzuları və metodoloji yanaşmalar formalaşdırmışdır. Bu proses türk xalqlarının tarixinin, mədəniyyətinin və dilinin paralel şəkildə öyrənilməsinə şərait yaratmışdır. Hazırda TDT həm də elmi bünövrəsini məhz belə bir siyasi müstəvidə tamamlayır.

1926-cı ildə irəli sürülən ortaq imla və vahid əlifba hədəfi sovet repressiyaları ilə yarımçıq qalır. Lakin TDT nəzdində fəaliyyət göstərən Ortaq Əlifba Komissiyası Bakıda keçirilən iclasında 34 hərfdən ibarət Ortaq Türk Əlifbası layihəsi üzərində tam razılıq əldə edir. Bununla da 100 il əvvəl alimlərin başladığı mədəni unifikasiya dövlət başçılarının siyasi iradəsi ilə rəsmi sənədə çevrilir. Gəlin unutmayaq ki, ortaq türk əlifbasının yaradılması sahəsində görülən işlər zamanın çağırışıdır. Müraciətdə xüsusi vurğulanır: "Qurultayın obyektiv zərurətdən irəli gələn və bütün türk aləminin tərəqqisini nəzərdə tutan taleyüklü qərarları elmi-mədəni həmrəyliyimizin qorunub saxlanılmasında mühüm platforma rolunu oynamış, sərt sınaqlara tab gətirərək, 70 illik kommunist rejiminin süqutundan sonra milli müstəqillik əldə edən türk xalqlarının mədəni-mənəvi dirçəliş yollarını yenidən işıqlandırmışdır".

## Ortaq gələcəyə birgə baxış

"Türk Dünyası Həftəsi"nin proqramına nəzər saldıqda aydın görünür ki, məqsəd yalnız tarixi hadisəni yad etmək deyil. Beynəlxalq konqreslər, elmi panel müzakirələri, kitabxana əməkdaşlığı, muzey sərgiləri, teatr tamaşaları, konsert proqramları, film nümayişləri, Xankəndidəki Qarabağ Universitetində keçiriləcək elmi sessiyalar, yeni strateji sənədin qəbul edilməsi - bütün bunlar bir-birindən ayrı tədbirlər olmayıb ortaq strateji məqsədin müxtəlif istiqamətlərini təşkil edir. Bu məqsəd isə türk dünyasının humanitar inteqrasiyasının daha sistemli və davamlı şəkildə həyata keçirilməsidir.

Əgər XX əsrin əvvəllərində türk xalqları qarşısındakı əsas çağırış ortaq əlifba, milli təhsil və elmi terminologiya idisə, XXI əsrdə prioritetlər rəqəmsal humanitar elmlər, süni intellekt dövründə dilin inkişafı, ortaq elmi platformalar, gənclərin əməkdaşlığı və vahid informasiya məkanının formalaşdırılmasıdır. Bu baxımdan, "Türk Dünyası Həftəsi" tarixlə gələcək arasında körpü rolunu oynayır. Obrazlı desək, Azərbaycan, Bakı, Qarabağ yenidən türk dünyasının görüş yeridir.

Bir daha vurğulanmalıdır ki, 1926-cı ildə I Türkoloji Qurultayın məhz Bakıda keçirilməsi təsadüfi deyildi. Həmin dövrdə Bakı Qafqazın ən böyük iqtisadi, mədəni və intellektual mərkəzlərindən biri idi. Burada formalaşmış ziyalı mühiti, inkişaf etmiş mətbuat, maarifçilik ənənələri və kosmopolit şəhər mühiti türkoloji fikrin inkişafı üçün əlverişli zəmin yaratmışdı, dünya türkologiyasının mötəbər mərkəzlərindən biri kimi tanınırdı. Bu gün də oxşar mənzərə müşahidə olunur. Azərbaycan son illərdə COP29, WUF-13, beynəlxalq iqtisadi forumlar, İslam Əməkdaşlıq Təşkilatının tədbirləri, Türk Dövlətləri Təşkilatının müxtəlif platformaları kimi qlobal və regional tədbirlərə uğurla evsahibliyi etməklə beynəlxalq dialoq məkanına çevrilib. "Türk Dünyası Həftəsi" də həmin ardıcıl siyasətin davamıdır.

Bakı artıq yalnız siyasi diplomatiyanın deyil, humanitar diplomatiyanın da əsas mərkəzlərindən biri kimi çıxış edir. Türkdilli ölkələr arasında inteqrasiyanın əsas dayağı da məhz humanitar əməkdaşlıqdır.

Fəaliyyətində və güclənməsində Azərbaycanın mühüm rol oynadığı TDT-nin fəaliyyəti son illər nəzərəçarpacaq dərəcədə genişlənib. Əgər təşkilatın fəaliyyətinin ilk illərində diqqət əsasən siyasi-iqtisadi əməkdaşlığa yönəlirdisə, hazırda elm, təhsil, mədəniyyət, media, gənclər siyasəti əsas prioritetlər sırasındadır və bu, təsadüfi deyil. Dünya təcrübəsi göstərir ki, uzunmüddətli inteqrasiyanın əsasını hökumətlərarası müqavilələrdən çox, xalqlar arasında formalaşan ortaq dəyərlər təşkil edir. Birgə universitet proqramları, alimlərin əməkdaşlığı, ortaq dərsliklər, mədəni layihələr, kitabxanalar şəbəkəsi, muzey əməkdaşlığı, ortaq tarixi araşdırmalar gələcək siyasi və iqtisadi əməkdaşlığın ən etibarlı təməlidir. "Türk Dünyası Həftəsi" də məhz bu humanitar bazanın genişlənməsinə xidmət göstərir.

Diqqətçəkən məqamlardan biri də beynəlxalq tədbir iştirakçılarının Ağdam, Şuşa və Xankəndiyə gözlənilən səfəridir. Bu səfər Azərbaycanın azad olunmuş ərazilərdə həyata keçirdiyi bərpa siyasətinin, mədəni irsin dirçəldilməsinin və Qarabağın yenidən beynəlxalq elmi-mədəni dövriyyəyə daxil edilməsinin nümayişi olacaq. Bu baxımdan, Qarabağ Universitetində keçiriləcək panel müzakirələri də xüsusi rəmzi məna daşıyır. Beləliklə, türk dünyasının elmi ictimaiyyəti Azərbaycanın yeni inkişaf reallıqları ilə yerində tanış olmaq imkanı qazanacaq.

## Güclənən mənəvi yaddaş

I Türkoloji Qurultayda müzakirə olunan mövzuların əksəriyyəti bu gün də aktuallığını qoruyur. Sadəcə, onların məzmunu dəyişib. O vaxt məqsəd savadsızlığın aradan qaldırılması idi, bu gün isə əsas məqsəd süni intellekt dövrünə uyğun elmi bilik istehsalıdır. Qurultayın keçirildiyi zamanda vahid elmi platforma yaradılırdı, bu gün isə ortaq rəqəmsal elmi məkan formalaşdırılır. Məhz buna görə I Türkoloji Qurultayın irsi yalnız tarixi mahiyyət daşımır, bu irs, müasir türk inteqrasiyasının intellektual əsaslarından biri, "yumşaq güc" siyasətinin mühüm elementidir.

Müasir beynəlxalq münasibətlər sistemində elm, mədəniyyət, təhsil, tarix də dövlətlərin "yumşaq güc" potensialının mühüm tərkib hissəsinə çevrilib və dövlətlərin nüfuzunun möhkəmlənməsində iqtisadi və hərbi imkanlarla birgə iştirak edir. "Türk Dünyası Həftəsi" bu baxımdan da xüsusi əhəmiyyət daşıyır.

Bu platforma vasitəsilə ortaq mədəni yaddaş güclənir, türk dünyasının beynəlxalq imici formalaşır, yeni elmi əməkdaşlıqlar yaranır və gələcək nəsillər arasında qarşılıqlı bağlılıq artır. Belə tədbirlər regionun geosiyasi sabitliyinə, iqtisadi əməkdaşlığın genişlənməsinə və türk dövlətlərinin beynəlxalq nüfuzunun yüksəlməsinə də töhfə verir.

I Türkoloji Qurultay türk xalqlarının elmi inteqrasiyasının başlanğıcı olmuşdur. Bir əsr sonra keçirilən "Türk Dünyası Həftəsi" isə həmin ideyaların müasir şəraitdə davam etdirilməsinin göstəricisidir. Əgər 1926-cı il qurultayı ortaq düşüncənin təməlini qoymuşdusa, 2026-cı ildə keçirilən "Türk Dünyası Həftəsi" həmin təməl üzərində yeni əməkdaşlıq modelinin qurulduğunu nümayiş etdirir.

TDT-nin baş katibi Kubanıçbek Ömüralıyev "Türk Dünyası Həftəsi"nin açılış mərasimindəki çıxışında deyib: "I Türkoloji Qurultayın ideyaları bu gün də türk dünyasının inteqrasiyası və əməkdaşlığı üçün mühüm əhəmiyyət daşıyır". Baş katib qeyd edib ki, Qəbələ Sammitində qəbul olunan bəyannamələrdə və "Türk Dünyası - 2040" Vizyonunda əksini tapan hədəflər türk dövlətlərinin birliyinin və həmrəyliyinin möhkəmləndirilməsinə xidmət edir.

Mərasimdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın müraciəti səsləndirilib. Xüsusi vurğulanıb ki, qurultayın miras qoyduğu idealları yaşatmaq, gücləndirmək və gələcək nəsillərə ötürmək bütün türk dünyasının ortaq məsuliyyətidir. Onun sözlərinə görə, türk dünyasının birlik və həmrəyliyinin ən güclü müdafiəçilərindən olan Azərbaycan bu gün də türk dövlətlərinin ortaq məqsədlərinin həyata keçirilməsinə mühüm töhfə verir. Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin "Türk Dünyası Həftəsi"nin iştirakçılarına ünvanladığı müraciətdə isə vurğulanır: "Türk dünyası nümayəndələri ilə birlikdə bu forumun keçirilməsini türk xalqlarını birləşdirən ortaq dəyərlərə göstərilən yüksək ehtiramın təzahürü kimi qiymətləndiririk. Bu, türk xalqları arasında dostluq və birliyin daha da möhkəmləndirilməsi baxımından mühüm tarixi addım olacaq".

Qırğızıstan Prezidenti Sadır Japarovun, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin müraciətlərində də I Türkoloji Qurultayın əhəmiyyətli tarixi hadisə olduğu xüsusi qeyd olunur.

Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsi, Azərbaycan dövlətinin təşəbbüsü ilə keçirilən bu tədbir bir daha göstərir ki, ölkəmiz artıq yalnız türk dünyasının coğrafi mərkəzlərindən biri deyil, həm də onun intellektual, humanitar və strateji inkişaf istiqamətlərini müəyyənləşdirən aparıcı platformalardan biri statusunda çıxış edir. Məhz buna görə "Türk Dünyası Həftəsi"ni sadəcə yubiley tədbiri kimi yox, XXI əsrdə türk dünyasının yeni inteqrasiya mərhələsinin başlanğıcını simvolizə edən mühüm siyasi, elmi və mədəni hadisə kimi qiymətləndirmək daha doğru olardı.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

## Azərbaycanın türk dünyasının birliyi istiqamətində atdığı addımlar ortaq strateji məkanın formalaşmasına təkan verir



**"Türkmənistan Prezidentinin Azərbaycana səfəri türk dövlətləri arasında münasibətlərin inkişafında yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilə bilər. Bu səfər yalnız iki ölkə arasında siyasi dialoqun və iqtisadi əlaqələrin genişlənməsi baxımından deyil, eyni zamanda, türk dünyasının ortaq fəaliyyət modelinin daha da güclənməsi baxımından mühüm əhəmiyyət daşıyır".**

Bu fikirləri AZƏRTAC-a açıqlaması zamanı türkiyəli siyasi ekspert Cafer Dal bildirib.

Onun sözlərinə görə, son illər Azərbaycan türk dövlətləri arasında əməkdaşlığın dərinləşdirilməsi istiqamətində ardıcıl və sistemli siyasət həyata keçirərək regional inteqrasiyanın aparıcı təşəbbüskarlarından birinə çevrilib.

"Azərbaycanın yanaşması ortaq tarixi və mədəni bağların qorunması ilə yanaşı, bu potensialın iqtisadi, siyasi, humanitar və geostrateji əməkdaşlıq modelinə çevrilməsini hədəfləyir. Türk dünyasında inteqrasiya prosesi artıq əvvəlki dövrlərlə müqayisədə daha praktik məzmun qazanır və burada Azərbaycan xüsusi rol oynayır. Azərbaycanın təşəbbüsləri göstərir ki, türk dövlətləri arasında əməkdaşlıq yalnız simvolik birlik anlayışı ilə məhdudlaşmamalıdır. Bu əməkdaşlıq konkret layihələr, qarşılıqlı sərmayə, nəqliyyat marşrutları, enerji təhlükəsizliyi və ortaq iqtisadi maraqlar üzərində qurulduqda daha dayanıqlı olur. Türkmənistan Prezidentinin Azərbaycana səfəri Xəzər regionunda əməkdaşlığın genişləndirilməsi üçün yeni imkanlar yaradır. Xəzər hövzəsi türk dövlətlərinin iqtisadi və nəqliyyat əlaqələrinin inkişafında mühüm geostrateji əhəmiyyət daşıyır və bu istiqamətdə Azərbaycanla Türkmənistan arasında koordinasiyanın güclənməsi daha geniş regional nəticələr verə bilər. Türk birliyinin gələcək inkişafında nəqliyyat və logistika imkanları xüsusi rol oynayır. Şərqlə Qərbi birləşdirən marşrutların genişlənməsi, yükdaşıma potensialının artırılması və ticarət əlaqələrinin sadələşdirilməsi türk dövlətlərinin qlobal iqtisadi sistemdə mövqeyini gücləndirə bilər. Azərbaycanın bu istiqamətdə həyata keçirdiyi siyasət təkcə milli maraqlara deyil, bütövlükdə türk dövlətləri arasında qarşılıqlı faydalı əməkdaşlıq modelinin formalaşdırılmasına yönəlib", - Cafer Dal vurğulayıb.

Ekspert hesab edir ki, türk dünyasının gələcək inkişafı üçün iqtisadi əlaqələrlə yanaşı, humanitar və sosial əməkdaşlığın genişləndirilməsi də vacibdir: "Xüsusilə təhsil proqramları, universitetlərarası əməkdaşlıq, tələbə mübadiləsi, ortaq elmi platformalar və gənclər siyasəti uzunmüddətli inteqrasiyanın əsas elementləri hesab olunur. Gənc nəsillər arasında qarşılıqlı əlaqələrin gücləndirilməsi türk dünyasının gələcəyinə yatırılan ən mühüm sərmayələrdən biridir. Ortaq düşüncə mühiti formalaşdıqca iqtisadi və siyasi əməkdaşlıq da daha dayanıqlı xarakter alacaq. Mədəni diplomatiya və informasiya məkanında əməkdaşlığın gücləndirilməsi də mühüm istiqamətlərdən biridir. Ortaq media layihələri, mədəni tədbirlər, kino və yaradıcı sənayelər sahəsində əlaqələr türk dövlətləri arasında qarşılıqlı anlaşmanı daha da dərinləşdirə bilər. Azərbaycanın son illərdə həyata keçirdiyi siyasət türk dövlətlərinin beynəlxalq platformalarda daha koordinasiyalı çıxış etməsinə də şərait yaradır. Bu yanaşma regional sabitlik, iqtisadi inkişaf və beynəlxalq əməkdaşlıq imkanlarının genişlənməsi baxımından mühüm nəticələr doğura bilər".

Cafer Dal bildirib ki, Türkmənistan Prezidentinin Azərbaycana səfəri türk dövlətləri arasında əməkdaşlığın yeni mərhələyə daxil olduğunu göstərən mühüm siyasi hadisədir və bu proses gələcəkdə daha geniş ortaq layihələrin həyata keçirilməsinə zəmin yarada bilər. Ekspert vurğulayıb ki, türk dünyasının gücü yalnız ortaq tarixdən deyil, bu tarixi gələcəyə daşıyan siyasi iradə, iqtisadi əməkdaşlıq və ortaq fəaliyyət mədəniyyətindən formalaşır, Azərbaycanın bu istiqamətdə ortaya qoyduğu təşəbbüslər isə türk dövlətləri arasında həmrəyliyin daha da möhkəmlənməsinə xidmət edir.

## "Qafqaz Qartalı 2026" üç dost ölkənin dünyaya verdiyi həmrəylik mesajıdır

**"Hərbi təlimlər dostlara etimad, potensial rəqiblərə isə çəkindirici mesaj vermək məqsədi daşıyan fəaliyyətlərdir. Azərbaycan, Gürcüstan və Türkiyənin birlikdə keçirdiyi "Qafqaz Qartalı 2026" üçtərəfli təlimi də regionda təhlükəsizlik əməkdaşlığını nümayiş etdirən mühüm bir tədbir oldu. Bu təlim üç ölkənin qarşılıqlı etimadının, hərbi əməkdaşlığının yüksək səviyyəyə çatdığının və regional təhlükəsizliyə birgə töhfə vermək iradəsinin göstəricisidir".**

Bu sözləri AZƏRTAC-a açıqlamasında türk jurnalist Zəki Gümüş söyləyib.

O bildirib ki, əslində, bütün birgə hərbi təlimlərin əsas məqsədi iştirakçı ölkələrin koordinasiyasını gücləndirmək, hərbi hazırlıq səviyyəsini artırmaq və mümkün ssenarilər üzrə birgə fəaliyyət bacarıqlarını inkişaf etdirməkdir. NATO təlimlərində olduğu kimi, bu cür fəaliyyətlər də tərəfdaş ölkələrin hərbçilərinin bir-birini daha yaxşı tanıması baxımından böyük əhəmiyyət daşıyır.

"Bu təlimdə ən vacib məqam üç dost ölkənin dünyaya verdiyi birlik və həmrəylik mesajıdır. Bu mesajın hərbi müstəvidə verilməsi xüsusi əhəmiyyət kəsb edir. Burada söhbət ölkələrin bir-birinə dəstək göstərməsindən, hərbi sahədə təcrübə mübadiləsi aparmasından, komandanlıq səviyyəsində əməkdaşlığın inkişaf etdirilməsindən və birgə fəaliyyət imkanlarının artırılmasından gedir.

Belə təlimlərin mütəmadi davam etdirilməsi regionun təhlükəsizliyi və hərbi hazırlıq səviyyəsinin qorunması baxımından böyük əhəmiyyət daşıyır. Təlimlər zamanı iştirakçı ölkələr birgə əməliyyat qabiliyyətlərini yoxlayır, mövcud çatışmazlıqları müəyyən edir, yeni taktika və texnologiyaları sınaqdan çıxarır, eləcə də qarşılıqlı koordinasiyanı daha da təkmilləşdirirlər. Eyni zamanda bu cür təlimlər real hərbi vəziyyət yaranacağı təqdirdə birgə fəaliyyətin necə həyata keçiriləcəyinin praktik məşqi hesab olunur. Bu baxımdan, həm şəxsi heyətin sahə hazırlığı artır, həm də beynəlxalq hərbi əməkdaşlıq və regional sabitlik möhkəmlənir", - deyə Z.Gümüş vurğulayıb.

Türk jurnalist əlavə edib ki, Azərbaycan və Türkiyə arasında hərbi, siyasi və iqtisadi əməkdaşlığın yüksək səviyyədə olduğu məlumdur. Gürcüstanın da bu əməkdaşlıq formatında iştirak etməsi regionda sabitlik və təhlükəsizlik baxımından mühüm əhəmiyyət daşıyır. Bu baxımdan da "Qafqaz Qartalı 2026" regionda təhlükəsizlik əməkdaşlığını gücləndirən uğurlu və əhəmiyyətli hərbi təlim oldu. Formatın gələcək illərdə də davam etdirilməsi həm üç ölkə arasındakı strateji tərəfdaşlığın möhkəmlənməsinə, həm də regional təhlükəsizliyin gücləndirilməsinə mühüm töhfə verəcək.

# İrəvanda vəzifə manipulyasiyaları

## "İdarəetmə oyunları Ermənistanda dayanıqlı dövlətçilik institutlarının olmadığını göstərir"

**Ermənistanın Baş naziri Nikol Paşinyanın həm hökumət daxilində kadr islahatları, həm də ölkənin hərbi-siyasi, konstitusional xəttində etməyə çalışdığı dəyişikliklər Ermənistanın daxili siyasi gələcəyini formalaşdırır. Paşinyan siyasi ritorikasını tarixi iddialar və xəyali sərhədlər üzərində deyil, beynəlxalq səviyyədə tanınmış mövcud sərhədlər daxilindəki dövlət ideologiyası üzərində qurur.**

**Milli Məclisin deputatı Kamran BAYRAMOV** qəzetimizə açıqlamasında bildirib ki, Paşinyan hökumətinin ən böyük vəzifələrindən biri ölkənin Müstəqillik Bəyannaməsinə və dolayısıyla Azərbaycan ilə Türkiyəyə qarşı ərazi iddialarının yer aldığı mövcud konstitusiyanı dəyişməkdir. "Bu, Bakı ilə yekun sülh müqaviləsinin imzalanması üçün əsas şərtlərdən biridir. Lakin parlamentdə konstitusiyanı dəyişmək üçün zəruri olan üçdəiki səs çoxluğunun olmaması bu islahatın reallaşmasını çətinləşdirir. Paşinyan artıq parlamenti tam manipulyasiya edə bilmir və alternativ hüquqi yollar axtarmaq məcburiyyətindədir. Ermənistanın Baş naziri ölkə mətbuatında və siyasi kuluarlarda geniş müzakirə olunan kadr islahatları ilə bağlı iddialara aydınlıq gətirərək, hökumətin tərkibində yaxın gələcəkdə hər hansı bir genişmiqyaslı dəyişikliyin nəzərdə tutulmadığını rəsmən bəyan edib. Nazirlər Kabinetinin növbəti iclasından sonra jurnalistlərin mövzu ilə bağlı suallarını cavablandıran Baş nazir hazırkı komandanın işindən məmnunluğunu ifadə edərək bildirib ki, hökumət üzvlərinin fəaliyyətindən ümumilikdə razıdır və hazırda nazirlər və ya Baş nazirin müavinləri səviyyəsində yüksəkstatuslu kadr dəyişiklikləri planlaşdırmır. Bununla belə, Paşinyan hökumət daxilindəki struktur vəzifələrə yanaşmanı dəyişmək niyyətində olduğunu və bu istiqamətdə beynəlxalq təhsil standartlarına xüsusi önəm veriləcəyini vurğulayıb. O, dünyanın ən nüfuzlu ilk 200 universitetinin məzunlarını ölkənin dövlət kadr bankına daxil olmağa və hökumətin idarəetmə sistemində iştirak etməyə dəvət etdiklərini bir daha xatırladıb. Baş nazirin sözlərinə görə, icra hakimiyyəti strukturlarında kadr potensialının gücləndirilməsi və intellektual gənclərin proseslərə cəlb olunması prioritet məsələdir. Paşinyan Ermənistanda dövlət aparatında fəaliyyət göstərməyin getdikcə həm status, həm də şərait baxımından daha cəlbedici və prestijli bir sahəyə çevriləcəyini iddia edib. Göründüyü kimi, Nikol Paşinyanın xarici universitet məzunlarını dövlət aparatına cəlb etmək cəhdləri reallıqda ölkədəki dərin kadr böhranının və böhranın aradan qaldırmaq cəhdlərinin bariz göstəricisidir", - deyə deputat əlavə edib.



K.Bayramov həmçinin diqqətə çatdırıb ki, Ermənistan mətbuatında parlament sədri Alen Simonyanın prezident postuna gətirilməsi, hazırkı dövlət başçısı Vaaqn Xaçaturyanın isə passiv statuslu baş nazirin müşaviri vəzifəsinə keçirilməsi barədə yayılan xəbərlər İrəvan kuluarlarında növbəti daxili qruplaşma və sığorta axtarışından xəbər verir: "Xaçaturyanın səhhətindəki problemlər fonunda gündəmə gələn bu plan həm hakim komandanın daxilindəki əsas fiqurlar, həm də Ermənistanı öz geosiyasi alətinə çevirmək istəyən Qərb dairələri ilə razılaşdırılıb. Sözügedən idarəetmə oyunları Ermənistanda dayanıqlı dövlətçilik institutlarının olmadığını təsdiqləyir. Ermənistan konstitusiyasına görə, prezident postu simvolik xarakter daşısa da, hazırkı mürəkkəb regional və daxili siyasi şəraitdə Paşinyanın özünə ən sadiq və fors-major hallarda onu əvəzləyə biləcək Alen Simonyan kimi aktiv bir fiquru bu posta gətirmək istəməsi təsadüfi deyil. Bu, hər şeydən əvvəl Paşinyan rejiminin gələcəkdə qarşılaşa biləcəyi siyasi böhranlar zamanı hakimiyyət rıçaqlarını tam nəzarətdə saxlamaq və özünü sığortalamaq cəhdidir".

Deputat vurğulayıb ki, Azərbaycanın maraqları baxımından Ermənistanda hansı simanın hansı postu tutması deyil, İrəvanın beynəlxalq öhdəliklərinə, sülh prosesinə və regional təhlükəsizliyə nə dərəcədə sadiq qalacağı önəmlidir: "Paşinyan rejimi daxili kadr oyunlarını kənara qoyub, regionda dayanıqlı sülhün təmin olunması üçün real addımlar atmalıdır. Baş nazir Nikol Paşinyanın bir tərəfdən, hökumətdə sabitliyi qorumağa çalışması, digər tərəfdən isə, özünə ən sadiq fiqurları strateji nöqtələrə yerləşdirmək istəyi real islahatlara deyil, şəxsi hakimiyyətin sığortalanmasına xidmət edir. Azərbaycanın milli maraqları və regionun gələcəyi baxımından isə Ermənistan idarəçiliyində hansı fiqurların yer alması mahiyyəti dəyişmir. Regionda dayanıqlı sülhün və təhlükəsizliyin bərqərar olması İrəvanın daxili vəzifə manipulyasiyalarından və populist bəyanatlarından deyil, rəsmi Bakının irəli sürdüyü ədalətli beynəlxalq şərtlərə və sülh öhdəliklərinə real əməl etməsindən asılıdır".

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

# "AŞPA qərəzli siyasəti ilə özünə zərbə vurur"

**"Avropa Şurası Parlament Assambleyası (AŞPA) kimi qurumların qəbul etdiyi qətnamələrin bizim üçün əhəmiyyəti yoxdur. Bu baxımdan 24 iyun tarixində qəbul edilən növbəti sənədin də indiyə qədərkilərdən heç bir fərqi yoxdur. Heç kim bizimlə diktə dilində danışa bilməz".**



Bunu qəzetimizə açıqlamasında **Milli Məclisin deputatı Pərvanə VƏLİYEVA** deyib. Əlavə edib ki, özünü "demokratik təsisat" hesab edən AŞPA Avropa Şurasının daxili prosedurlarını kobud şəkildə pozaraq, birtərəfli qaydada Azərbaycandan olan parlamentarilərin etimadnaməsinin tanınmasının əleyhinə səs vermişdi: "Lehinə səs verən deputatlar və qurum bununla ölkəmizə qarşı riyakarlıq və siyasi ikiüzlülük göstərdi. Bu gün regionda sülhə, sabitliyə və rifaha nail olunması əsas siyasi prioritetdir. Sülhün təşəbbüskarı və memarı isə Azərbaycandır. Azərbaycan və Ermənistan arasında artıq paraflanmış sülh sazişinə və de-fakto sülhə nail olunub. Ölkələr bir-birinin ərazi bütövlüyünü və suverenliyini tanıyır. Ermənistanın rəsmi mövqeyi isə açıq-aşkardır. Rəsmi İrəvan Qarabağın legitim sahibinin Azərbaycan olduğunu və mövzunun bağlandığını bildirir. Son seçkilərdə də erməni xalqı sülh prosesinin davamına səs verdi. Belə vəziyyətdə AŞPA qərəzli siyasəti ilə özünə zərbə vurur", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, erməni diasporunun maliyyəsi ilə AŞPA və Avropa Parlamentində guya erməni xalqının mənafeyindən çıxış edən şəxslər bölgədə yaranan reallıqları görməzdən gəlirlər: "Onlar keçmiş narrativlərlə çıxış edərək, regionu əvvəlki vəziyyətə - münaqişə ocağına çevirməyə çalışırlar. Çünki bu region uzun zaman onlar üçün əlavə gəlir yeri olub".

Avropada insanların irqçilik, ksenofobiya, islamofobiya ilə rastlaşdıqlarını bildirən P.Vəliyeva vurğulayıb ki, Avropa parlamentlərinin deputatları, rəsmi şəxslər öz ölkələrində ayrı-seçkilik olduğunu təsdiq edirlər: "Bəziləri islama qarşı mənfi münasibəti yolverilən hesab edirlər. Əslində, dini dözümsüzlük də diskriminasiyanın bir növüdür və bu, insan hüquqlarının pozulması deməkdir. Eyni zamanda tolerantlığa, BMT-nin İnsan Hüquqları üzrə Bəyannaməsinə də ziddir. AŞPA-lı deputatlar Azərbaycanın sülh təşəbbüslərinə ədalətsiz mövqe nümayiş etdirməkdənsə, fundamental insan hüquq və azadlıqlarının pozulmasının qarşısını almaq üçün müvafiq qanunvericilik təşəbbüsləri və effektiv nəzarət mexanizmləri hazırlamalıdırlar".

AŞPA-nın dövlətlərin daxili işlərinə, o cümlədən məhkəmə proseslərinə müdaxilə etdiyini deyən deputat əlavə edib ki, hər bir ölkənin öz hüquq sistemi, hüquqi ənənələri və konstitusiyası mövcuddur. "Odur ki, bu cür lobbiçilik fəaliyyəti nə Avropanın təhlükəsizliyinə, nə regional sabitliyə, nə də beynəlxalq hüququn aliliyinə töhfə verir. Əksinə, ikili standartları dərinləşdirərək qlobal etimadı sarsıdır", - deyə yekunda deputat bildirib.

*Ə.QARDAŞXANOVA, "Azərbaycan"*

# Yaxın Şərqdə sülhün taleyi hələ də aydın deyil

**Son günlər Yaxın Şərqdə hərbi qarşıdurma yenidən alovlanıb. Lakin İran və ABŞ Körfəzdəki son hərbi qarşıdurmanı dayandırmaq və Hörmüz boğazı ətrafındakı mübahisə ilə bağlı danışıqları yenidən başlatmaq barədə razılığa gəliblər.**

Bu addım qarşılıqlı zərbələrdən sonra gərginləşən müvəqqəti sülh sazişinin qorunması üçün ümidləri artırıb. Tərəflər hələlik geri çəkiləcək və gəmilərin sərbəst hərəkəti təmin olunacaq. "Axios" nəşri tərəfindən yayılan məlumata görə, dayandırılan diplomatik danışıqların bu gün Qətərdə yenidən bərpa olunacağı gözlənilir.

Xatırladaq ki, iyunun 17-də tərəflər arasında Hörmüz boğazının tranzit üçün yenidən açılmasını nəzərdə tutan 14 bəndlik müvəqqəti Anlaşma Memorandumu imzalanmışdı. Lakin ötən cümə axşamı boğazda bir yük gəmisinin vurulmasından sonra tərəflər bir-birini atəşkəsi pozmaqda ittiham edib. Yeri gəlmişkən qeyd edək ki, Yaxın Şərqdə fevralın 28-də başlanan hərbi əməliyyatları dayandırmaq məqsədilə imzalanan 14 bəndlik müvəqqəti saziş çərçivəsində bu yaxınlarda İsveçrədə ABŞ vitse-prezidenti Cey. Di. Vens və İran parlamentinin Sədri Məhəmməd Baqir Qalibaf arasında danışıqlar aparılmış, Vaşinqton Tehrana qarşı bəzi sanksiyaları dondurmuşdu. İndi tərəflərin Qətərdə yenidən masaya oturması gərginliyi azaltmaq üçün son şansdır. Təəssüf ki, real vəziyyət prosesin heç də rəvan getmədiyini göstərir. Vaşinqton və Tehran xəttindəki yaranan etibarsızlıq mühiti hələ də aradan qaldırılmayıb. Qlobal enerji təhlükəsizliyi baxımından strateji əhəmiyyət kəsb edən Hörmüz boğazı həmin gərginliyin mərkəzində yer alır. Beynəlxalq ticarət yollarının təhlükəsizliyi bu regiondakı sabitlikdən birbaşa asılıdır. Son dövrlər boğaz ətrafında hərbi fəallığın artması qlobal neft bazarlarına və iqtisadiyyata mənfi təsir göstərir.

Həqiqətən də bu ayın ortalarında tərəflər arasında müəyyən bir yumşalma müşahidə olunurdu. İyunun 14-də əldə olunmuş ilkin razılaşma gərginliyin azalacağına dair ümidləri artırmışdı. Bu razılaşmanın ardınca iyunun 21-də İsveçrədə yüksəksəviyyəli diplomatik görüş keçirilmişdi. Həmin vaxt ekspertlər prosesin müsbət məcrada davam edəcəyini proqnozlaşdırırdılar. Hətta növbəti mərhələdə İranın nüvə proqramı ilə bağlı texniki məsələlərin müzakirəsi planlaşdırılırdı. Avropa ölkələri də bu dialoqun uğurla nəticələnməsində maraqlı tərəf kimi çıxış edirdi.



Ancaq hadisələrin gedişi diplomatik masadakı razılaşmalarla üst-üstə düşmür. Son günlər Hörmüz boğazı regionunda silahların işə düşməsi diplomatik səylərə zərbə vurur. Bu isə tərəflərin bir-birinə qarşı etimadını sarsıldır və ilkin razılaşmalar əhəmiyyətini itirir.

Yaxın Şərqdə davamlı sülhün bərqərar olması tərəflərin qarşılıqlı güzəştlərə getməsini tələb edir. Təkcə hərbi güc nümayiş etdirməklə regionda sabitliyə nail olmaq mümkün deyil. Beynəlxalq vasitəçilərin də səylərinə bel bağlamaq olmaz. Qətər və İsveçrə kimi ölkələrin dialoq platforması yaratmaq cəhdlərinin hərbi eskalasiyanın kölgəsində qalması bunu bir daha təsdiqləyir. Hazırkı mənzərə isə regionun gələcəyi ilə bağlı nikbin proqnozlar verməyə əsas yaratmır. Tərəflər siyasi iradə nümayiş etdirməyəcəkləri halda Hörmüz boğazındakı gərginlik qlobal xarakter ala bilər.

Bu prosesdə həm Vaşinqton, həm də Tehran öz daxili auditoriyasının təzyiqlərini də nəzərə alır. Hər iki ölkədə mövcud olan siyasi dairələr qarşı tərəfə güzəştə gedilməsini zəiflik kimi qiymətləndirir. Bu faktor tərəfləri daha radikal addımları atmağa sövq edir. Nəticədə real diplomatik həll yolları arxa plana keçir və hərbi ritorika önə çıxır. Beynəlxalq birlik isə tərəfləri təmkinli olmağa çağırmaqdan uzağa gedə bilmir.

Yaxın Şərq bu gün özünün ən həssas dövrlərindən birini yaşayır. Kövrək sülhün hər an yenidən müharibəyə çevrilmək ehtimalı qalır. Göründüyü kimi, Yaxın Şərqdə sülhün taleyi hələ də aydın deyil. Regionda sabitliyin açarı isə dialoqdadır. Əks halda Hörmüz boğazında dayanan hər bir gəmi, atılan hər bir hərbi addım regionu daha böyük təhlükəyə sürükləyə bilər. Hadisələrin növbəti mərhələdə hansı ssenari üzrə inkişaf edəcəyini isə yaxın günlərdə atılacaq siyasi addımlar müəyyən edəcək.

*Təhminə VERDİYEVA, "Azərbaycan"*

# Azərbaycan ictimaiyyəti müharibə cinayətkarlarının müdafiəsi ilə bağlı süni kampaniyanı rədd edib

**Bəzi Qərb ölkələrində ermənipərəst təşkilatlar tərəfindən müharibə cinayətkarı Ruben Vardanyan da daxil olmaqla, Azərbaycanda məhkum edilmiş bir sıra müharibə cinayətkarlarının "qurban" kimi qələmə verilməsi ilə bağlı aparılan kampaniyalara qarşı Azərbaycanın ictimaiyyət nümayəndələri sərt mövqe nümayiş etdirib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan QHT-lərinin, şəhid ailələrinin, itkin düşmüş şəxslərin yaxınlarının, mina terroru qurbanlarının, keçmiş məcburi köçkünlərin yaydıqları Açıq Məktubda Ruben Vardanyanın və digərlərinin törətdikləri ağır cinayətlərə, separatizmi və terrorizmi maliyyələşdirməsinə görə məhkum edildikləri bildirilib. Qeyd olunub ki, onların adı ilə süni şəkildə qurulan kampaniyalar bu cinayətlərin real qurbanlarının - onilliklər boyu münaqişə, işğal, etnik təmizləmə, terror və mina təhlükəsindən birbaşa zərər çəkmiş minlərlə azərbaycanlının haqlı səsini boğmaq və kölgədə qoymaq məqsədi daşıyır.

Sənəddə vurğulanır ki, Azərbaycan vətəndaş cəmiyyəti uzun illərdir beynəlxalq strukturlara müraciətlər ünvanlayaraq müharibə cinayətləri qurbanlarının hüquqlarının müdafiəsini, tarixi ədalətin bərqərar olunmasını və beynəlxalq məsuliyyət prinsiplərinin qorunmasını tələb edir. Bu kontekstdə ABŞ Prezidenti Donald Trampa ünvanlanmış Açıq Məktub (https://en.apa.az/foreign-policy/azerbaijani-ngos-address-open-letter-to-us-president-donald-trump-487462), ABŞ Konqresində irəli sürülmüş birtərəfli təşəbbüslərlə bağlı kəskin etiraz müraciətləri (https://azertag.az/en/xeber/4264859), həmçinin Lemkin İnstitutu (https://report.az/en/foreign-politics/azerbaijani-ngos-call-on-us-based-lemkin-institute-to-apologize), Böyük Britaniya parlamentinin üzvləri (https://www.azernews.az/nation/254843.html) və digər beynəlxalq təsisatlara göndərilən bəyanatlar xatırladılır. Müraciət müəllifləri xüsusi olaraq bəyan edirlər ki, Azərbaycanın öz suveren ərazilərində törədilmiş ağır cinayətləri araşdırmaq, qanunun aliliyini təmin etmək və təqsirkar şəxsləri məhkəmə qarşısına çıxarmaq hüququ və öhdəliyi həm daxili qanunvericilikdən, həm də fundamental beynəlxalq hüquq normalarından irəli gəlir və bu suveren hüquqa kənar müdaxilə yolverilməzdir.

Sənəddə onilliklər ərzində itkin düşmüş şəxslərin ailələrinin beynəlxalq birliyə etdiyi çoxsaylı çağırışların cavabsız qaldığı, Ermənistanın hərbi təcavüzü nəticəsində itkin düşmüş 4 mindən çox azərbaycanlının taleyinin bu gün də naməlum saxlanıldığı və 3400-dən çox mina qurbanının humanitar faciəsinin qlobal kampaniyalarda qərəzli şəkildə diqqətdən kənarda saxlanıldığı faktlarla ifşa olunur. Xüsusilə itkin düşmüş oğlu ilə bağlı xəbər belə ala bilmədən, ömür boyu dərin daxili əzablar içində yaşayaraq ötən il vəfat edən Elmira Dadaşovanın acı taleyi beynəlxalq ictimaiyyətin nümayiş etdirdiyi ikili standartlardan və vurulmuş mənəvi zərər nümunələrindən biri kimi göstərilir.

Məktubda bildirilir ki, 2025-ci ilin avqustunda Vaşinqtonda "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsinə dair Saziş" layihəsinin paraflanması regionda fundamental və yeni inkişaf mərhələsinin əsasını qoyub. Bununla yanaşı, qətiyyətlə vurğulanır ki, Cənubi Qafqazda davamlı sülh yalnız keçmişdə törədilmiş ağır müharibə cinayətlərinə dürüst hüquqi qiymət verilməsi, cinayətkarların qanun qarşısında məsuliyyətə cəlb edilməsi və qurbanların tapdanmış hüquqlarının tam bərpası əsasında mümkündür.

Açıq Məktubun tam mətni ilə bu linkdən tanış olmaq mümkündür. https://azertag.az/en/xeber/an_open_letter_by_families_of_missing_persons_relatives_of_martyrs_mine_victims_and_former_internally_displaced_persons_of_azerbaijan-4290239

# Fransanın beynəlxalq iflası

## Müstəmləkəçi təfəkkür, irqi ayrı-seçkilik və qərəzli yanaşma bu ölkəni dünyanın geosiyasi səhnəsindən uzaqlaşdırır



**Fransa həm daxili böhranlar, həm də xarici siyasətdəki ardıcıl uğursuzluqlar ucbatından çöküş dövrünü yaşayır. Bir vaxtlar beynəlxalq münasibətlər sistemində əsas güc mərkəzlərindən hesab edilən bu ölkə artıq qlobal proseslərin axarına təsir etmək imkanlarından məhrum olur.**

Keçmiş Prezident Fransua Ollandın dövründə təməli qoyulan tənəzzül mərhələsi Emmanuel Makron iqtidarında pik həddə çatıb. Yelisey sarayının illər boyu qurduğu təsir alətləri, diplomatik manevrlər və "yumşaq güc" siyasəti dünya ictimaiyyətinin gözünün önündə iflas etməkdədir. Bu uğursuzluq Parisin beynəlxalq arenadakı çəkisini azaltmaqla bərabər, həm də onun qlobal güc statusunu ciddi şübhə altına qoyur.

Fransanın əsrlər boyu müstəmləkə altında saxladığı, sərvətlərini taladığı Afrika qitəsi də Parisin diktəsini, birtərəfli siyasi və iqtisadi təzyiqlərini qəbul etmir. Region dövlətləri öz milli maraqlarını ön plana çəkərək, Parisin asılılıq zəncirini qırmağa başlayıblar. Xüsusilə Makron iqtidarının qitə xalqlarına qarşı yürütdüyü təzyiq siyasəti, onlara yuxarıdan baxması və yerli xalqları hələ "müstəmləkə qulları" kimi görməsi regionda kəskin anti-Fransa dalğasının yaranmasına səbəb olub. Uzun illər qanlı şəkildə basdırılan etirazlar imperiya ambisiyalarına qarşı daha güclü müqavimət hərəkatına çevrilərək Fransanı qitədən sürətlə sıxışdırıb çıxarmaqdadır.

Bunun son nümunəsi Burkina-Faso tərəfindən gəlib. Burkina-Faso hökuməti iyunun 26-da rəsmi Parisin yeni müstəmləkəçi meyillərinə, daxili işlərə qarışmasına cavab olaraq Fransa ilə diplomatik münasibətləri tamamilə kəsdiyini elan edib. Hökumətin yaydığı kommünikedə qeyd edilib ki, tərəflər arasında qarşılıqlı hörmət, etimad, daxili işlərə qarışmamaq və dövlət suverenliyinə hörmət prinsiplərinə əsaslanan münasibətlərin inkişafı üçün zəruri şərtlər artıq mövcud deyil. Fransanın həyata keçirdiyi siyasətin ölkənin maraqlarına zidd olduğunu bəyan edən Burkina-Faso hökuməti Parisin neokolonial meyillər nümayiş etdirdiyini, Sahel regionunda fəaliyyət göstərən təxribatçı və terrorçu şəbəkələri dəstəklədiyini vurğulayıb. Bundan əlavə, Fransa mediasının və rəsmilərinin Burkina-Faso ilə bağlı məlumatları qərəzli şəkildə təqdim etdiyi qeyd olunub.

Burkina-Faso bu yolda tək deyil. Qərbi Afrikada yerləşən Mali də Parisin "terrorla mübarizə" adı altında keçirdiyi "Barxan" əməliyyatının uğursuzluğundan sonra fransız hərbçilərini ölkədən çıxarıb. Strategiya və uran resursları baxımından Fransanın ən mühüm qalalarından hesab olunan Mali ölkə ərazisində Parisin hərbi və siyasi varlığına son qoyub. Bunlardan əlavə, Mərkəzi Afrika Respublikası da Fransanın regional asılılıq zəncirini qıraraq digər qlobal tərəfdaşlarla əməkdaşlığa üstünlük verib. Ümumiyyətlə, Fransanın təsir dairəsində olan bir çox ölkədə Fransa əleyhinə ovqat və Parisin hərbi bazalarından xilas olmaq tələbləri güclənib.

Özü də Fransanın təsir dairəsini itirməsi təkcə Afrika ilə məhdudlaşmır. Bu ölkə Asiya və Yaxın Şərqdən də sürətlə sıxışdırılıb çıxarılır. Ərəb ölkələrinin əksəriyyəti uzun müddətdir ki, xarici tərəfdaşlıqda üstünlüyü ABŞ, Böyük Britaniya, Çin və Türkiyəyə verirlər. Fransanın Livanda nümayiş etdirdiyi uğursuz "xilaskar" rolu və daxili siyasi böhranları manipulyasiya etmək cəhdləri ərəb dünyasında onun etibarsız tərəfdaş statusunu möhkəmləndirib.

Eyni mənzərəyə Cənub-Şərqi Asiyada da rast gəlmək olar. Vyetnam, Kamboca və Laos kimi keçmiş fransız müstəmləkələri artıq Parisin geosiyasi ambisiyalarından beziblər. Bu dövlətlər iqtisadi və hərbi təhlükəsizlik tərəfdaşı olaraq ABŞ, Çin, Avstraliya və Yaponiya ilə birbaşa dialoqa üstünlük verirlər.

Afrika və Asiyada böyük geosiyasi məğlubiyyətlərə uğrayan Emmanuel Makron hökuməti son dönəmlərdə itkilərin yerini Cənubi Qafqaza soxulmaqla doldurmağa çalışır. Lakin Parisin bölgəyə yanaşmasındakı ənənəvi qərəz onun burada mövqe qazanmaq şansını sıfıra endirir. Fransa 30 il boyu işğalçı Ermənistanı müdafiə edib. Bu gün də rəsmi Paris Ermənistandan təsir vasitəsi, geosiyasi alət kimi istifadə etməyə çalışır. Lakin regional və qlobal gücə çevrilən, qüdrətli ordusu, dayanıqlı iqtisadiyyatı və daxili birliyi olan Azərbaycan qarşısında Makron hökumətinin ambisiyaları uğursuzluğa məhkumdur. Zaman-zaman Fransanın təhriki ilə beynəlxalq platformalarda Azərbaycana qarşı atılan qeyri-konstruktiv addımlar isə yalnız Avropa təsisatlarının və Fransanın öz imicinə ağır zərbə vurur.

Fransanın xarici siyasətdəki riyakarlığı onun daxili idarəçiliyindəki eybəcərliklərin birbaşa təzahürüdür. Beynəlxalq arenada başqa ölkələrə "demokratiya və insan hüquqları" dərsi keçməyə çalışan Yelisey sarayı öz daxilində dərin sosial-iqtisadi və irqi böhranı görməzdən gəlir. Fransada insanlar hələ də dərilərinin rənginə, etnik mənşəyinə və inanclarına görə diskriminasiyaya məruz qalırlar. Bu isə vaxtaşırı küçə iğtişaşlarına və daxili sabitliyin pozulmasına gətirib çıxarır.

Fransanın xarici tərəfdaşlıqları və iqtisadi əməkdaşlığı öz siyasi ambisiyalarına qurban verməsi ölkə iqtisadiyyatını çıxılmaz duruma salıb. Sürətli iqtisadi və sosial geriləmə yaxın gələcəkdə Fransanın "Böyük Yeddilik" (G7) ölkələri sırasındakı yerinin də ciddi şəkildə laxlayacağını proqnozlaşdırmağa əsas verir.

Dünya dəyişir, lakin Fransa öz köhnəlmiş, müstəmləkəçi təfəkkürünü dəyişə bilmir. Digər dövlətləri bərabərhüquqlu tərəfdaş yox, tabeliyində olan asılı dövlət kimi görmək xəstəliyi Parisin olan-qalan nüfuzunu tamamilə itirməsi, qlobal geosiyasi səhnədən birdəfəlik silinməsi prosesini sürətləndirməyə xidmət edir. Nəticə etibarilə hazırda beynəlxalq ictimaiyyət vaxtilə özünü "demokratiya mərkəzi" elan etmiş Fransanın daxildə və xaricdə tarixi iflasına şahidlik edir.

*İsmayıl QOCAYEV, "Azərbaycan"*

# Süni intellekt və rəqəmsal texnologiyalar "orta güc" konsepsiyasının mühüm faktoru kimi

**Azərbaycan Prezidenti İlham Əliyev Türk Dövlətləri Təşkilatının (TDT) Qazaxıstanın Türküstan şəhərində keçirilən qeyri-rəsmi Zirvə görüşündə dövrün çağırışları və prioritetlərindən biri kimi rəqəmsal inkişaf və süni intellektin yaratdığı yeni imkanları xüsusi vurğulamışdır. Dövlət başçısı bu faktoru dünyanın "yeni inkişaf mərhələsinə qədəm qoyması" kontekstində təqdim etmiş, həmin əsasda "Türk dövlətləri bu prosesdə ön sıralarda yer almalıdır" tezisini irəli sürmüşdür.**

Dövlət başçısının yeni texnologiyaların tətbiqi və onun təsir səviyyəsi ilə əlaqədar ifadə etdiyi bu qənaət fundamental mahiyyət daşıyır. Bu, fəlsəfi, geosiyasi, iqtisadi, texnoloji və politoloji tədqiqatlarda özünü göstərir. Biz irəlidə yeni informasiya və elektron texnologiyaların siyasi-nəzəri və geosiyasi tədqiqi ilə bağlı bir sıra qənaətlərə müraciət edəcəyik. Hələlik isə Prezidentin gəldiyi həmin fundamental qənaətin fonunda Azərbaycan və türk dünyası ilə bağlı məqamları nəzərdən keçirək.

## Azərbaycanın rəqəmsal suverenliyi və süni intellekt strategiyası

Prezident İlham Əliyev Türküstan Zirvə görüşündə Azərbaycanla bağlı demişdir: "Azərbaycanın rəqəmsal suverenliyinin möhkəmləndirilməsi və innovasiya əsaslı iqtisadi modelə keçidin sürətləndirilməsi əsas vəzifələrimizdən biridir. Bu məqsədlə Rəqəmsal İnkişaf Şurası, Milli Süni İntellekt Mərkəzi və Süni İntellekt Akademiyası yaradılmışdır".

Rəqəmsal suverenliyin möhkəmləndirilməsi və innovasiya əsaslı iqtisadi modelə keçidin sürətləndirilməsinin vahid kontekstdə verilməsi ciddi məsələdir. Bunun təməlində Azərbaycanda süni intellekt strategiyasının mahiyyəti, rəqəmsallaşma və yeni informasiya texnologiyalarının tətbiqi xətti durur. Rəqəmsal İnkişaf Şurası, Milli Süni İntellekt Mərkəzi və Süni İntellekt Akademiyası bu məqsədlə yaradılmışır. Bütövlükdə götürdükdə, bu trendin konseptual, ideya və praktiki-tətbiqi mahiyyəti dövlət başçısının da xüsusi vurğuladığı Süni İntellekt Strategiyasının məzmunundan irəli gəlir.

Həmin strategiyanın məqsədləri ilə bağlı dövlət başçısı bildirmişdir: "Ötən il ölkəmizdə Süni İntellekt Strategiyası qəbul edilmişdir. Strategiyanın əsas məqsədləri sırasında süni intellekt sənayesinin inkişafı, ixtisaslı kadrların hazırlanması və süni intellektin dövlət idarəçiliyində geniş tətbiqi yer alır".

Prezident İlham Əliyev Azərbaycanda yeni informasiya və elektron texnologiyaların tətbiqinin çox mühüm bir aspektinə diqqət yönəltmişdir. Ölkə rəhbəri türk dövlətlərinin Zirvə görüşündə süni intellekt və rəqəmsallaşma ilə bağlı qeyd etmişdir: "Bununla yanaşı, süni intellektdən məsuliyyətli istifadənin təmin edilməsi, onun qanunazidd məqsədlər üçün istifadəsinin qarşısının alınması istiqamətində tədbirlər həyata keçirilir".

Nəhayət, Azərbaycanda süni intellekt və rəqəmsallaşdırma strategiyasının TDT konteksti də vacib məsələ kimi Azərbaycan Prezidenti tərəfindən xüsusi vurğulanmışdır. Dövlət başçısı demişdir: "Rəqəmsal inkişaf sahəsində türk dövlətləri ilə əməkdaşlıq uğurla davam edir. Avropa ilə Asiya arasında "Rəqəmsal İpək yolu" layihəsi icra olunur. Bu layihənin tərkib hissəsi olan, Azərbaycan ilə Qazaxıstan arasında Trans-Xəzər Fiber-Optik Kabel xəttinin yaxın aylarda istifadəyə verilməsi planlaşdırılır".

Bunlardan aydın olur ki, Azərbaycan rəhbərliyi davamlı və düşünülmüş olaraq ən yeni texnologiyaların bütün növlərinin Azərbaycanda strategiyasını reallaşdırmaqdadır. Burada onların tətbiqinin müxtəlif sosial-mədəni və etik tərəfləri bir-biri ilə sıx əlaqədə reallaşdırılır. Eyni zamanda həmin xüsusiyyətlər Azərbaycanın xarici siyasəti vasitəsilə TDT-yə proyeksiya olunur. Deməli, rəqəmsallaşma və süni intellekt siyasi kontekstdə müxtəlif sferalara tətbiq olunur. Bu isə səbəbsiz deyildir və onun Azərbaycan üçün iki səviyyədə əhəmiyyəti vardır. Birincisi, TDT səviyyəsində ən yeni texnologiyaların müxtəlif sferalara tətbiqinin rəsmi sənədlərdə ifadəsi ilə əlaqəlidir. İkincisi, müasir dünya miqyasında süni intellekt və rəqəmsallaşmanın tətbiqinə olan elmi və politoloji münasibətlə bağlıdır.

## TDT-də ən yeni texnologiyaların tətbiqi perspektivləri

Azərbaycanla Türkiyə "müasir texnologiyalara əsaslanan silah və sursatların idarə olunmasında sıx əməkdaşlığa" və müəyyən "struktur və qurumların əlaqəli fəaliyyətinin təmin edilməsinin təşviqinə önəm verirlər". Eyni zamanda iki dost və qardaş dövlət təhlükəsizliyin müasir mərhələdə mühüm tərkib hissəsi olan müxtəlif elektron alətlər vasitəsilə (məsələn, kibervasitələrlə) yaradılan təhlükələri aradan qaldırmaq sferasında əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayırlar. Bu sahədə iki dövlət gələcəkdə birgə elmi tədqiqat işləri, mütəxəssis hazırlığı həyata keçirəcək, qarşılıqlı texniki əməkdaşlığı təşviq edəcəklər.

Faktlar göstərir ki, bu yanaşma fəlsəfəsi TDT-də ən yeni texnologiyalarla bağlı məqamlarda əsas yeri tutur. Bu, 2024-cü ildə Şuşada TDT-nin dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə qəbul edilən Qarabağ Bəyannaməsinin müəyyən bəndlərindən də aydın görünür. Belə ki, TDT-də "rəqəmsal hökumət (e-Hökumət) infrastrukturlarının daha da inkişaf etdirilməsi üzrə türk dövlətləri arasında əməkdaşlıq və mübadilələr" xüsusi yer tutur. Bu sırada "elektron sənəd mübadiləsi üçün e-imza/rəqəmsal imza mexanizmləri uyğunlaşdırılır". Onlayn dövlət xidmətləri inteqrasiya olunur.

Təşkilatda kiberüsullarla həyata keçirilən dağıdıcı hücumlara qarşı "ümumi kibertəhlükəsizliyin qorunması tədbirləri" həyata keçirilir. Həmin kontekstdə süni intellekt üzrə siyasətlərin, təlimatların və tərəfdaşlıqların qurulmasına da xüsusi diqqət yetirilir. TDT üzvləri bir-biri ilə əlaqəli şəkildə "məlumat mərkəzlərinin və bulud infrastrukturlarının yaradılması üzrə siyasət və ən yaxşı təcrübələrin inkişaf etdirilməsini təşviq edirlər".

Buradan aydın olur ki, TDT miqyasında ən yeni informasiya və elektron texnologiyaların bütün aspektləri sistemli şəkildə nəzərə alınmışdır - idarəetmə, təbliğat, təşviqat və konkret layihələrin həyata keçirilməsi arasında sıx bağlılıq əksini tapmışdır. Bu prosesdə süni intellektin tətbiqi məsələsi xüsusi yer tutur. TDT-də "Süni intellekt layihələrinin uğurlu inkişafı üçün üzv dövlətlərin böyük dil modelinin yaradılmasının və mədəniyyətlərarası ünsiyyəti asanlaşdırmaq, təhsil platformalarını inkişaf etdirmək, səhiyyə texnologiyalarını təkmilləşdirmək və iqtisadi inteqrasiyanı təşviq etmək üçün böyük dil modeli formasında ümumi platformadan istifadə" çox vacib vəzifə sayılır.

Beləliklə, həm Azərbaycanda, həm də TDT çərçivəsində həyata keçirilən ən yeni texnologiyaların tətbiqi üzrə siyasət ölkənin inkişafının fundamental faktorları ilə sıx əlaqədə reallaşdırılır. Burada müasir dövrdə aktual olan bütün aspektlərdə rəqəmsallaşma, kompüterləşmə və robotlardan istifadə vəhdətdə siyasi kursun mahiyyətinə daxildir. Bu məqam prinsipial əhəmiyyət kəsb edir.

Bundan başqa, yuxarıdakı təhlildən görünür ki, Azərbaycanda daxili və xarici siyasətdə ən yeni texnologiyaların tətbiqi ciddi şəkildə nəzərə alınmaqla sistemli proqramlar həyata keçirilir. Azərbaycanın dövlət başçısının bu istiqamətdə dərin düşünülmüş kurs reallaşdırdığı təsdiqini tapır. Eyni zamanda yuxarıda vurğuladığımız kimi, müasir dövrdə aparılan geosiyasi və politoloji tədqiqatlar Azərbaycan liderinin tam haqlı olduğuna dəlalət edir. Məsələnin bu aspekti üzərində geniş dayanaq.

## Kissincerin yanaşması

Henri Kissincer "Dünya nizamı: millətlərin xarakteri və tarixin gedişi barədə düşüncələr" əsərində yeni texnologiyalar - süni intellekt və kibertəhlükəsizliklə bağlı indi də fundamental sayıla biləcək suallar qoymuşdur. Tanınmış siyasətçi və dövlət xadimi, beynəlxalq münasibətlər üzrə ekspert vaxtilə yazmışdır: "Texnologiya dünyanın hər yerində fərdlər və ya qurumlar arasında əlaqə qurmağa, eləcə də bir düyməyə toxunmaqla çoxlu miqdarda məlumatın saxlanmasına və əldə edilməsinə imkan verən ünsiyyət vasitəsi yaratmışdır. Bəs bu texnologiya hansı məqsədlər üçün istifadə olunur? Texnologiya gündəlik həyatın elə bir hissəsinə çevrilibsə və öz dünyasını yeganə uyğun aləm "sayırsa", beynəlxalq nizamla bağlı nə baş verir?"

H.Kissincer kompüterləşmə prosesi ilə bağlı fikirlər də ifadə etmişdir. O hesab edirdi ki, XXI əsrdə kompüterləşmədə inqilab baş verir ki, bu da mütləq surətdə insan-cəmiyyət və insan-təbiət münasibətlərinə yeniliklər gətirəcək. H.Kissincer yazırdı: "Kompüterləşmə sahəsindəki inqilab bu qədər çox insanı və prosesi eyni ünsiyyət mühitinə gətirən və onların hərəkətlərini tək bir texnoloji dildə tərcümə edən və izləyən ilk inqilabdır. Kibermәkan - əsasən, hipotetik bir anlayış kimi 1980-ci illərdə ortaya çıxan bu ifadə fiziki məkanı zəbt etmişdir və ən azından böyük şəhər mərkəzlərində onunla birləşməyə başlayır. Onun üzərindən eksponensial olaraq çoxalan qovşaqlar arasında ünsiyyət demək olar ki, ani olur".

Lakin 2018-ci ildə H.Kissincer rəqəmsallaşma və süni intellektin cəmiyyətin bütün fəaliyyət sferalarına daha dərindən nüfuz etdiyi qənaətinə gəlir. Bunu o, həmin ildə qələmə aldığı "Maarifçilik necə sona çatır" adlı məşhur məqaləsində ifadə edir. Müəllif yazır ki, "süni intellekt sistemlərinin funksionallığı daim dəyişir... onlar daha təkmil olurlar". H.Kissincer bu tezisin fonunda belə qənaətə gəlir ki, "bəşəriyyət fəlsəfi və intellektual baxımdan süni intellektin bu həmləsinə hazır deyildir". Bu prosesin nəticəsi olaraq H.Kissincer siyasi proseslərə də ciddi təsiri ola biləcək üç aspektdən bəhs edir. Birincisi, "süni intellekt öncədən görülə bilinməyən nəticələrə çata bilər... Daha çox ehtimallıdır ki, süni intellekt konteksti dərk edə bilmədiyindən insan instruksiyalarını düzgün interpretasiya edə bilmir". İkincisi, "süni intellekt qarşıya qoyulan məqsədlərə çatmaq prosesində insan təfəkkürünü və insan dəyərlərini dəyişə bilər". Üçüncüsü, süni intellekt nəzərdə tutulan məqsədlərə çata bilər, lakin öz nəticələrini izah edə bilməz. Bir sıra sferalarda, məsələn, obrazların tanınmasında süni intellekt insan qabiliyyətlərini aşır. Əgər belə davam etsə, "süni intellekt situasiyaları optimallaşdıra bilər, ancaq bunu insan kimi edə bilməz".

Bütün bunlardan ortaya belə bir sual çıxır: "Əgər insan şüuru süni intellektdən geridə qalacaqsa, onda insan şüurunun taleyi necə olacaq və cəmiyyət artıq mövcud olan dünyanı özü üçün mənası olan terminlərdə mənalandıra bilməyəcək?" H.Kissincer qoyduğu suallara cavabları 2024-cü ildə daha iki tanınmış mütəxəssislə birlikdə qələmə aldığı əsərdə vermişdir. Onlar informasiya texnologiyaları üzrə mühəndis və sahibkar Erik Şmidt və Kreyq Mandidir. H.Kissincer ABŞ siyasi realizm məktəbinin ən görkəmli və nüfuzlu nümayəndələrindən biri olmuşdur. E.Şmidt və K.Mandi isə ən müasir informasiya texnologiyaları, mühəndislik üzrə tanınmış mütəxəssislərdir, lakin onların da qlobal siyasətə aidiyyəti vardır. Bill Geyts həmin kitabın rəylər hissəsində yazır: "Siz süni intellektin biliklər, hakimiyyət və siyasətlə qarşılıqlı əlaqəsinə aid əsəri oxuyursunuz". Məsələnin bu tərəfini vurğulamaqda məqsəd üç tanınmış müəllifin süni intellekt və rəqəmsallaşma fenomenlərinin müasir siyasətə təsirini xüsusi qeyd etməklə bağlıdır.

Kitabda vurğulanır ki, rəqəmsallaşma, yeni informasiya texnologiyaları və süni intellekt fundamental səviyyədə qlobal siyasətin mahiyyəti, məzmunu və məqsədini dəyişə bilər. Bunun fərdi mövcudluq və cəmiyyət kimi varolmaqla yanaşı, dövlətin milli siyasəti ilə də birbaşa əlaqəsi vardır. Hətta süni intellekt hazırlayan və ona sahib olan şirkətlər sosial, iqtisadi, hərbi və siyasi sahələrdə hakimiyyəti ələ ala bilərlər.

Ümumi səviyyədə isə süni intellekt sistemlərinin inkişafı və onlara insan reaksiyaları başqa məqamlarla yanaşı, diplomatiyanın əsaslarını və bütün beynəlxalq sistemi transformasiya edə bilmək qabiliyyətinə malikdir, həm də "süni intellektdə qorxu hissi yoxdur". Buradan müəlliflər bir neçə mümkün inkişaf ssenariləri haqqında nəticə çıxarırlar. Onlardan biri də aktiv siyasi-diplomatik fəaliyyətlə, yeni insanla süni intellektin birgə, mötədil və balanslı inkişaf etməsidir.

Bu əsasda belə bir qənaət yaranır: yeni informasiya texnologiyaları, rəqəmsallaşma və süni intellekt siyasəti hər bir dövlət üçün milli siyasət statusunda olmalıdır. Məsələ bu iki yeni texnoloji fenomenin insan həyatının və cəmiyyətin mövcudluq fəlsəfəsi və arxitekturasını yeniləşdirə bilməsi ilə bağlıdır.

Məhz H.Kissincer, E.Şmidt və K.Mandinin gəldikləri bu qənaət kontekstində Azərbaycan Prezidenti İlham Əliyevin həm ölkə daxilində, həm də TDT miqyasında həyata keçirdiyi rəqəmsallaşma, yeni informasiya-kommunikasiya texnologiyaları və süni intellekt siyasəti çox uğurludur. Azərbaycan liderinin bu istiqamətdə reallaşdırdığı siyasət cari çağırışlarla yanaşı, strateji aspektdə də son dərəcə əhəmiyyətlidir. Həmin kontekstdə sözügedən əsərin siyasətə aid hissəsində vurğulanan aşağıdakı fikir maraq doğurmaya bilməz: "Siyasi qərar qəbuletmədə süni intellektdən istifadənin zəruriliyi və ya faydalılığı barədə fikir birliyi daha azdır. Bu sahədə müstəsna nəticələr təmin edilsə belə, texnologiyaya bu qədər əhəmiyyətli gücü həvalə edə biləcəyimizə şübhə etmək təbiidir. Elmi vasitələr biliklərimizin sərhədlərini genişləndirərək dünyanı anlamaq üçün yeni üfüqlər açmışdır... Lakin siyasi hakimiyyət həmişə insanın ixtiyarında olmuşdur və bu anlamda indiyə qədər texnologiya tərəfindən toxunulmaz olaraq qalmaqdadır".

Nəhayət, müəlliflər apardıqları tədqiqatdan belə bir ümumi nəticə çıxarırlar: hazırkı tarixi dönəmdə bəşəriyyət qarşısında "...texnoloji, bioloji, sosial və siyasi ölçülərdə" yeni bir dövr başlayır. Bu, elə bir epoxadır ki, "yeni paradiqma üzrə inkişaf edir" və buraya məntiq, zaman və inanc daxildir. Qalır insanın "sağlam nikbinliyi".

Lakin əsas məsələ ondan ibarətdir ki, süni intellekt və rəqəmsal texnologiyalar dövründə insanın "sağlam nikbin" olması heç də asan məsələ deyil. Bu, xüsusilə idarəçilikdə səmərəli fəaliyyət üsullarının tətbiqini, dövlətin öz vəzifələrini daha çevik həyata keçirməsini tələb edir. Azərbaycan Prezidentinin atdığı addımlar bu baxımdan çox əhəmiyyətli və uğurludur. Bu barədə siyasilər və ekspertlər fikir bildirirlər.

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Prezident İlham Əliyevin həyata keçirdiyi infrastruktur diplomatiyası kontekstində bildirmişdir: "Yeni nəqliyyat dəhlizləri, dəmir yolları, avtomobil magistralları, enerji infrastrukturu və rəqəmsal şəbəkələr yenidənqurma ərazilərini daha geniş regional və beynəlxalq iqtisadi sistemlərə inteqrasiya edir".

Təsadüfi deyil ki, ekspertlər və media nümayəndələri də Azərbaycan Prezidentinin "rəqəmsal transformasiya və süni intellekt", "Rəqəmsal İpək yolu" və digər məqamları yeni prioritetlər səviyyəsinə yüksəltməklə, faktiki olaraq, geniş anlamda "yeni kommunikasiya xəritəsi" yaratdığını xüsusi vurğulayırlar.

Beləliklə, bu yazıda vurğulanan məqamlardan ümumi politoloji qənaətlər əldə edə bilərik. Hər şeydən öncə, Azərbaycan rəhbərliyi ölkənin xarici siyasətində rəqəmsallaşma və süni intellekt fenomenlərini düşünülmüş formada davamlı olaraq nəzərə almaqdadır. Bu zaman Azərbaycan Prezidenti ölkənin milli maraqlarını üstün tutaraq ən yeni texnologiyaların dövlət quruculuğuna geniş tətbiqini reallaşdırır. İnformasiya, süni intellekt və rəqəmsal texnologiyaların tətbiqi hazırda idarəetmə sferası da daxil olmaqla, çox geniş miqyasda cəmiyyətin bütün sahələrinə sirayət etməkdədir.

Şübhəsiz ki, bu məqam Azərbaycanın regional siyasətində də ciddi surətdə nəzərə alınır. Buna görədir ki, rəqəmsallaşma və süni intellekt fenomenləri həm Mərkəzi Asiya, həm də Cənubi Qafqazın digər ölkələri ilə əlaqələrin inkişafında aparıcı yer tutmaqdadır.

Nəhayət, həmin faktorlar qlobal miqyasda əməkdaşlıq, təhlükəsizlik və sülhün təmin olunması istiqamətlərində fundamental rol oynamalıdır. Bunun zəruriliyini H.Kissincer və bir çox digər tanınmış mütəxəssislərin apardıqları tədqiqatlar sübut edir.

Burada diqqət ediləsi məqamlardan biri Azərbaycanın süni intellekt sahəsində regional lider mövqeyinin möhkəmləndirilməsi və qlobal rəqəmsal ekosistemdə tanınması ilə bağlı fəaliyyətin gücləndirilməsinin ölkənin kommunikativ aspektdə fəaliyyəti ilə sıx bağlı olması gerçəkliyidir. Buna görə də mütəxəssislərin, adətən, yeni nəqliyyat dəhlizləri və enerji infrastrukturu ilə rəqəmsal şəbəkələrin sıx qarşılıqlı əlaqəsini vurğulamaları təsadüfi deyildir. Bu məqam Azərbaycan Prezidentinin həm ölkədaxili, həm də TDT miqyasında atdığı addımlarda özünü aydın göstərir.

***Kamal ADIGÖZƏLOV,***
***beynəlxalq münasibətlər üzrə ekspert***



## *TDT-nin baş katibi:* "Bakıda keçirilən tədbirlər ortaq tariximizə verilən dəyərin və gələcəyə baxışımızın ifadəsidir"



**"Türkoloji Qurultayın 100 ildən sonra yenidən Bakıda keçirilməsi türk dünyasının ortaq tarixinin və gələcəyə yönəlmiş əməkdaşlığının rəmzidir. 1926-cı ildə Bakıda təşkil olunmuş qurultay necə tarixi əhəmiyyət daşıyırdısa, bu gün keçirilən tədbir də türk dövlətləri arasında birliyin daha da möhkəmlənməsinə xidmət edir".**

Bu fikirləri jurnalistlərə açıqlamasında Türk Dövlətləri Təşkilatının (TDT) baş katibi Kubanıçbek Ömüralıyev deyib.

Baş katib bildirib ki, Türkoloji Qurultayın 100 illiyinin, eləcə də TDT-nin qeyri-rəsmi Zirvə görüşünün Azərbaycanın evsahibliyi ilə keçirilməsi türk dünyasının inteqrasiyasına mühüm töhfə verir.

"Bu gün Bakıda keçirilən tədbirlər ortaq tariximizə verilən dəyərin və gələcəyə baxışımızın ifadəsidir. Bu gün qəbul ediləcək qərarlar və irəli sürülən təşəbbüslər ölkələrimiz və xalqlarımız üçün tarixi əhəmiyyət daşıyacaq. Bu, yalnız keçmişimizi anmaq deyil, həm də gələcək nəsillər üçün möhkəm təməl formalaşdırmaq deməkdir", - deyə Kubanıçbek Ömüralıyev vurğulayıb.

TDT-nin baş katibi qeyd edib ki, türk dövlətlərini birləşdirən yalnız ortaq tarix deyil, həm də ortaq dil, əlifba və mədəni dəyərlərdir. Onun sözlərinə görə, bu istiqamətdə atılan addımlar türk dünyasının gələcək inteqrasiyasının əsas sütunlarından birini təşkil edir.

## 4 ayda 4,7 milyard dollarlıq qeyri-neft məhsulları ixrac olunub



**Hazırda dünya iqtisadiyyatı çətin dövrünü yaşayır. İran-Amerika, Rusiya-Ukrayna və Yaxın Şərq cəbhələrində baş verən müharibələr qlobal iqtisadiyyatı xeyli geriyə atıb. Hörmüz boğazının bağlanması isə neft və neft məhsullarının bahalaşması ilə yanaşı, həm də mühüm bir təchizat zəncirində qırılmalara səbəb olmuşdur.**

Siyasi qarşıdurmalar, ölkələrin bir-birinə iqtisadi sanksiyalar tətbiq etməsi də təchizat və ticarət zəncirinin qırılması, investisiya qoyuluşunun azalması ilə müşahidə edilir. Bütün bunlar dünya iqtisadiyyatının kiçilməsinə, ölkələr arasında mövcud iqtisadi əlaqələrin aşağı səviyyəyə düşməsi ilə nəticələnib.

Belə bir şəraitdə Azərbaycanın xarici ticarətində müsbət tendensiyanın davam etməsi ölkəmizin iqtisadi kursunun düzgün müəyyən edilməsindən xəbər verir. Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar-aprel aylarında ölkəmiz dünyanın 164 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmişdir. 112 ölkəyə məhsul ixrac, 150 ölkədən isə idxal edilmişdir.

Hesabat dövründə gömrük orqanlarında qeydiyyat aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla xarici ticarət dövriyyəsinin dəyəri 18 milyard 60,7 milyon, o cümlədən ixracın dəyəri 12 milyard 535,9 milyon, idxalın dəyəri 5 milyard 524,8 milyon dollar təşkil etmişdir. Nəticədə ölkəmizin xeyrinə 7 milyard 11,1 milyon dollarlıq ticarət saldosu yaranmışdır. Ötən ilin müvafiq dövrü ilə müqayisədə xarici ticarət dövriyyəsi cari qiymətlərlə 10,1 faiz artmış, real ifadədə isə 8,7 faiz azalmışdır.

Dövlət Gömrük Komitəsindən daxil olmuş məlumatda bildirilir ki, ölkə üzrə xarici ticarət dövriyyəsinin 91,7 faizi İtaliya, Birləşmiş Krallıq, Türkiyə, Çin, Rusiya, Gürcüstan, Almaniya, Yunanıstan, Bolqarıstan, ABŞ, Rumıniya, Çexiya, İsveçrə, İran, Ukrayna, Portuqaliya, Hindistan, Xorvatiya, Belarus, Fransa, Tailand, Özbəkistan və Qazaxıstan ilə aparılmış ticarət əməliyyatlarının payına düşmüşdür. Hesabat dövründə Azərbaycanın idxal etdiyi məhsullarda maşınların, mexanizmlərin, elektrotexniki avadanlıq və aparatların, nəqliyyat vasitələrinin, kimya sənayesi məhsullarının, azqiymətli metalların və onlardan hazırlanan məmulatların, hazır qida məhsulları, içkilər və tütün məmulatlarının, bitki mənşəli məhsulların, plastmas və ondan hazırlanan məmulatların, mineral məhsulların, tekstil materialları və məmulatlarının dəyəri üstünlük təşkil etmişdir. 4 ayda bir çox məhsulların idxalının azalması müşahidə olunmuşdur ki, bu da həmin növ məhsulların yerli istehsalının artması ilə bağlıdır.

İxracın strukturunda xam neft, təbii qaz və neft-qaz məhsullarından savayı, meyvə və tərəvəzlərin, plastmas və ondan hazırlanan məmulatların, pambıq lifi və ipliyinin, alüminium və ondan hazırlanan məmulatların, kimya sənayesi məhsullarının, şəkərin, qara metallar və ondan hazırlanan məmulatların, alkoqollu və alkoqolsuz içkilərin, bitki yağlarının payı üstünlük təşkil etmişdir.

Yanvar-aprel aylarında qeyri-neft-qaz məhsulları üzrə ixracın dəyəri 4 milyard 698,8 milyon dollara çatmışdır ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə cari qiymətlərlə 4,4, real ifadədə 3,1 dəfə çoxdur. Hesabat dövründə ən çox qeyri-neft-qaz məhsulları Birləşmiş Krallığa, Rusiyaya, Türkiyəyə, Gürcüstana, İsveçrəyə, Ukraynaya və Özbəkistana ixrac olunmuşdur.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Baş prokuror İtkin Düşmüş Şəxslər üzrə Beynəlxalq Komissiyanın baş direktoru ilə görüşüb

**Baş prokuror Kamran Əliyev ölkəmizdə səfərdə olan İtkin Düşmüş Şəxslər üzrə Beynəlxalq Komissiyanın (İCMP) baş direktoru xanım Katrin Bombergerin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Qonaqları salamlayan Kamran Əliyev qeyd edib ki, Baş Prokurorluqla komissiya arasında 2023-cü ildən səmərəli əməkdaşlıq əlaqələri formalaşıb. Qeyd olunub ki, komissiyanın fəaliyyəti xüsusilə həssas mövzu ilə əlaqədardır və itkin düşmüş şəxslərlə bağlı müvafiq məlumat mübadiləsinin təmin edilməsi zərərçəkmiş şəxslərin ailələrinin hüquqları baxımından olduqca vacibdir. Bu mövzu Prezident İlham Əliyevin xüsusi diqqəti və qayğısı ilə əhatə olunur.

Bundan sonra Kamran Əliyev qonağa işgəncələrə məruz qalaraq öldürülüb kütləvi məzarlıqlarda basdırılmış şəxslərin yerinin müəyyən edilməsi, həmçinin aşkar edilmiş şəxslərin şəxsiyyətinin müəyyən edilməsi istiqamətində görülmüş işlər barədə məlumat verib.

Qəbula görə minnətdarlıq ifadə edən xanım Katrin Bomberger Azərbaycanda itkin düşmüş şəxslər üzrə məlumatların toplanması və mübadiləsi işinin yüksək səviyyədə təşkil olunmasını qeyd edib, mövcud əməkdaşlıq səviyyəsindən razılıq bildirib. Qonaq həmçinin yeni hazırlanmış itkin düşmüş şəxslərlə bağlı Məlumat İdarəetmə Sistemi barədə məlumat verib.

Sonra sistemin imkanları və təkmilləşdirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb. Görüş zamanı qarşılıqlı təlim səfərlərinin təşkili və təcrübə mübadiləsinə dair razılıq əldə edilib.

*"Azərbaycan"*

# Korsika ilə bağlı konstitusiya qanunu layihəsi Azərbaycan parlamentində dəstəklənib

**Azərbaycan Respublikası Milli Məclisinin Korsika Xalqına Dəstək Qrupu Fransa Milli Assambleyasında qəbul edilmiş konstitusiya qanunu layihəsinə dair bəyanat yayıb.**



AZƏRTAC xəbər verir ki, bəyanatda deyilir:

"Fransa Milli Assambleyasında Korsikanın Fransa Respublikası daxilində xüsusi muxtariyyət statusunun təsbit edilməsini nəzərdə tutan konstitusiya qanunu layihəsinin qəbulu Korsika xalqı üçün mühüm mərhələdir. Qanun layihəsi adanın tarixi, mədəni, sosial və coğrafi xüsusiyyətləri nəzərə alınmaqla Korsikaya daha geniş özünüidarəetmə səlahiyyətlərinin verilməsini nəzərdə tutur və bu baxımdan Korsika xalqının uzun illər ərzində apardığı dinc, demokratik və ardıcıl mübarizənin mühüm siyasi nəticəsi kimi qiymətləndirilir.

Biz, Milli Məclisin Korsika Xalqına Dəstək Qrupu olaraq, Korsika xalqının bu əzmini, qətiyyətini və demokratik prinsiplərə sadiqliyini yüksək qiymətləndirir, onları səmimi qəlbdən alqışlayırıq. Korsika xalqının öz gələcəyini müəyyənləşdirmək istiqamətində nümayiş etdirdiyi əzm və qətiyyət bir daha göstərir ki, xalqların legitim tələbləri gec-tez siyasi müstəvidə öz əksini tapır. Bu baxımdan Fransa Milli Assambleyasında qəbul olunmuş qərar yalnız qanunvericilik aktı deyil, həm də Korsika xalqının uzunmüddətli mübarizəsinin mühüm siyasi nailiyyətidir.

Ümidvarıq ki, Fransa Senatı da tarixi məsuliyyət nümayiş etdirərək Fransa Milli Assambleyasının qəbul etdiyi qərarı dəstəkləyəcək və bununla da Korsika xalqının demokratik iradəsinə hörmət ifadə edəcək. Azərbaycan Respublikası Milli Məclisinin Korsika Xalqına Dəstək Qrupu bundan sonra da Korsika xalqının qanuni hüquqlarının, demokratik iradəsinin və dinc siyasi mübarizəsinin beynəlxalq ictimaiyyət tərəfindən obyektiv qiymətləndirilməsini dəstəkləməyə davam edəcək".

# Anomal istilər Avropanı sınağa çəkir

**Son vaxtlar dünyanın müxtəlif bölgələrində rekord istilər, quraqlıqlar, meşə yanğınları və digər ekstremal hava hadisələri müşahidə olunur. Mütəxəssislər xəbərdarlıq edirlər ki, Sakit okeanda formalaşan El-Ninyo iqlim fenomeni rekord gücə çata və onsuz da qlobal istiləşmənin təsiri altında olan planetdə hava şəraitini daha da ağırlaşdıra bilər.**



Qarşıdakı dövrdə təbii fəlakətlərin daha tez-tez baş verməsi ehtimalı olduqca yüksəkdir. Bu proseslər təkcə təbiətə deyil, insanların sağlamlığına, iqtisadiyyata, kənd təsərrüfatına və gündəlik həyata da ciddi təsir göstərir. ABŞ-nin Milli Okean və Atmosfer Tədqiqatları İdarəsinin məlumatına görə, hazırda müşahidə olunan El-Ninyonun tarixdə qeydə alınmış ən güclü hadisələrdən birinə çevrilməsi ehtimalı 63 faizdir. Bu proses 1997-ci ildə qeydə alınmış rekordu yeniləyə bilər. Qeyd edək ki, qlobal istiləşmənin təsirlərini daha da gücləndirən El-Ninyo ekvator yaxınlığında - Sakit okeanın mərkəzi və şərq hissələrində səth sularının anomal istiləşməsi nəticəsində yaranan təbii iqlim hadisəsidir. Bu istiləşmə okean və atmosfer dövriyyəsini dəyişdirərək dünyanın müxtəlif bölgələrində hava şəraitinə ciddi təsir göstərir.

Artıq Avropada müşahidə olunan hadisələr bu proqnozların nə qədər ciddi olduğunu göstərir. Dünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesus bildirib ki, Avropa dünyada ən sürətlə istiləşən qitədir və qlobal orta göstəricidən təxminən iki dəfə artıq istiləşir. Onun sözlərinə görə, hazırda təxminən 150 milyon insan həddindən artıq isti hava şəraitində yaşayır. İstilik dalğaları nəticəsində yüzlərlə insan həyatını itirib, məktəblər bağlanıb, elektrik şəbəkələri böyük yüklənmə ilə üzləşib.

Qebreyesus qeyd edib ki, insanlar bəzən yüksək temperaturun orqanizm üçün yaratdığı təhlükəni lazımi qədər qiymətləndirmirlər. Avropadakı yaşayış binaları, məktəblər və iş yerlərinin əksəriyyəti belə yüksək temperaturlara uyğun layihələndirilmədiyindən insanlar risk altında qalırlar. Təkcə iyunun 21-dən etibarən qitədə yüksək temperaturla əlaqəli əlavə 1300 ölüm hadisəsinin qeydə alındığı bildirilir.

Fransa isti hava dalğasının ən ağır təsirinə məruz qalan ölkələrdəndir. Temperaturun pik həddə çatdığı günlər ölkədə gündəlik ölüm sayı kəskin artıb. Əgər aprel və may aylarında gündəlik orta ölüm sayı 900-1000 nəfər arasında dəyişirdisə, isti hava dalğası zamanı bu göstərici 1400-ü keçib. Təkcə 3 gün ərzində ən azı əlavə 1000 ölüm hadisəsinin baş verdiyi açıqlanıb. Ölənlərin təxminən 85 faizi 65 yaşdan yuxarı şəxslər olub. Anomal istilər səbəbindən Parisdə xəstəxanalar fövqəladə hallarda tətbiq olunan "təcili yardım planı"nı aktivləşdiriblər. Bu plan çərçivəsində məzuniyyətdə olan tibb işçiləri yenidən işə çağırılıb, xəstəxanalarda çarpayı sayı artırılıb, təcili olmayan əməliyyatlar isə təxirə salınıb. Paris və ətraf ərazilər daxil olmaqla onlarla bölgədə qırmızı və narıncı təhlükə səviyyəsi elan olunub.

İspaniyada da vəziyyət narahatedicidir. May ayında yüksək temperatur səbəbindən ölənlərin sayı ölkə tarixində rekord həddə çatıb. Rəsmi məlumatlara əsasən, anomal istilər nəticəsində həyatını itirənlərin sayı artıq 100 nəfəri ötüb. Xüsusilə ölkənin şimal bölgələrində temperatur normadan 10-15 dərəcə yüksək qeydə alınıb.

Polşada da iyun ayında temperatur rekordu yenilənib. Almaniya ilə sərhəddə yerləşən Slubits şəhərində temperatur 38,9 dərəcəyə yüksəlib ki, bu da ölkədə iyun ayı üçün indiyədək qeydə alınmış ən yüksək göstəricidir. Meteoroloqlar yaxın günlərdə temperaturun 42 dərəcəyə çata biləcəyini bildirirlər.

Almaniyada isə rekord istilər meşə yanğınlarına səbəb olub. Şərq və cənub-qərb bölgələrində başlayan yanğınların söndürülməsi İkinci Dünya müharibəsindən qalmış partlamamış sursatların mövcudluğu səbəbindən daha da çətinləşib. Təxminən 650 nəfər təhlükəsizlik məqsədilə təxliyə olunub. Berlində əhalinin sərinləməsi üçün Brandenburq darvazası yaxınlığında iri su topları quraşdırılıb. Eyni zamanda isti hava nəticəsində təcili tibbi yardım çağırışlarının sayı yüzlərlə artıb. Yüksək temperatur nəqliyyat və digər infrastruktura da zərər vurub. Magistral yollarda beton örtüklər çatlayıb, dəmir yolu relsləri deformasiya olub.

Böyük Britaniyada yüksək temperatur fərqli təhlükə yaradıb. Son bir həftə ərzində 7 nəfər boğularaq həyatını itirib. İnsanlar isti havadan qorunmaq üçün su hövzələrinə üz tutsalar da, suyun temperaturu hələ də aşağı olduğundan orqanizmdə temperatur şoku yaranıb. Bu isə damar spazmı və əzələ qıcolmaları ilə nəticələnərək insanların suda nəzarəti itirməsinə səbəb olub.

Mövzu ilə bağlı qəzetimizə açıqlama verən ekoloq Cəmşid Bəxtiyar bildirib ki, dünyada müşahidə olunan anomal istilərin əsas səbəbi insan fəaliyyəti nəticəsində baş verən qlobal iqlim dəyişiklikləridir. Onun sözlərinə görə, atmosferdə karbon qazı, metan və digər istixana qazlarının sürətlə artması Yer səthinin orta temperaturunu yüksəldir və bu proses ekstremal hava hadisələrinin sayını artırır. "İstilərin rekord həddə çatmasının digər mühüm səbəbi uzun müddət davam edən yüksək təzyiq sistemləridir. Bu hadisə elmi ədəbiyyatda "heat dome", yəni "istilik qübbəsi" adlanır. Belə vəziyyətdə isti hava müəyyən ərazilər üzərində günlərlə, bəzən isə həftələrlə qalaraq temperaturun daha da yüksəlməsinə səbəb olur. Quraqlıq da prosesi sürətləndirən amillərdəndir. Torpaqda rütubət azaldıqca buxarlanma zəifləyir və Günəşdən gələn enerjinin daha böyük hissəsi havanı qızdırmağa sərf olunur. Şəhərlərdə beton və asfalt örtüklərinin çoxluğu isə "isti ada effekti" yaradaraq temperaturun ətraf ərazilərlə müqayisədə daha yüksək olmasına səbəb olur. Hazırda Avropada yaşanan rekord istilərin əsas səbəbi məhz qlobal istiləşmə fonunda yaranan uzunmüddətli istilik qübbəsidir", - deyə ekoloq qeyd edib.

Cəmşid Bəxtiyarın fikrincə, Avropadakı isti hava kütlələrinin eyni formada Azərbaycana keçəcəyini söyləmək düzgün olmaz: "Lakin həmin istilərə səbəb olan genişmiqyaslı atmosfer prosesləri Qafqaz regionuna da təsir göstərə bilər. Yay aylarında Azərbaycanda da normadan yüksək temperatur dalğalarının baş verməsi ehtimalı var. Xüsusilə Aran rayonlarında havanın temperaturu bəzi günlərdə 40 dərəcə və daha yüksək ola bilər. Bununla yanaşı, yağıntıların azalması və quraqlığın güclənməsi riski də artır. Son günlər intensiv yağıntılar insanlarda narahatlıq yaratsa da, uzunmüddətli perspektivdə su ehtiyatlarının qorunması baxımından bu cür yağışlar, əslində, müsbət qiymətləndirilməlidir".

***Ülkər XASPOLADOVA,***
*"Azərbaycan"*

**"Karton Etiket Məhsulları" Açıq Səhmdar Cəmiyyəti (VÖEN: 1000032021)**
**31 dekabr 2025-ci il tarixə Maliyyə Hesabatları**

Maliyyə Vəziyyəti Haqqında Hesabat

*manat*

| | Qeyd | 31 Dekabr 2025 | 31 Dekabr 2024 |
|---|---|---|---|
| **Aktivlər** | | | |
| *Uzunmüddətli aktivlər* | | | |
| Qeyri maddi aktivlər | 13 | - | - |
| Torpaq, tikili və avadanlıqlar (Əsas vəsaitlər) | 13 | 66 289 | 71 520 |
| İnvestisiyalar | | - | - |
| CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR | | 66 289 | 71 520 |
| *Qısamüddətli aktivlər* | | | |
| Ehtiyatlar | 11 | - | - |
| Qısamüddətli debitor borcları | 14 | 6 646 | 4 256 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 12 | 6 326 | 28 216 |
| Sair qısamüddətli maliyyə aktivləri | | - | - |
| Sair qısamüddətli aktivlər | 15 | 389 816 | 389 816 |
| CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR | | 402 788 | 422 288 |
| CƏMİ AKTİVLƏR | | 469 077 | 493 808 |
| **Kapital və öhdəliklər** | | | |
| **Kapital** | | | |
| Ödənilmiş nominal (Nizamnamə) kapitalı | | 397 578 | 397 578 |
| Hesabat dövrünün xalis mənfəəti | | - | - |
| Kapital ehtiyatları | | - | - |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | 48 512 | 66 595 |
| CƏMİ KAPİTAL | | 446 090 | 464 173 |
| **Öhdəliklər** | | | |
| *Uzunmüddətli öhdəliklər* | | | |
| Təxirəsalınmış vergi öhdəliyi | | - | - |
| Uzunamüddətli kreditor borcları | 17 | - | - |
| CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR | | - | - |
| *Qısamüddətli öhdəliklər* | | - | - |
| Qısamüdətli faiz xərcləri yaradan öhdəliklər | | - | - |
| Qısamüdətli qiymətləndirilmiş öhdəliklər | | - | - |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 18 | 11 029 | 23 735 |
| Qısamüddətli kreditor borcları | 16 | 8 850 | 5 900 |
| Sair qısamüddətli öhdəliklər | 18 | 3 108 | - |
| CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR | | 22 987 | 29 635 |
| CƏMİ ÖHDƏLİKLƏR | | 22 987 | 29 635 |
| CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR | | 469 077 | 493 808 |

"Karton Etiket Məhsulları" A.S.C-nin sədri: Həziyev Nemət
Mühasib: Talıbov Emil

"Karton Etiket Məhsulları" Açıq Səhmdar Cəmiyyəti Azərbaycan Respublikası Bakı şəhəri

**"Karton Etiket Məhsulları" Açıq Səhmdar Cəmiyyəti (VÖEN: 1000032021)**
**31 dekabr 2025-ci il tarixə Maliyyə Hesabatları**

Pul Vəsaitlərinin Hərəkəti Haqqında Hesabat

*manat*

| | Qeyd | 2025 | 2024 |
|---|---|---|---|
| Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti: | | | |
| Vergitutmadan əvvəl mənfəət (xərclər) | | 154 206 | 115 249 |
| Mənfəət vergisi üzrə xərclər | | (30 841) | (23 050) |
| Qeyri-pul maddələri üzrə gəlirlər və xərclər: | | - | - |
| • Bina, qurğu və avadanlıqların amortizasiyası | 13 | 5 231 | 5 684 |
| • Qeyri maddi aktivlərin amortizasiyası | 13 | - | - |
| • Bina, qurğu və avadanlıqların xaricolmasından mənfəət | | - | - |
| Aşağıdakı maddələr üzrə baş verən dəyişikliklər: | | - | - |
| • Ehtiyatlar üzrə artma/azalma | 11 | - | - |
| • Debitor borcları üzrə artma/azalma | 14 | (2 391) | (4 256) |
| • Maliyyə aktivlər üzrə artma/azalma | | - | - |
| • Sair aktivlər üzrə artma/azalma | 15 | - | 3 626 |
| • Əməliyyat kreditor borcları üzrə artma/azalma | 16 | - | - |
| • Vergi və sosial sığorta öhdəlikləri üzrə artma/azalma | 18 | (12 706) | 21 055 |
| • Uzunmüddətli kreditor borcları üzrə artma/azalma | 17 | - | - |
| • Alınmış avanslarda artma/azalma | 16 | 2 950 | 5 900 |
| • Sair kreditor borcları üzrə artma/azalma | 18 | 3 108 | - |
| Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti | | 119 557 | 124 208 |
| İnvestisiya fəaliyyətindən pul vəsaitlərinin hərəkəti: | | | |
| Əsas vəsaitlərin alınması | 13 | - | - |
| Qeyri-maddi aktivlərin alınması | 13 | - | - |
| Əsas vəsaitlərin xaricolması üzrə qalıq dəyəri | 13 | - | - |
| Əsas vəsaitlər və qeyri-maddi aktivlər məzənnə fərqi | | - | - |
| İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti | | 119 557 | 124 208 |
| Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti: | | | |
| Borc ödənilməsi/ nizamnamə kapitalına yatırımlar | | - | - |
| Kapitalda pay sahiblərinə ödənilən dividendlər | | (141 448) | (96 311) |
| Qeyri-nəzarət payına ödənilən dividendlər | | - | - |
| Xalis mənfəətdən çıxılmalar | | - | - |
| Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin xalis hərəkəti | | - | - |
| Pul vəsaitləri və onların ekvivalentlərinin xalis artması (azalması) | | (21 891) | 27 897 |
| Valyuta fərqləri | | - | - |
| 1 Yanvar tarixinə pul vəsaitləri və pul vəsaitləri ekvivalentləri | 12 | 28 216 | 319 |
| 31 Dekabr tarixinə pul vəsaitləri və pul vəsaitləri ekvivalentləri | 12 | 6 325 | 28 216 |

"Karton Etiket Məhsulları" A.S.C-nin sədri: Həziyev Nemət
Mühasib: Talıbov Emil

"Karton Etiket Məhsulları" Açıq Səhmdar Cəmiyyəti Azərbaycan Respublikası Bakı şəhəri

**"Karton Etiket Məhsulları" Açıq Səhmdar Cəmiyyəti (VÖEN: 1000032021)**
**31 dekabr 2025-ci il tarixə Maliyyə Hesabatları**

Maliyyə Nəticələri Haqqında Hesabat

*manat*

| | Qeyd | 2025 | 2024 |
|---|---|---|---|
| Əsas əməliyyat gəlirləri | 6 | 243 456 | 224 816 |
| Satışın maya dəyəri | 7 | (81 983) | (78 387) |
| **Ümumi mənfəət** | | 161 473 | 146 429 |
| Sair əməliyyat gəlirləri | 6 | - | - |
| Sair əməliyyat xərcləri | 13 | - | - |
| Marketinq və kommersiya xərcləri | | - | - |
| İnzibati xərclər | 8 | (7 267) | (5 837) |
| **Əməliyyat mənfəəti (zərəri)** | | 154 206 | 140 592 |
| Maliyyə gəlirləri | 9 | - | - |
| Maliyyə xərcləri | 9 | - | - |
| Fövqəladə gəlirlər | 10 | - | - |
| Fövqəladə xərclər | 10 | - | - |
| **Vergitutmadan əvvəl mənfəət (zərər)** | | 154 206 | 140 592 |
| Keçmiş illərin istifadə edilmiş zərəri (VM 121) | | - | (25 343) |
| Mənfəət vergisi | 19 | (30 841) | (23 050) |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | 20 | 123 365 | 92 199 |
| Xitam verilmiş əməliyyatlar | | - | - |
| Hesabat dövrünə aid olmayan xalis mənfəətdən çıxılmalar | | - | - |
| Xalis mənfəətdən çıxılmalar | | - | - |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | | 123 365 | 92 199 |
| **Mənfəətdə iştirak payı:** | | | |
| - Səhmdarların payı | | 100% | 100% |
| - 1% səhmə düşən mənfəət | | 1 233.65 | 921.99 |

"Karton Etiket Məhsulları" A.S.C-nin sədri: Həziyev Nemət
Mühasib: Talıbov Emil

"Karton Etiket Məhsulları" Açıq Səhmdar Cəmiyyəti Azərbaycan Respublikası Bakı şəhəri

**"Karton Etiket Məhsulları" Açıq Səhmdar Cəmiyyəti (VÖEN: 1000032021)**
**31 dekabr 2025-ci il tarixə Maliyyə Hesabatları**

Kapitalda Dəyişikliklər Haqqında Hesabat

*manat*

| | Qeyd | Nizamnamə kapitalı | Kapital ehtiyatları | Bölüşdürülməmiş mənfəət | Sair ehtiyatlar | Cəmi kapital |
|---|---|---|---|---|---|---|
| 01 yanvar 2024-cü il tarixə | | 397 578 | - | 70 707 | - | 468 285 |
| Aktivlərin yenidən qiymətləndirilməsi | | - | - | - | - | - |
| Hesabat dövründə xalis mənfəət (zərər) | | - | - | (4 112) | - | (4 112) |
| Mülkiyyətçilərin kaptal qoyuluşları | | - | - | - | - | - |
| Mülkiyyətçilər arasında kaptalın bölüşdürülməsi (dividendlər) | | - | - | - | - | - |
| 31 dekabr 2024-cü il tarixə | | 397 578 | - | 66 595 | - | 464 173 |
| 01 yanvar 2025-ci il tarixə | | 397 578 | - | 66 595 | - | 464 173 |
| Aktivlərin yenidən qiymətləndirilməsi | | - | - | - | - | - |
| Hesabat dövründə xalis mənfəət (zərər) | | - | - | 123 365 | - | 123 365 |
| Mülkiyyətçilərin kaptal qoyuluşları | | - | - | - | - | - |
| Mülkiyyətçilər arasında kaptalın bölüşdürülməsi (dividendlər) | | - | - | (141 448) | - | (141 448) |
| 31 dekabr 2025-ci il tarixə | | 397 578 | - | 48 512 | - | 446 090 |

"Karton Etiket Məhsulları" A.S.C-nin sədri: Həziyev Nemət
Mühasib: Talıbov Emil

"Karton Etiket Məhsulları" Açıq Səhmdar Cəmiyyəti Azərbaycan Respublikası Bakı şəhəri

AZEL-AUDİT

Dilarə Əliyeva Küçəsi 235A/5
AZ1010 Bakı- Azərbaycan
Tel:(+99412)599 01 11 Pbx
GSM(99450)255 94 11
E-mail: elza.suleymanova@azelaudit.az

**Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti;**

Bizim məqsədimiz təqdim edilmiş maliyyə hesabatlarında bir tam kimi, məqsədli şəkildə və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış auditor yoxlaması onu həmişə aşkarlasın. Təhriflər məqsədli şəkildə və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə təqdim edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

**Maliyyə hesabatlarının auditor yoxlamasına dair müstəqil auditor hesabatı**
**(KƏY № 8pÖPgtv4CH):**

Biz, Sizin "Karton Etiket Məhsulları" Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra "Cəmiyyət" adlandırılacaq) 31 dekabr 2025-ci il tarixə tərtib edilən maliyyə hesabatlarının "Maliyyə hesabatlarının Beynəlxalq Standartları"na (MHBS) uyğun hazırlanmasının düzgünlüyünü yoxladıq. Hesab edirik ki, Sizin "Karton Etiket Məhsulları" Açıq Səhmdar Cəmiyyətinin başa çatan 31 dekabr 2025-ci il tarixə tərtib edilən maliyyə hesabatları «Maliyyə hesabatlarının Beynəlxalq Standartları"na (MHBS) uyğun hazırlanmışdır.

**Rəy üçün əsaslar;**

Biz, auditor yoxlamasını Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (IESBA məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və digər etik öhdəliklərimizi bu və IESBA məcəlləsinin tələblərinə uyğun yerinə yetirmişik. Hesab edirik ki, əldə etdiyimiz audit sübutları müstəqil auditor hesabatını əsaslandırmaq üçün yetərli və münasibdir.

**Əsas audit məsələləri;**

Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə cari dövrün maliyyə hesabatlarının auditor yoxlamasında ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditor yoxlaması baxımından maliyyə hesabatlarına dair rəyimizin formalaşdırılmasında bütövlükdə nəzərə alınmışdır və biz bu məsələlərə dair ayrılıqda rəy vermirik.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti;**

Rəhbərlik maliyyə hesabatlarının BMHS –na (Beynəlxalq maliyyə hesabatları standartları) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, məqsədli şəkildə və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

«Azel - Audit» Məhdud Məsuliyyətli Cəmiyyətinin
direktoru və auditoru: Süleymanova Elzadə Süleyman qızı
25 iyun 2026-cı il
Bakı şəhəri, Azərbaycan Respublikası

# Bakıda "Psixologiya Zirvəsi - 4" beynəlxalq elmi-praktik konfrans keçirilib

**Bakı Slavyan Universiteti (BSU), Müasir Azərbaycan Psixoloqları Cəmiyyətinin və Psixologiya Elmi-Tədqiqat İnstitutunun birgə təşkilatçılığı ilə "Psixologiya Zirvəsi - 4. Şəhər, insan və psixoloji rifah" adlı beynəlxalq elmi-praktik konfrans keçirilib.**



Beynəlxalq tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Konfransda Bakı Slavyan Universitetinin rektoru Anar Nağıyev, Milli Məclisin deputatı, Müasir Azərbaycan Psixoloqları Cəmiyyətinin sədri, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, professor Bəxtiyar Əliyev, Psixologiya Elmi-Tədqiqat İnstitutunun sədri, fəlsəfə üzrə fəlsəfə doktoru Elnur Rüstəmov, Uluslararası Buxara Universitetinin rektoru, professor Şərif Baratov, professor doktor Mehmet Engin Deniz, professor Fuad İsmayılov, professor doktor Fuad Tanhan, professor doktor Metin Deniz, dosent Müşviq Mustafayev, uzman Narınc Rüstəmova, professor doktor Nevzat Tarhan, eklektik psixoterapevt, supervayzer David Poladov, Psixologiya Elmi-Tədqiqat İnstitutunun Psixometrika və elmi araşdırmalar üzrə baş koordinatoru, Testlərin Adaptasiyası Laboratoriyasının rəhbəri Ülkər Zalova Nuriyeva, uzman Fatimə Əhmədova, loqoped Nərmin Rüstəmova və digər yerli və xarici mütəxəssislər iştirak ediblər.

Tədbiri açan Bakı Slavyan Universitetinin rektoru Anar Nağıyev IV Beynəlxalq Psixologiya Zirvəsi Konfransına üçüncü dəfə evsahibliyi etməkdən məmnunluğunu ifadə edib. Bildirib ki, belə beynəlxalq elmi platformaların təşkili psixologiya sahəsində elmi əməkdaşlığın genişlənməsi, təcrübə mübadiləsinin aparılması və müasir çağırışların müzakirəsi baxımından mühüm əhəmiyyət daşıyır.

A.Nağıyev konfransın əsas mövzularından biri olan "Şəhər, insan və psixoloji rifah" istiqamətinin xüsusi aktuallıq daşıdığını vurğulayıb: "Müasir dövrdə şəhərsalma yalnız fiziki infrastrukturun formalaşdırılması deyil, eyni zamanda insanın psixoloji rahatlığının, sosial əlaqələrinin və həyat keyfiyyətinin təmin olunmasına xidmət edən mühüm amillərdən biridir". Rektor Azərbaycanın sürətli inkişafı, yeni şəhər mühitlərinin formalaşması və müasir urbanizasiya proseslərində insan amilinin nəzərə alınmasının vacibliyini də qeyd edib.

Milli Məclisin deputatı Bəxtiyar Əliyev çıxışında konfransın mövzusunun müasir dövrün aktual psixoloji problemlərinin araşdırılması baxımından mühüm əhəmiyyət daşıdığını bildirib. O, şəhər mühitinin insanın psixoloji vəziyyətinə, sosial münasibətlərinə və rifahına təsir edən əsas amillərdən biri olduğunu vurğulayıb. Professor Azərbaycanda psixologiya elminin inkişaf mərhələlərindən, bu sahədə mühüm elmi məktəblərin formalaşmasından və aparıcı alimlərin rolundan bəhs edib. Qeyd edib ki, psixologiya elminin inkişafı cəmiyyətin sosial-mənəvi tərəqqisi, insan kapitalının gücləndirilməsi və psixi rifahın təmin olunması baxımından strateji əhəmiyyət daşıyır.

Psixologiya Elmi-Tədqiqat İnstitutunun sədri Elnur Rüstəmov çıxışında Azərbaycan, Türkiyə və Özbəkistan arasında elm sahəsində mövcud olan əməkdaşlıq əlaqələrinin əhəmiyyətindən danışıb. Bildirib ki, institut tərəfindən Türkiyənin aparıcı universitetləri və elmi qurumları ilə uzun illərdir psixologiya sahəsində uğurlu təcrübə və bilik mübadiləsi həyata keçirilir. E.Rüstəmov gələcək illərdə də beynəlxalq əməkdaşlığın genişləndirilməsi, elmi layihələrin artırılması və psixologiya sahəsində yeni inkişaf istiqamətlərinin formalaşdırılması istiqamətində fəaliyyətlərin davam etdiriləcəyini qeyd edib.

Tarix elmləri doktoru, dosent Vasif Qafarov isə çıxışında bu kimi beynəlxalq elmi konfransların psixologiya elminin inkişafı, müasir çağırışların elmi müstəvidə araşdırılması və mütəxəssislər arasında təcrübə mübadiləsinin genişləndirilməsi baxımından mühüm rol oynadığını bildirib.

Konfrans çərçivəsində şəhər, insan və ailə münasibətləri, psixoloji təhlükəsizliyin formalaşmasında urban mühitin rolu, müasir şəhərləşmənin psixoloji aspektləri, psixoterapevtik yanaşmalar, klinik psixologiyada aktual problemlər, insan rifahı və sosial münasibətlərin transformasiyası, təhsil mühitində psixoloji xidmət və digər aktual mövzular ətrafında elmi təqdimatlar keçirilib.

İki gün davam edən konfransda müxtəlif ölkələrdən olan alim və mütəxəssislərin iştirakı ilə psixologiya elminin müasir istiqamətləri, urban mühitin insan psixologiyasına təsiri və psixoloji rifahın təmin olunması yolları geniş müzakirə edilib. Konfransın bağlanış mərasimində tədbirin elmi və təşkilati nəticələri yüksək qiymətləndirilib, bu kimi beynəlxalq elmi platformaların gələcək illərdə də davam etdirilməsinin vacibliyi vurğulanıb.

*"Azərbaycan"*




# 48 komanda arasında yalnız İspaniya və Meksika

**Dünya çempionatının qrup mərhələsi başa çatdıqdan sonra bir sıra statistik göstəricilər qeydə alınıb. 48 iştirakçı arasında yalnız 2 yığma - İspaniya və Meksika qrup mərhələsini qapısından top buraxmadan tamamlayıb.**

**İspaniya millisinin qapıçısı Unay Simon üç oyunun hamısında forma geyinərək qapısını toxunulmaz saxlayıb. O, 4 dəfə komandasını real qol epizodundan xilas edib. Meksika millisinin qolkiperi Raul Rangel isə 258 dəqiqə meydanda olub və 3-cü qrup oyununun sonlarında Gilermo Oçoa ilə əvəzlənib. Rangel 5 real qol epizodunda qalib olub.**

**Qeyd edək ki, 1/16 final mərhələsində İspaniya Avstriya ilə, Meksika isə Ekvadorla üz-üzə gələcək.**



# Komanda yoldaşları Messi barədə

**"Komo"nun və Argentina millisinin yarımmüdafiəçisi Nikolas Pas komanda yoldaşı Lionel Messi barədə danışıb: "Bu, dəlilikdir. Yaşından asılı olmayaraq, o, bizi gündən-günə təəccübləndirməyə davam edir. Hər matçda o, komanda üçün nə qədər vacib olduğunu göstərir və bu, inanılmazdır. Ümid edirəm ki, Messi belə də davam edəcək".**

Pas dünya çempionatında ilk dəfə start heyətində meydana çıxıb. O, İordaniya millisi üzərində 3:1 hesablı qələbə ilə başa çatan görüşdə 60 dəqiqə oynayıb. Sonradan meydana daxil olan Messi isə 20 dəqiqə sonra fərqlənərək, komandasının qələbəsini rəsmiləşdirib. 39 yaşlı futbolçu 2026-cı il dünya çempionatında vurduğu 6 qolla bombardirlər siyahısına başçılıq edir.



Argentina millisinin müdafiəçisi Nikolas Talyafiko da komandanın ovqatı və Lionel Messinin hazırkı forması barədə bunları deyib: "Hər bir futbolçu milliyə gələndə komanda yoldaşı üçün əlindən gələni etmək istəyir. Eyni düşüncəyə malik 10-15 oyunçu bir araya gələndə rəqib üçün səni məğlub etmək çox çətin olur. Bizi güclü milli komandaya çevirən də məhz budur. Messi 2022-ci ildə olduğu səviyyədədir. O, futboldan böyük zövq alır. Öz üzərinə əlavə təzyiq qoymasına ehtiyac yoxdur".

# Vinisius Messi və Ronaldoya çatdı



**Braziliya millisinin hücumçusu Vinisius Junior DÇ-2026-nın qrup mərhələsində keçirilən hər 3 oyunun ən yaxşı futbolçusu seçilib. Nəticədə o, nadir bir nailiyyəti təkrarlayıb.**

Vinisius dünya çempionatları tarixində qrup mərhələsinin hər 3 oyununda matçın ən yaxşı futbolçusu seçilən üçüncü oyunçu olub. Daha əvvəl buna yalnız Lionel Messi (2014) və Kriştiano Ronaldo (2010) nail olmuşdu.

Vinisius cari dünya çempionatında 4 qol vurub və 1 məhsuldar ötürmə edib.

# Millidəki oyunu Harri Keyni nəhənglərin maraq dairəsinə salıb



**"Barselona" klubu "Bavariya"nın və İngiltərə yığmasının hücumçusu Harri Keynin transfer imkanlarını araşdırır. Bu barədə "Daily Mail" nəşri məlumat yayıb.**

Məlumata görə, İspaniya təmsilçisi mümkün keçidi müzakirə etmək üçün 32 yaşlı forvardın yaxın çevrəsi ilə əlaqə saxlayıb. Lakin futbolçu Almaniyada özünü rahat hiss edir və hazırda "Bavariya" ilə müqaviləsinin uzadılması ehtimalına köklənib.

# Uqarte uzun müddətə sıradan çıxdı

**"Mançester Yunayted" və Uruqvay milli komandasının yarımmüdafiəçisi Manuel Uqarte zədələnərək uzun müddətlik sıradan çıxıb.**



Klubun yaydığı məlumata görə, aparılan MRT müayinəsindən sonra futbolçunun dizinin çarpaz bağlarının qopduğu təsdiqlənib. Bu zədə səbəbindən onun uzun müddət futboldan kənarda qalacağı bildirilir.

Qeyd edək ki, Uqarte DÇ-2026-da Uruqvay yığmasının heyətində üç matçda iştirak edib. O, İspaniyaya qarşı keçirilən oyunda zədələnərək 45-ci dəqiqədə əvəzlənmək məcburiyyətində qalıb.

Xatırladaq ki, həmin görüşdə İspaniyaya məğlub olan Uruqvay millisi qrup mərhələsini cəmi 2 xalla başa vuraraq turnirlə vidalaşıb.

# Federasiya prezidenti mundialdakı uğursuzluğa görə istefa verdi

**Səudiyyə Ərəbistanı Futbol Federasiyasının prezidenti Yasir Əl-Mişhal milli komandanın uğursuz çıxışından sonra istefa verib. O bu barədə sosial şəbəkə hesabında paylaşım edib.**



"İdarə Heyətindəki həmkarlarımla birlikdə Səudiyyə futbolunun inkişafı üçün əlimizdən gələni etdik və ölkəmizin, azarkeşlərimizin gözləntilərini doğrultmağa çalışdıq. Lakin milli komandanın dünya çempionatının növbəti mərhələsinə yüksələ bilməməsi ümumi hədəflərimizə uyğun nəticə deyil. Buna görə bütün məsuliyyəti üzərimə götürür və yığmamızı daha yaxşı vəziyyətdə görmək istəyən hər kəsdən üzr istəyirəm", - deyə Əl-Mişhal bildirib.

Qeyd edək ki, Səudiyyə Ərəbistanı millisi DÇ-2026-nın qrup mərhələsində cəmi 2 xal toplayaraq qrupda sonuncu yeri tutub və pley-off mərhələsinə yüksələ bilməyib.

# Yığmanın rəhbərliyi sərt tənqid olundu

**Cənubi Koreya Prezidenti Li Çje Myon millinin DÇ-2026 ilə erkən vidalaşmasından sonra yığma rəhbərliyini sərt tənqid edib.**

Dövlət başçısı "X" hesabında paylaşdığı açıqlamada uğursuzluğun əsas səbəbinin idarəçilik problemləri olduğunu bildirib: "Nəhayət, hər şeyin təməlində insan amilinin dayandığı bir daha sübut olundu. Qohumbazlıq və qruplaşmalar səriştədən üstün tutularsa, qeyri-peşəkar insanlar rəhbər vəzifələrə təyin edilir və uğursuzluq qaçılmaz olur. Vətəndaşlarımızda böyük məyusluq yaradan bu uğursuzluq təşkilati və idarəçilik səhvlərinin nəticəsidir".

Qeyd edək ki, Cənubi Koreya millisi DÇ-2026-nın A qrupunda 3 xalla üçüncü yeri tutaraq mübarizəni dayandırıb.

# Əlcəzair millisindən maraqlı göstərici



**Qrup mərhələsinin son turunda keçirilmiş Əlcəzair - Avstriya qarşılaşmasında (3:3) afrikalılar maraqlı göstəriciyə imza atıblar.**

RBK xəbər verir ki, "Opta" analitik platformasının hesablamasına görə, Əlcəzair futbolçuları Avstriyanın qapısına vurduqları üçüncü qoldan əvvəl 5 dəqiqədən çox fasiləsiz topa sahib olublar. Lakin 93-cü dəqiqədə Əlcəzair millisinin kapitanı Riyad Marez komanda yoldaşlarının 110 ötürməsindən sonra fərqlənərək hesabı 3:2 edib.

Bununla belə, Əlcəzair millisi üstünlüyünü cəmi 3 dəqiqə qoruya bilib. Avstriya yığmasında sonradan meydana daxil olan Saşa Kalayciç 96-cı dəqiqədə hesabı bərabərləşdirib. Nəticədə Avstriya J qrupunu ikinci pillədə başa vuraraq pley-offda İspaniya ilə qarşılaşma imkanı əldə edib. Əlcəzair isə qruplarda üçüncü yeri tutan ən yaxşı 8 komanda sırasında yer alaraq 1/16 finala yüksəlib və bu mərhələdə İsveçrə ilə üz-üzə gələcək.

# Roberto Martines Ronaldoyla bağlı suallara aydınlıq gətirdi

**Portuqaliya millisinin baş məşqçisi Roberto Martines hücumçu Kriştiano Ronaldonun DÇ-2026-da əvəz olunmadan oynamasına aydınlıq gətirib.**

Mütəxəssis qrup mərhələsinin 3-cü tur matçlarında müvafiq olaraq Argentina və Norveç yığmalarının start heyətində yer almayan Lionel Messi və Erlinq Haalandla Ronaldonun müqayisə edilməsinə də münasibət bildirib. "Goal" nəşrinə danışan Martines bu cür müqayisələrin əleyhinə olduğunu vurğulayıb: "Biz özümüzü digər komandaların futbolçuları ilə müqayisə etmirik. Bu, uşaqlıq olardı. Kriştiano lazımi vaxtda lazımi yerdə olmağa öyrəşib. Burada məsələ daha çox psixoloji dayanıqlıq, mövqedəki daimi nizam-intizam və hücum sxemlərimizdə mütəmadi boşluqlar yaratmaqla bağlıdır. Bütün 90 dəqiqəni meydanda keçirmək Ronaldo üçün heç bir problem yaratmır".

# Şotlandiyanın baş məşqçisi istefa verəcəyini deyib

**Şotlandiya komandasının baş məşqçisi Stiv Klark komandasının dünya çempionatının seçmə mərhələsini keçə bilmədiyi üçün vəzifəsindən istefa verəcəyini açıqlayıb. Klarkın açıqlamasını Şotlandiya Futbol Assosiasiyası yayıb.**

**"Vidalaşmağın ən emosional tərəfi oyunçularla yolları ayırmaqdır; onlar olmasaydı, 2019-cu ildən bəri qurduğumuz xatirələrdən heç biri olmayacaqdı. Onlar aldıqları hər cür tərifə və təqdirə layiqdirlər. Onların baş məşqçisi olmaq mənim üçün əsl şərəf idi. Məni komandalarında qəbul etdikləri üçün onlara təşəkkür edirəm və uğurlar arzulayıram", - Klark bildirib.**

**Şotlandiya 3 xalla C qrupunu üçüncü pillədə başa vurub. Komanda üçüncü yeri tutan ən yaxşı 8 komanda arasında yer ala bilməyib.**

# "Ümid edirəm ki, qardaşım bununla üzləşməyəcək"

**Braziliya millisinin hücumçusu Vinisius Junior futbolda irqçiliklə mübarizəsi barədə danışıb. 25 yaşlı futbolçu meydandan kənarda qazandığı qələbələrin onun üçün daha vacib olduğunu bildirib.**

"Mən həmişə deyirəm ki, meydandan kənardakı bu qələbələr meydanda qazandıqlarımdan daha vacibdir. Bu yolla daha çox insana kömək edə bilirəm. Hazırda FIFA və UEFA mənim tərəfimdədir. Əlbəttə, hər şey çox yavaş irəliləyir, amma vacib olan bu dəyişikliklərin davam etməsi və növbəti nəslin irqçilikdən əziyyət çəkməməsidir. Qardaşımın indi 7 yaşı var və ümid edirəm ki, o, bununla üzləşməyəcək. Mən meydanda böyük işlər görməyə davam etmək istəyirəm. Amma əsas məqsədim, şübhəsiz, gəncləri ruhlandırmaq və mənim qədər güclü səsi olmayan qaradərili insanlar üçün mübarizə aparmaqdır", - deyə Vinisius bildirib.

## Ronaldo Mbappeyə tərif "yağdırdı"



**Braziliya millisinin sabiq hücumçusu Ronaldo Fransa yığmasının kapitanı Kilian Mbappe haqda danışıb. İkiqat dünya çempionu Mbappenin oyun tərzini özünə bənzədib:**

"Geridə qoyduğumuz miras barədə düşünmək lazımdır. Amma onların hər ikisi, şübhəsiz, rəqəmlərdən üstün olan futbolçulardır və turnir tarixinin ən yaxşı bombardirləri olmağa layiqdirlər. Messi futbol tarixinin ən böyük oyunçularından biridir, bu gün də təsir gücünə malikdir və oyunun nəticəsini müəyyənləşdirməyi bacarır. Mbappeyə gəlincə, onun oyun üslubu mənə öz zirvə dövrümü xatırladır. O, müasir futbolun ən böyüklərindən biridir və bu oyunun əfsanələrinin təbii varisidir", - deyə Ronaldo bildirib.

Qeyd edək ki, DÇ-2026-da "Qızıl buts" uğrunda mübarizə davam edir. Lionel Messi 6 qolla siyahıya başçılıq edir. Kilian Mbappe isə hələlik 4 qolla argentinalı futbolçunu izləyir.

## Romario müasir futboldan danışıb

**Braziliya millisinin keçmiş hücumçusu Romario müasir futboldakı dəyişikliklərdən danışıb.**

"Mbappe və Haaland və onların qolları haqqında çox danışılır. Sizcə, keçmişdə futbol bugünkündən daha çətin idimi?" sualına o belə cavab verib.

"Əvvəla, mən Mbappenin azarkeşiyəm. O, dünyanın ən yaxşı oyunçularından biridir və Fransanın açılış oyunlarından sonra Dünya Kubokundakı ən güclü üç oyunçudan biridir. Müasir futbol mənim dövrümdə olduğundan çox fərqlidir. İndi fiziki hazırlıq texnikadan daha vacib rol oynayır. Buna görə də əvvəlki gözəlliyi görmürük. O vaxtlar daha çox texniki oyunçu var idi, onlar futbolu daha gözəl və möhtəşəm edirdilər".

*Hazırladı:*
*Dönməz ABBASOV*

# Kanada növbəti mərhələyə çıxmaqla yeni tarix yazdı

**Kanada millisi tarixində ilk dəfə dünya çempionatında 1/8 final mərhələsinə yüksəlib.**

Şimali Amerika təmsilçisi DÇ-2026-nın 1/16 finalında Cənubi Afrika Respublikasını 1:0 hesabı ilə məğlub edib.

Kanada 1/8 finalda Niderland - Mərakeş cütünün qalibi ilə qarşılaşacaq.



